RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 236 (9981) 5 noyabr 2025-ci il ÇƏRŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



## Azərbaycanın gələcəyi elm, bilik və milli ruh üzərində qurulacaq



Azərbaycan Prezidenti çıxışında 10 il əvvəl AMEA-nın 70 illik yubileyindəki nitqini xatırlatdı və qeyd etdi ki, dünya iqtisadiyyatı tamamilə dəyişmiş, beynəlxalq aləmdə gedən siyasi proseslər, müharibələr, hərbi toqquşmalar, beynəlxalq hüququn pozulması, mövcud olan qaydaların tamamilə aradan qaldırılması göz önündədir: "Azərbaycana gəldikdə, son 10 il bizim üçün inkişaf və zəfərlərlə zəngin illər olmuşdur. Əsas vəzifə - torpaqlarımızın azad edilməsi, ərazi bütövlüyümüzün bərpası, suverenliyimizin bərpası layiqincə təmin edilmişdir. Bu gün Azərbaycan bütün suveren torpaqlara sahibdir. Bizim ərazimizdə işğalçı qüvvələr yoxdur. Bizim ərazimizdə xarici hərbi birləşmələr yoxdur. Bu gün biz bu torpaqlarda qurub-yaradırıq. Biz bir neçə gündən sonra şanlı Zəfərimizin beşinci ildönümünü qeyd edəcəyik. Son beş il ərzində dünyada bir çox yerlərdə müharibələr, toqquşmalar, münaqişələr baş verirdi və hər şey müqayisə ilə ölçülür. Bunu da alimlər yaxşı bilirlər. Deyə bilərəm ki, bizim qədər parlaq, tam və mütləq Qələbə qazanan ikinci ölkə olmamışdır".

Prezident İlham Əliyev hələ AMEA-nın 70 illik yubileyində dünyadakı yeni vəziyyətlə əlaqədar alimləri öz dəyərli təkliflərini verməyə çağırmışdı, onları qeyri-neft sənayesinin inkişafı, ərzaq təhlükəsizliyi ilə bağlı fəal olmağa səsləmişdi. Dövlətimizin başçısı hərbi sənaye sahəsində də Azərbaycan alimlərinin fəaliyyəti üçün geniş meydanın olduğunu söyləmişdi.

Bu gün artıq hər kəsə bəllidir ki, ölkənin tərəqqisini təbii resurslardan çox, məhz cəmiyyətin intellektual potensialı, texnoloji inkişaf müəyyən edir: "Təbii sərvətlər tükənən sərvətlərdir, gec-tez tükənəcək. Tükənməz sərvət isə intellektual potensialdır, amma o halda əgər buna sərmayə qoyularsa. O sərmayəni dövlət qoymalıdır. Ölkənin elm ictimaiyyəti, alimlər bu istiqamətdə öz səylərini göstərməlidirlər. Ona görə bu gün əsas vəzifələrdən biri texnoloji inkişafdır", - Prezident İlham Əliyev AMEA-nın 80 illik yubileyində xüsusi vurğulamışdır.

Dövlətimizin başçısı çıxışında onu da qeyd etdi ki, elm artıq yalnız elmi tədqiqat obyekti deyil, milli təhlükəsizlik və iqtisadi müstəqilliyin təməlidir. Prezidentin bu fikri çağdaş dövrdə elmin strateji mahiyyətini açır. Azərbaycanın sosial-iqtisadi nailiyyətlərinin, həmçinin Vətən müharibəsindəki tarixi Zəfərimizin arxasında da məhz bu baxış - bilik, innovasiya və texnologiyaya söykənən inkişaf modeli dayanır.

Dövlət başçısı elmi ictimaiyyətə çağırış edərək bildirdi ki, Azərbaycan alimləri bu yeni mərhələdə ölkənin texnoloji tərəqqisinin aparıcı qüvvəsinə çevrilməlidirlər.

7

## Zəfərə aparan elmi idarəçilik



Bu tarixi qələbənin əldə edilməsində əsasını Ulu Öndər Heydər Əliyevin qoyduğu və Prezident İlham Əliyev tərəfindən yaradıcılıqla inkişaf etdirilən müasir ölkə quruculuğu istiqamətində uğurlu çalışmalar, innovativ dövlət idarəçiliyi sahəsində böyük bacarıqlar durur. Bu siyasətin həyata keçirilməsi nəticəsində ölkədə iqtisadi yüksəlişə nail olunmuş, sosial sahənin məqsədyönlü inkişafı təmin edilmiş, hərbi quruculuq istiqamətində kompleks tədbirlər həyata keçirilmişdir. Bunlarla yanaşı, Vətən müharibəsində qələbəni, ölkənin ərazi bütövlüyünün bərpasını təmin edən digər amillər arasında qlobal miqyasda reallaşdırılan çevik və uğurlu diplomatik fəaliyyət, dünyanın aparıcı televiziya kanalları, beynəlxalq qəzet və jurnallara verilən müsahibələrin çox böyük əhəmiyyəti olmuşdur. Bütün bu fəaliyyətlər Prezident İlham Əliyev tərəfindən şəxsən böyük peşəkarlıqla həyata keçirilmişdir.

Azərbaycan Respublikasının Vətən müharibəsində qazandığı tarixi qələbə mükəmməl hərbi və ümummilli təhlükəsizlik siyasətinə əsaslanır. Lakin bununla yanaşı, qazanılmış zəfəri, ən müasir elmə əsaslanan və təcrübədən uğurla çıxan davamlı və inklüziv inkişaf siyasətini təmin edib. Ölkə Prezidenti İlham Əliyevin dövlət idarəçiliyi sahəsində dünyada ilk dəfə tətbiq etdiyi yeni siyasət və texnologiyalar ölkənin hərtərəfli inkişafını təmin edərək, dövlətin ərazi bütövlüyünə və suverenliyinə səbəb oldu.

Hazırda "Böyük qayıdış" proqramı çərçivəsində işğaldan azad olunmuş ərazilərin iqtisadi, sosial, ekoloji və humanitar reabilitasiyası uğurla həyata keçirilir və artıq 50 mindən çox insan, o cümlədən 20 mindən çox məcburi köçkün öz yurdları olan Qarabağ və Şərqi Zəngəzura qayıtmaq imkanı qazanmışlar.

6

## Qərbi Azərbaycana qayıdış etimad quruculuğunun vacib şərtidir



Azərbaycanın qədim toponimləri ermənilər tərəfindən dəyişdirilərək uydurma adlarla adlandırılıb, bəzən isə türk dilində mövcud olan yer adlarını ermənicəyə çeviriblər.

Ölkəmizin rəhbəri müxtəlif vaxtlarda etdiyi çıxışlarında aidiyyəti qurumları, bu işlə məşğul olan hər kəsi tarixi həqiqətlərin olduğu kimi bərpa edilməsinə və bunun xəritələrdə öz əksini tapmasına çağırıb. Vətən müharibəsindən sonra işğaldan azad olunan Kəlbəcər və Laçına səfər edən dövlət başçısı bir daha vurğulamışdı ki, indiki Ermənistan ərazisində yerləşən bütün qədim Azərbaycan yaşayış məntəqələri öz adları ilə çağırılmalıdır. Həmçinin bütün qədim, yəni tarixi adlar bərpa edilməlidir.

8

## Prezidentin çağırışı

### Dövlət başçısı alimləri bərpaolunan enerji layihələrində fəal iştiraka dəvət etdi

Azərbaycanda icra edilən bərpaolunan enerji layihələri həqiqətən də genişmiqyaslıdır. Təkcə işğaldan azad olunmuş ərazilərimizdə həmin istiqamətdə görülən işləri qeyd etmək kifayətdir. Məlum olduğu kimi, Prezidentimiz Qarabağı və Şərqi Zəngəzuru "yaşıl enerji" zonası elan edib. Orada indiyədək bir sıra bərpaolunan eneji layihələri uğurla icra edilib ki, bu da qarşıya qoyulan hədəflərə doğru inamlı addımları göstərir. Cari ilin avqust ayında Kəlbəcərdə istifadəyə verilən üç yeni kiçik su-elektrik stansiyasının (KSES) açılışı ilə Qarabağ və Şərqi Zəngəzurda bu cür enerji obyektlərinin sayı ümumilikdə 38-ə, ümumi gücü isə 307 MVt-a çatıb. Həmin stansiyaların əksəriyyətinin açılışında Prezident İlham Əliyevin iştirak etməsi onların önəminə bir daha diqqət çəkir. İndi bu sıraya "Şəms" və "Üfüq" də qoşulacaq. Xatırladaq ki, Prezident İlham Əliyev oktyabrın 28-də Cəbrayıl rayonunun Şahvəlli kəndində hər birinin gücü 50 meqavat olan "Şəms" və "Üfüq" Günəş-Elektrik stansiyalarının təməlini qoyub. Bu layihə ölkəmizin "yaşıl enerji" strategiyasının mühüm tərkib hissəsidir və Cəbrayıl rayonunun enerji xəritəsinin zənginləşməsinə xidmət edir.

8

## Ermənistanda seçkiqabağı gərginlik indidən hiss olunmağa başlayıb

Bu gün Ermənistanın Baş naziri sülhə, əməkdaşlığa, ölkəsinin və digər dövlətlərin sərhədlərinin tanınmasına və ərazi iddialarından çəkilməyə ehtiyacın olduğunu deyir və məhz bu platforma ilə seçkilərə getmək niyyətindədir: "Parlament seçkilərindən sonra Ermənistanda yeni konstitusiyanın qəbulu ilə bağlı referendumun keçirilməsi də nəzərdə tutulur. Hazırkı konstitusiya Qarabağa ərazi iddialarını açıq şəkildə nəzərdə tutur. Azərbaycan isə sülh müqaviləsinin imzalanmasından əvvəl həmin iddiaların aradan qaldırılmasını israr edir. Çox şey bunun erməni seçiciləri tərəfindən dəstəklənib-dəstəklənməməsindən asılıdır. Bu məsələ revanşist qüvvələrin Nikol Paşinyana qarşı mübarizələrinin fonunda xüsusilə aktualdır. Digər tərəfdən, Rusiyanın dolayı yolla olsa da, Paşinyanla "mübarizə aparmaq" niyyətində olduğuna dair bir çox əlamət mövcuddur. Çünki rəsmi Moskva Ermənistanın Baş naziri vəzifəsinə daha "sədaqətli" və itaətkar bir şəxsin gətirilməsinə üstünlük verir. Bu gün Nikol Paşinyana qarşı daşnaklar, "Qarabağ klanı"nın qalıqları, "Respublikaçılar", Serj Sarkisyanın "Şərəfim var" partiyası və digər iddialı və fərqli siyasi qüvvələrin daxil olduğu cəbhə açılıb. Lakin onların arasında adı və nüfuzu ilə səs toplamaq iqtidarında olan bir lider yoxdur. Müxalifət cəbhəsində "Qarabağ klanı"nın liderləri R.Koçaryan və S.Sarkisyan əsas rol oynayırlar. Paşinyan üçün ən təhlükəli hesab edilən rəqib məhz Ermənistanın ikinci prezidenti R.Koçaryandır.

9



# "Azərbaycan Respublikası Hökuməti və Birləşmiş Ərəb Əmirlikləri Hökuməti arasında Hərtərəfli İqtisadi Tərəfdaşlıq Sazişi"nin təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

2025-ci il iyulun 9-da Əbu-Dabi şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti və Birləşmiş Ərəb Əmirlikləri Hökuməti arasında Hərtərəfli İqtisadi Tərəfdaşlıq Sazişi" təsdiq edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 oktyabr 2025-ci il*

---

# "Azərbaycan Respublikası Hökuməti ilə Pakistan İslam Respublikası Hökuməti arasında Pakistan İslam Respublikasında "ASAN xidmət" təcrübəsinin tətbiqi istiqamətində əməkdaşlığa dair Saziş"in təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 2025-ci il sentyabrın 10-da İslamabad şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Pakistan İslam Respublikası Hökuməti arasında Pakistan İslam Respublikasında "ASAN xidmət" təcrübəsinin tətbiqi istiqamətində əməkdaşlığa dair Saziş" təsdiq edilsin.

2. Bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Pakistan İslam Respublikası Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 noyabr 2025-ci il*

---

# "Məhkəmə Ekspertizası" informasiya sisteminin yaradılması haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Məhkəmə ekspertizası fəaliyyətində şəffaflığın və operativliyin artırılması ədalət mühakiməsinin həyata keçirilməsi, həmçinin təhqiqat və ibtidai istintaq zamanı obyektiv rəylərin təqdim edilməsi üçün xüsusi əhəmiyyət kəsb edir. Bu sahədə müasir texnologiyaların tətbiqi obyektiv, hərtərəfli və ətraflı məhkəmə ekspertizası tədqiqatlarının aparılmasında, yarana biləcək sui-istifadə hallarının qarşısının alınmasında olduqca vacibdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq dövlət orqanlarının (qurumlarının) məhkəmə ekspertizası sahəsində fəaliyyətinin elektronlaşdırılması və məhkəmə ekspertizası idarələrinin fəaliyyətinin dövlət informasiya ehtiyatları və sistemləri ilə əlaqələndirilməsini təmin etmək məqsədilə **qərara alıram:**

1. Dövlət orqanlarının (qurumlarının) məhkəmə ekspertizası sahəsində fəaliyyətinin elektronlaşdırılması, ümumi məlumat və bilik bazasının formalaşdırılması və həmin bazadan istifadənin əlçatanlığının təmin edilməsi məqsədilə "Məhkəmə Ekspertizası" informasiya sistemi (bundan sonra - Sistem) yaradılsın.

2. Müəyyən edilsin ki:

2.1. Sistemin sahibi və operatoru funksiyalarını Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi həyata keçirir;

2.2. Sistemin yaradılması, saxlanılması, fəaliyyətinin təşkili, idarə olunması və təkmilləşdirilməsi ilə bağlı xərclər dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşdirilir;

2.3. Sistem vasitəsilə aşağıdakılar təmin edilir:

2.3.1. məzmununda dövlət sirri təşkil edən məlumat olanlar istisna olmaqla məhkəmə ekspertizasının təyin edilməsi ilə bağlı elektron qaydada göndərilən qərarların (qərardadların) Sistemə qəbulu;

2.3.2. məhkəmə ekspertizasının təyin edilməsi ilə bağlı elektron qaydada göndərilən qərarların (qərardadların) icraata yönəldilməsi barədə müvafiq məlumatların məhkəmə ekspertizasını təyin etmiş orqana (quruma) və ya şəxsə elektron qaydada (elektron poçt, SMS və s.) göndərilməsi;

2.3.3. istifadəçilər, o cümlədən hər bir məhkəmə eksperti üçün Sistemdə şəxsi kabinetin yaradılması;

2.3.4. məhkəmə ekspertizalarının aparılma müddətlərinə riayət olunmasının izlənilməsi və müddətlərin bitməsi ilə bağlı xəbərdaredici məlumatın göndərilməsi;

2.3.5. məhkəmə ekspertizasının təyin edilməsi ilə bağlı elektron qaydada göndərilən qərarlar (qərardadlar) üzrə məhkəmə ekspertizalarının aparılması zamanı verilən vəsatətlərin, ekspert rəylərinin və ekspertizaların aparılmasından imtina ilə bağlı məlumatların təkmil sertifikatlı gücləndirilmiş elektron imza ilə məhkəmə ekspertizasını təyin edən orqana (quruma) və ya şəxsə göndərilməsi;

2.3.6. məzmununda dövlət sirri təşkil edən məlumat olan sənədlər istisna olmaqla ekspert rəy və məlumatlarının arxivləşdirilməsi;

2.3.7. məhkəmə ekspertizasının aparılması üçün zəruri olan məlumatların aidiyyəti dövlət informasiya ehtiyatlarından və sistemlərindən əldə edilməsi;

2.3.8. məhkəmə ekspertizası fəaliyyəti ilə bağlı statistik və digər hesabatların hazırlanması;

2.3.9. bəzi məhkəmə ekspertizası növlərinin elektron qaydada keçirilməsi.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. altı ay müddətində:

3.1.1. Sistemin yaradılması ilə əlaqədar normativ hüquqi aktların təkmilləşdirilməsinə dair təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.1.2. "Məhkəmə Ekspertizası" informasiya sistemi haqqında əsasnaməni Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin;

3.2. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

4. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi:

4.1. Sistemin saxlanılması, ondan səmərəli istifadənin təmin edilməsi və inkişaf etdirilməsi, habelə Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi, Azərbaycan Respublikasının Müdafiə Nazirliyi və Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi ilə birlikdə məhkəmə ekspertizası sahəsində fəaliyyət istiqamətlərinə uyğun olaraq Sistemin formalaşdırılması və aparılması, həmçinin fəaliyyətinin təşkili üçün zəruri tədbirlər görsün;

4.2. aidiyyəti dövlət orqanları (qurumları) ilə birlikdə "Məhkəmə Ekspertizası Tədqiqat Metodlarının Dövlət Reyestri", "Məhkəmə Ekspertlərinin Reyestri" və "Məhkəmə ekspertizasının metodik fondu" dövlət informasiya ehtiyatlarının Sistemin altsistemləri kimi təşkilini təmin etsin;

4.3. Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə birlikdə Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 3 iyun tarixli 718 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Hökumət buludu" (G-cloud) Konsepsiyası"na uyğun olaraq, Sistemin "Hökumət buludu"nda yerləşdirilməsini təmin etsin;

4.4. bu Fərmandan irəli gələn digər məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

5. Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi və Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"nın təsdiq edilməsi və elektron hökumətlə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanının tələblərindən irəli gələn tədbirlərin həyata keçirilməsini təmin etsinlər.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 noyabr 2025-ci il*

---

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Əs-səlamu əleykum və rəhmətullahi və bərəkətuhu!

Ölkənizin Zəfər Günü və Dövlət Bayrağı Günü münasibətilə Zati-alinizə səmimi təbriklərimizi və ən xoş arzularımızı çatdırmaqdan məmnunluq duyuruq.

Sizə möhkəm cansağlığı və səadət, qardaş Azərbaycan Hökumətinə və xalqına davamlı inkişaf və rifah arzu edirik.

Qardaş ölkələrimiz və xalqlarımız arasında bütün sahələrdə münasibətləri möhkəmləndirmək və inkişaf etdirmək istəyimizi bir daha bəyan edirik.

Zati-alinizə salamlarımızı və ehtiramımızı çatdırırıq.

*Qardaşınız,*

***Salman bin Əbdüləziz Al SƏUD,***
***İki Müqəddəs Ocağın Xadimi,***
***Səudiyyə Ərəbistanının Kralı***

❖ ❖ ❖

Zati-aliləri!

Şanlı Zəfər Gününün beşinci ildönümü münasibətilə zati-alinizə və qardaş Azərbaycan xalqına Pakistan Hökuməti və xalqı adından, şəxsən öz adımdan ən səmimi təbriklərimi çatdırıram.

Bu gün zati-alinizin uzaqgörən rəhbərliyi ilə Vətəninin suverenliyini və ərazi bütövlüyünü fədakarlıqla bərpa edən Azərbaycan xalqının əzmkar mübarizəsinin və qətiyyətinin qürurverici təntənəsidir. İşğal olunmuş ərazilərin azad edilməsi Azərbaycanın müasir tarixində ədalətin, dözümlülüyün və milli birliyin rəmzi olan əlamətdar bir nailiyyət kimi qalır.

Bu il Qələbə Gününün qeyd olunması Ermənistanla münasibətlərdə əhəmiyyətli inkişafdan sonra regionda davamlı sülhə doğru müsbət nəticələrin təşviq edilməsi ilə üst-üstə düşdüyündən xüsusi əhəmiyyət daşıyır. Bu tarixi məqam hamı üçün sabitlik, əməkdaşlıq və firavanlıqla təmin olunacaq gələcəyin qurulması üçün yeni ümidlər doğurur.

Pakistan Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə qətiyyətli və ardıcıl dəstəyini bir daha təsdiqləyir. Əminəm ki, xalqlarımız və dövlətlərimiz arasında dostluq və qardaşlıq əlaqələri qarşıdakı illərdə də möhkəmlənəcəkdir.

Fürsətdən istifadə edərək zati-alinizə möhkəm cansağlığı və səadət, qardaş Azərbaycan xalqına davamlı sülh, tərəqqi və firavanlıq arzularımı çatdırıram.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Asif Əli ZƏRDARİ,***
***Pakistan İslam Respublikasının Prezidenti***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu!

Dəyərli qardaşım.

Ölkənizin şanlı bayramı - Zəfər Günü münasibətilə Sizi - əziz qardaşımı və bütün Azərbaycan xalqını səmimi-qəlbdən təbrik edir, ən xoş arzularımı çatdırmaqdan böyük məmnunluq duyuram.

Beş il əvvəl doğma Vətəninin əsl fədaisi və sadiq oğlu, görkəmli dövlət və siyasət xadimi olan Sizin kimi müdrik rəhbərin qətiyyəti və cəsarəti sayəsində ölkənizin ərazi bütövlüyü bərpa edilmiş, tarixi ədalət təmin olunmuşdur.

Bu möhtəşəm hadisə təkcə Azərbaycanın gücünü və böyük potensialını bütün dünyaya aydın şəkildə nümayiş etdirmədi, həm də regionda sülh, qarşılıqlı anlaşma və sabitliyin möhkəmlənməsi üçün əsaslı zəmin yaratdı.

Bu məqamda Sizin Cənubi Qafqazda əmin-amanlığın və davamlı inkişafın təmin edilməsi istiqamətində həyata keçirdiyiniz ardıcıl səyləri tam dəstəklədiyimizi bir daha vurğulayıram.

Son illərdə ölkənizə səfərlərim zamanı Qarabağ bölgəsində müasir infrastrukturun qurulmasının, mədəni irs abidələrinin bərpa edilməsinin, bu ərazilərdə yaşayan əhalinin həyat səviyyəsinin yüksəldilməsinin şahidi oluruq və səmimi bir qardaş kimi bu misilsiz nailiyyətlərdən böyük sevinc hissi keçiririk.

Hörmətli İlham Heydər oğlu, Sizinlə bu il Azərbaycanın füsunkar Bakı, Xankəndi və Qəbələ şəhərlərində açıq və məhsuldar görüşlərimiz, habelə səmərəli danışıqlar zamanı əldə olunan mühüm razılaşmaların tam icrasının strateji tərəfdaşlıq və müttəfiqlik münasibətlərimizi tamamilə yeni mərhələyə yüksəldəcəyinə əminəm.

Əziz dostum, yaxın gələcəkdə Mərkəzi Asiyanın dövlət başçılarının növbəti Məşvərət Görüşündə iştirak etmək üçün Sizin Özbəkistana səfərinizi səbirsizliklə gözləyirəm.

Ölkənizin həyatındakı bu unudulmaz tarix münasibətilə bir daha səmimi təbriklərimi bildirir, Sizə möhkəm cansağlığı, ailə səadəti, ali dövləti fəaliyyətinizdə böyük uğurlar, qardaş Azərbaycan xalqına isə sülh, rifah və daimi tərəqqi arzulayıram.

*Səmimi hörmətlə,*

***Şavkat MİRZİYOYEV,***
***Özbəkistan Respublikasının Prezidenti***

❖ ❖ ❖

Əs-səlamu əleykum və rəhmətullahi və bərəkətuhu!

Zati-alinizi ölkənizin Zəfər Günü və Dövlət Bayrağı Günü münasibətilə təbrik etməkdən və səmimi arzularımı çatdırmaqdan çox məmnunam.

Sizə möhkəm cansağlığı və xoşbəxtlik, qardaş Azərbaycan Hökumətinə və xalqına daha çox tərəqqi və firavanlıq diləyirəm.

Zati-alinizə dərin hörmət və ehtiramımı bildirirəm.

***Məhəmməd bin Salman bin Əbdüləziz Al SƏUD,***
***Səudiyyə Ərəbistanı Krallığının vəliəhdi,***
***Baş nazir***

---

# "İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin "Zəfər. Tam və Qəti Qələbə" kitabı çapdan çıxıb

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "İnkişaf - məqsədimizdir" çoxcildliyinin xüsusi buraxılışı - "Zəfər. Tam və Qəti Qələbə" kitabı çapdan çıxıb.**




AZƏRTAC xəbər verir ki, kitabda Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin Vətən müharibəsinin ilk dəqiqələrindən Zəfər Gününədək möhtəşəm fəaliyyətindən bəhs edilir.

Kitab Azərbaycan Prezidentinin Ermənistan silahlı qüvvələrinin bir neçə istiqamətdən yaşayış məntəqələrimizi, hərbi mövqelərimizi ağır artilleriya silahlarından şiddətli atəşə tutduqdan dərhal sonra - sentyabrın 27-də saat 12:45-də Azərbaycan xalqına müraciəti ilə başlayır. Dövlətimizin başçısı həmin müraciətdə tarixi ədalətin, beynəlxalq hüququn bizim tərəfimizdə olduğunu vurğulayaraq deyib: "Tarixi ədalət bizim tərəfimizdədir. Çünki bu bizim doğma, dədə-baba torpağımızdır. Beynəlxalq hüquq bizim tərəfimizdədir. Bütün beynəlxalq təşkilatlar Azərbaycanın ərazi bütövlüyünü tanıyır. Bütün ölkələr Azərbaycanın ərazi bütövlüyünü tanıyır. Beynəlxalq təşkilatlar çərçivəsində qəbul edilmiş qərar və qətnamələr Dağlıq Qarabağın Azərbaycana məxsus olduğunu açıq-aydın təsbit edir". Müzəffər Ali Baş Komandanın "Biz haqq yolundayıq. Bizim işimiz haqq işidir. Biz zəfər çalacağıq. Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!" fikri isə ordumuzu, əsgər və zabitlərimizi səfərbər etdi, xalqımızı bütövlükdə qələbəyə köklədi.

"Zəfər. Tam və Qəti Qələbə" kitabına Azərbaycan Prezidentinin Vətən müharibəsinin davam etdiyi 44 gündə müxtəlif ölkələrin dövlət və hökumət başçıları ilə telefon danışıqlarının mətni, videomüraciətləri, aparıcı xarici media orqanlarına müsahibələri, hər bir yaşayış məntəqəsinin azad olunması haqda müjdələri - tvitləri yer alıb.

Noyabrın 9-da "BBC News"a müsahibə verən Prezident İlham Əliyev bildirib: "Biz bu günə qədər qarşımızda duran bütün vəzifələrə uğurla çatmışıq. Bəyan etdiyim bütün hədəflərə çatmışıq. Ərazi bütövlüyümüzün bərpası, torpaqlarımızın qaytarılması mənim Prezident kimi başlıca vəzifəm idi. Mən şadam ki, bu vəzifənin öhdəsindən də şərəflə gəlirəm və Azərbaycan xalqının dəstəyi, zəhməti və cəsarəti hesabına biz torpaqlarımızı qaytarırıq. Azərbaycan xalqının fədakarlığı bir daha onu göstərir ki, biz böyük xalqıq, biz birlik nümayiş etdiririk və bu birlik bizi daha da gücləndirəcək, ölkəmizi daha da qüdrətli ölkəyə çevirəcəkdir".

Yeni nəşrdə 44 gündə işğaldan azad edilmiş şəhər və kəndlərin, yaşayış məntəqələrinin siyahısı xronoloji ardıcıllıqla təqdim olunub, həmçinin erməni qəsbkarlardan götürülmüş qənimət silah-sursatların adları verilib.

Bu kitabda Ağdamın, Laçının və Kəlbəcərin bir güllə atılmadan, heç bir itki vermədən Azərbaycana qaytarılması zamanı Prezidentin xalqa müraciətləri də yer alıb.

Oxucu yeni nəşrdə, həmçinin 2023-cü il sentyabrın 19-20-də Azərbaycan Ordusunun bölgədə lokal xarakterli antiterror tədbirlərinə başlaması, 23 saat 43 dəqiqə ərzində separatçıların tərk-silah edilərək ölkədən tamamilə çıxarılması və Azərbaycanın suverenliyinin tam bərpa edilməsi ilə bağlı məlumatlarla da tanış ola bilər. Sentyabrın 20-də Azərbaycan Prezidentinin xalqa müraciəti, eyni zamanda Azərbaycanın daxili işlərinə qarışan qüvvələrə bir mesaj idi: "Dünyanın o başında oturub bizə qarşı əsassız ittihamlar irəli sürənlər əl çəksinlər bizdən, qoysunlar Cənubi Qafqaz rahat nəfəs alsın. Bu bölgə əsrlər boyu davalar, savaşlar, qanlı toqquşmalar məkanı olmuşdur. Yetər artıq! Biz bunu tələb edirik və bir daha demək istəyirəm, Ermənistan dövlətinin dünən və bu gün sərgilədiyi mövqe ümidlər verir. Ümidlər verir ki, o gün uzaqda deyil - Azərbaycan və Ermənistan öz aralarında olan məsələləri tənzimləyəcək, sülh müqaviləsi imzalayacaq və Cənubi Qafqaz ölkələri üçtərəfli formatda gələcək əməkdaşlıq haqqında işləməyə başlayacaqlar. Ancaq bununla bərabər, onu da bildirməliyəm ki, bizə xor baxanlar, torpağımıza göz dikənlər, uğurumuzu həzm edə bilməyənlər heç vaxt, heç vaxt unutmasınlar ki, "dəmir yumruq" yerindədir və hər zaman yerində olacaq! Heç kim bizimlə diktat və ultimatum dilində danışa bilməz! Bunu heç kim unutmasın! Onu da unutmasın ki, Qarabağ Azərbaycandır!"

Həmin müraciətdə qeyd olunduğu kimi, o gün uzaqda deyil. Bu il Azərbaycan Prezidenti İlham Əliyev ABŞ Prezidenti Donald Trampın dəvəti ilə Birləşmiş Ştatlara işgüzar səfər etdi. Bu kitabda Azərbaycan Prezidentinin həmin səfəri zamanı tarixə düşən çıxışı, görüş və danışıqları, eyni zamanda Azərbaycan, Amerika Birləşmiş Ştatları prezidentlərinin və Ermənistanın Baş nazirinin Birgə Bəyannaməsi öz əksini tapıb.

Nəşrin buraxılışına məsul "Azərnəşr"in baş redaktoru Əlövsət Ağalarovdur.

---

# Dohada BMT-nin İkinci Dünya Sosial Sammiti keçirilir

Qətərin paytaxtı Doha şəhərində BMT-nin İkinci Dünya Sosial Sammiti öz işinə başlayıb.

Nazirlər Kabinetindən AZƏRTAC-a verilən məlumata görə, sammitdə 8 mindən çox qonaq, o cümlədən dövlət və hökumət başçıları, nazirlər, alimlər, Birləşmiş Millətlər Təşkilatının təmsilçiləri, vətəndaş cəmiyyəti və özəl sektorun, gənclər təşkilatlarının nümayəndələri iştirak edirlər.

Azərbaycan Prezidentinin tapşırığı ilə sammitdə ölkəmizi Baş nazirin müavini Samir Şərifovun rəhbərlik etdiyi nümayəndə heyəti təmsil edir.

Nümayəndə heyətinə Azərbaycan əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini, Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri, Qətər Dövlətindəki səfir, Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının katibi, Nazirlər Kabineti və Xarici İşlər Nazirliyinin məsul vəzifəli şəxsləri daxildirlər. 2030 Dayanıqlı İnkişaf Gündəliyinin reallaşdırılmasına, xüsusilə də sosial inkişaf gündəliyinin təşviqinə həsr olunan sammitin ilk günündə "Doha Siyasi Bəyannaməsi" qəbul edilib.

Baş nazirin müavini S.Şərifov Dünya Sosial Sammitinin plenar iclasında çıxış edib. Çıxışda o, Azərbaycanda Kopenhagen Bəyannaməsi üzrə sosial sahədə nəzərdə tutulan öhdəliklərin icrası barədə məlumat verib, sosial inkişaf məsələləri üzrə beynəlxalq əməkdaşlığa yaxından qoşulduğunu, bir çox inkişafda olan ölkələrə təhsil, səhiyyə və humanitar sahədə yardım göstərdiyini bildirib. O həmçinin bu ölkələrlə sosial və dövlət xidmətlərinin xüsusi yaradılmış mərkəzlər vasitəsilə əhaliyə effektiv göstərilməsində Azərbaycanın uğurlu təcrübəsini bölüşdüyünü, bu istiqamətdə əməkdaşlığın genişləndirilməsinə və həmin ölkələrə yardım göstərilməsini davam etdirməyə hazır olduğunu bəyan edib.

Eyni zamanda 2024-cü ildə Bakıda keçirilmiş Qlobal İqlim Konfransı (COP29) çərçivəsində İqlim Davamlılığı üçün İnsan İnkişafına dair Bakı Rəhbər Prinsiplərinin qəbul edildiyini qeyd edərək 2026-cı ildə Bakıda həmin prinsiplərin gerçəkləşdirilməsi məqsədilə 13-cü Ümumdünya Şəhərsalma Forumunun və BMT-nin Asiya və Sakit okean üzrə İqtisadi və Sosial Komissiyasının növbəti illik sessiyasının keçirilməsinə Azərbaycanın evsahibliyi edəcəyini bildirib.

Sonda S.Şərifov Azərbaycanın yenicə qəbul edilmiş Doha Siyasi Bəyannaməsinin və cari ilin iyulunda qəbul edilmiş İnkişaf üçün Maliyyələşdirmə üzrə Sevilya Bəyannaməsindən irəli gələn öhdəliklərin beynəlxalq əməkdaşlıq çərçivəsində icra edilməsinə Azərbaycanın sadiqliyini, ona müvafiq dəstəyin göstərilməsini davam edəcəyini bir daha təsdiqləyib.

Azərbaycan nümayəndə heyəti sammit çərçivəsində keçirilmiş "Aclıq və Yoxsulluğa qarşı Qlobal Alyansı"ın birinci iclasında, "Sosial inkişafın üç sütununun gücləndirilməsi: yoxsulluğun aradan qaldırılması, tam və məhsuldar məşğulluq və hamı üçün layiqli əmək və sosial inteqrasiya" mövzusunda təşkil olunan "dəyirmi masa"da, eləcə də bir sıra ikitərəfli görüşlərdə iştirak edib.

İkinci Dünya Sosial Sammiti noyabrın 6-dək davam edəcək.

İlk Dünya Sosial Sammiti 30 il əvvəl Danimarkanın paytaxtı Kopenhagendə keçirilib və Sosial İnkişaf üzrə Kopenhagen Bəyannaməsinin qəbul edilməsi ilə yekunlaşıb.

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 15 may tarixli 77 nömrəli Qərarı ilə təsdiq edilmiş “Əmək pensiyaları haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən pensiya təyin edilməsi üçün dövlət qulluqçusunun müraciət etdiyi vaxt dövlət məvacibinin hesablandığı dövlət qulluğu vəzifəsi mövcud olmadıqda, habelə 1991-ci il oktyabrın 18-dək dövlət, sovet, partiya orqanlarında çalışmış dövlət qulluqçularının vəzifələrinin İnzibati və yardımçı vəzifələrin Təsnifat Toplusunda göstərilən dövlət qulluğu vəzifələrinə uyğunlaşdırılması Siyahısı”nın təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 1 sentyabr tarixli 290 nömrəli Fərmanının 1-ci bəndi ilə təsdiq edilmiş Siyahıya daxil olmayan vəzifələrin İnzibati və yardımçı vəzifələrin Təsnifat Toplusunda göstərilən dövlət qulluğu vəzifələrinə uyğunlaşdırılması Siyahısı”nda dəyişiklik edilməsi haqqında

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı**

**№ 328** **Bakı şəhəri, 3 noyabr 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən pensiya təyin edilməsi üçün dövlət qulluqçusunun müraciət etdiyi vaxt dövlət məvacibinin hesablandığı dövlət qulluğu vəzifəsi mövcud olmadıqda, habelə 1991-ci il oktyabrın 18-dək dövlət, sovet, partiya orqanlarında çalışmış dövlət qulluqçularının vəzifələrinin İnzibati və yardımçı vəzifələrin Təsnifat Toplusunda göstərilən dövlət qulluğu vəzifələrinə uyğunlaşdırılması Siyahısı"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 1 sentyabr tarixli 290 nömrəli Fərmanının 2-ci hissəsinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 15 may tarixli 77 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 5, maddə 547 (Cild I) ilə təsdiq edilmiş "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən pensiya təyin edilməsi üçün dövlət qulluqçusunun müraciət etdiyi vaxt dövlət məvacibinin hesablandığı dövlət qulluğu vəzifəsi mövcud olmadıqda, habelə 1991-ci il oktyabrın 18-dək dövlət, sovet, partiya orqanlarında çalışmış dövlət qulluqçularının vəzifələrinin İnzibati və yardımçı vəzifələrin Təsnifat Toplusunda göstərilən dövlət qulluğu vəzifələrinə uyğunlaşdırılması Siyahısı"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 1 sentyabr tarixli 290 nömrəli Fərmanının 1-ci bəndi ilə təsdiq edilmiş Siyahıya daxil olmayan vəzifələrin İnzibati və yardımçı vəzifələrin Təsnifat Toplusunda göstərilən dövlət qulluğu vəzifələrinə uyğunlaşdırılması Siyahısı"nın I bölməsinə aşağıdakı məzmunda 4-cü hissə əlavə edilsin:

| | |
|---|---|
| 4. Naxçıvan MSSR Nazirlər Sovetinin Aparatında: | 4. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin Aparatında: |
| Nazirlər Soveti sədrinin köməkçisi | yardımçı şöbə müdirinin müavini |

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycandakı dini konfessiyalar Zəfər Günü ilə bağlı bəyanat qəbul ediblər

**AZƏRTAC xəbər verir ki, bəyanat Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) təşəbbüsü ilə keçirilən və Zəfər Gününün 5-ci ildönümünə həsr olunmuş tədbirdə səsləndirilib.**

**Bəyanatı təqdim edirik:**

"Biz - Azərbaycandakı dini konfessiyaların rəhbərləri Azərbaycan xalqının yaddaşına, dövlətçilik tarixinə qızıl hərflərlə həkk olunan möhtəşəm gün - Vətən müharibəsində Zəfərin beşinci ildönümü ərəfəsində dünya ictimaiyyətinə müraciət etməkdən şərəf duyuruq. Dünya miqyasında haqqın, ədalətin təntənəsinə inamı təcəssüm etdirən Vətən müharibəsindəki tarixi Zəfərin doğurduğu qürur və əzəmət olduqca böyükdür. Əzəli Azərbaycan torpaqlarının işğaldan azad edilməsi yönündə "Qarabağ Azərbaycandır" ideyası ətrafında səfərbər olan Azərbaycan xalqı ən ülvi arzularını gerçəkləşdirdi. Azərbaycan dövləti müdrik siyasi idarəçilik, liderinin qətiyyəti, Ali Baş Komandanın yenilməz sərkərdəliyi, qəhrəman zabit və əsgərlərdən ibarət şanlı Ordusunun rəşadəti sayəsində bu uğura imza ata, beynəlxalq hüququn ona verdiyi haqqı öz qüvvəsi hesabına reallaşdıra bildi. Azərbaycanın Dövlət bayrağı azad Qarabağda dalğalanır, məscidlərin minarələrindən Azan səsləri ucalır, müqəddəs məbədlərimiz əsarətdən qurtulmuşdur. Haqq mübarizəsinin qalibiyyət dastanı kimi dünya tarixi səhifələrinə daxil olmuş möhtəşəm Zəfər Günü bayramının sevinc və şərəfini daşımağa Azərbaycan xalqının tam haqqı vardır.

Azərbaycan öz ərazilərinin 30 il davam etmiş işğalına son qoymaqla təkcə ərazi bütövlüyünü bərpa etmədi, xalq-dövlət birliyinin yüksək nümunəsini, daxili monolitlik, milli-mənəvi vəhdət örnəyi göstərdi. Vətən müharibəsində Qələbəmizin qüvvətverici amilləri - dövlət-xalq birliyi, dövlət rəhbərinin ətrafında sıx birləşmək, cəmiyyət daxilində milli vəhdət, dinlər və məzhəblər arasında qarşılıqlı anlaşma və Vətənin mənafeləri naminə birlik idi. Azərbaycan xalqı Zəfəri böyük qurbanlar bahasına əldə etmişdir. Qazandığımız Zəfərdə hər bir azərbaycanlının payı vardır. Allah-taala bu mübarizədə canından keçmiş minlərlə şəhidlərimizə rəhmət eləsin! Uca Allah sağlamlığını itirmiş qəhrəman qazilərimizə şəfa bəxş etsin! Vətən müharibəsində bütün xalqımız, bütün etnik qrupların, bütün dinlərin nümayəndələri sarsılmaz birlik nümayiş etdirib zəfərə yetişdilər. Azərbaycandakı bütün dini konfessiyaların nümayəndələri Azərbaycanın haqq işi uğrunda bizimlə çiyin-çiyinə cəbhədə vuruşdular, dünyaya bizimlə birgə haqq səsimizi ucaltdılar. Şəhid övladlarımızı birlikdə Vətən torpağına tapşırdıq. Bu, Azərbaycan reallığı, bizim yaşam tərzimiz, multikultural dəyərlərimizin təntənəsidir.

Qarabağ Zəfəri dünya tarixində epoxal əhəmiyyətli qələbələr silsiləsindəndir. Bu Zəfər beynəlxalq hüququn xalqın iradəsi ilə həyata keçirilməsinin təzahürü, güclü, müdrik liderin qalibiyyət manifesti oldu. Bu manifest bu gün də davam edir - Azərbaycanın səsi Vaşinqton Sülh Sammitindən, Yaxın Şərq Sülh Zirvəsindən gəlir. Azərbaycan Prezidenti qlobal siyasi-diplomatik müstəvidə yeni uğurlara imza atır, dünyanın sülh gündəliyində ön sıralardadır. Biz - Azərbaycanda fəaliyyət göstərən dini konfessiya rəhbərləri hər zaman fəxarət duyuruq ki, Azərbaycan Prezidentinin beynəlxalq müstəvidə insan həmrəyliyinə xidmət edən davamlı əməli səyləri, yüksəksəviyyəli dövlət-din münasibətləri sayəsində, Azərbaycanın Birinci vitse-prezidenti xanım Mehriban Əliyevanın dünya miqyasında multikultural dəyərlərin təşviqi sahəsində unikal fəaliyyəti ilə Azərbaycan dinlərarası, məzhəblərarası harmoniya mühitində birgəyaşayış təcrübəsi ilə dünyada model olaraq təqdir olunur. Biz - Azərbaycanda fəaliyyət göstərən dini konfessiyaların rəhbərləri bununla fəxr edir, Uca Yaradana xoş gedən sülh və ədalət prinsiplərinin bərqərar olması, müqəddəs dəyər olan insan həyatının xilası naminə bütün fəaliyyətlərə rəvac arzulayır, Azərbaycan Prezidentinin bu yolda bütün səy və əməllərinə xeyir-dualar diləyirik.

Məhz Prezident İlham Əliyevin rəhbərliyi ilə multikultural, bəşəri dəyərlərə sadiq Azərbaycan monoetnik, vandalizm təzahürlərinə haqq qazandıran Ermənistana qalib gəldi. İşğal olunmuş Azərbaycan torpaqlarında erməni vandalizminin acı nəticələrinin aradan qaldırılması istiqamətində dövlətin həyata keçirdiyi genişmiqyaslı quruculuq işləri, Allah evlərinin, məbəd və ibadət məkanlarının bərpası, məhv edilmiş mədəni-mənəvi irs abidələrimizin yenidən inşası bizi hədsiz sevindirir. Azərbaycanın Qarabağ və Şərqi Zəngəzur torpaqları öz yeni, nəfis görkəmi, möhtəşəm infrastruktur layihələri, abad şəhər və kəndləri, beynəlxalq hava limanları ilə hər birimizi qürurlandırır. Biz, Azərbaycan dindarları Uca Yaradanın lütfü, dövlət başçımızın rəhbərliyi ilə gələcəyimizə ümidlə baxır, Azərbaycan Prezidentinin ölkəmizdə və bölgədə davamlı sülh, əmin-amanlıq və tərəqqini təmin edən müdrik siyasi dəst-xətini hər zaman dəstəkləyir, Uca Yaradandan xeyir-dualar diləyirik.

Qoy bu Zəfər bayramı, böyük Qələbəmizin 5-ci ildönümü dövlətimizin və xalqımızın regionda və dünyada yeni nailiyyət və uğurlarına vəsilə olsun! Uca Yaradanımız Öz lütf və mərhəmətini hər zaman Azərbaycan xalqı və dövləti üzərində bərqərar etsin, Azərbaycanı və bütün Yer kürəsini hifz etsin! Amin!

*Bakı şəhəri, 4 noyabr 2025-ci il.*

*Azərbaycandakı Dini Konfessiyaların Məşvərət Şurası adından:*

*Sədr:*
***Şeyxülislam Allahşükür PAŞAZADƏ,***
*Qafqaz Müsəlmanları İdarəsinin sədri*
*Üzvlər:*
***Milix YEVDAYEV,***
*Azərbaycandakı Dağ yəhudiləri icmasının rəhbəri*
***ALEKSİY,***
*Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının Yepiskopu*
***Yepiskop Vladimir FEKETE,***
*Roma Katolik Kilsəsinin Azərbaycandakı apostol prefekti*
***Aleksandr ŞAROVSKİ,***
*Bakıdakı Avropa yəhudiləri icmasının rəhbəri*
***Robert MOBİLİ,***
*Azərbaycandakı Alban-udi xristian dini icmasının sədri".*

# Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Bülbül adına Orta İxtisas Musiqi Məktəbində olub

Noyabrın 4-də Bülbül adına Orta İxtisas Musiqi Məktəbində Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva ilə görüş keçirilib.

AZƏRTAC xəbər verir ki, görüş çərçivəsində Leyla Əliyeva məktəbin fəaliyyəti, tədris prosesi, musiqi otaqları və istedadlı şagirdlərin yaradıcı uğurları ilə tanış olub.

Sonra məktəbin şagirdlərinin iştirakı ilə bədii konsert proqramı təqdim edilib.

Konsert proqramında Azərbaycan və dünya bəstəkarlarının əsərləri səsləndirilib.

Sonda Leyla Əliyeva məktəb kollektivi ilə xatirə şəkli çəkdirib.









# "Ailə, qadın və uşaq məsələləri media müstəvisində: çağırışlar və perspektivlər" mövzusunda konfrans keçirilib

Noyabrın 4-də Azərbaycan milli mətbuatının 150 illik yubileyi münasibətilə "Ailə, qadın və uşaq məsələləri media müstəvisində: çağırışlar və perspektivlər" mövzusunda konfrans təşkil olunub.

AZƏRTAC xəbər verir ki, tədbir Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə keçirilib.

Panel sessiyaya BMT-nin CEDAW Komitəsinin üzvü Elgün Səfərov moderatorluq edib. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova çıxışı zamanı bildirib ki, mətbuat cəmiyyətin aynasıdır və onun əsas vəzifəsi reallıqları dürüst şəkildə əks etdirmək, eyni zamanda gələcək inkişaf istiqamətlərinə işıq salmaqdır: "Bu güzgü həm aydın, həm də dürüst olmalıdır. O, cəmiyyəti olduğu kimi göstərməklə yanaşı, onun gələcəyini hansı istiqamətdə görmək istədiyini də əks etdirməlidir".

Komitə sədri vurğulayıb ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan bu gün güclü və ədalətli bir dövlətə çevrilib və bu şəraitdə milli mətbuatın rolu daha da artıb. Milli Məclisin deputatı Hikmət Babaoğlu qeyd edib ki, ailə, qadın və uşaq məsələləri həm ictimai, həm də mənəvi baxımdan cəmiyyətin əsas dayaqlarıdır: "Azərbaycan cəmiyyətində ailə institutunun möhkəmləndirilməsi, qadınların sosial fəallığının artırılması və uşaqların sağlam mənəvi mühitdə böyüməsi dövlət siyasətinin prioritet istiqamətlərindəndir".

O bildirib ki, medianın bu sahədə rolu əvəzsizdir və yeni media layihələri, maarifləndirici və təbliğat xarakterli materiallar vasitəsilə cəmiyyətdə ailə dəyərlərinin təbliği gücləndirilməlidir.

Sonra çıxış edən Azərbaycan Mətbuat Şurasının sədri Rəşad Məcid tədbirin əhəmiyyətindən bəhs edərək mövzunun bugünkü aktuallığından söhbət açıb.

Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsinin dekanı Vüqar Əliyev diqqətə çatdırıb ki, ailə və uşaq mövzuları media üçün sosial məsuliyyət tələb edən sahələrdəndir. O vurğulayıb ki, jurnalistika fakültəsi olaraq gənc jurnalistlərin etik dəyərlər, obyektivlik və empatiya prinsipləri üzərində yetişdirilməsi əsas hədəflərdəndir.

Konfransda çıxış edən "Azərbaycan Televiziya və Radio Verilişləri" QSC-nin Teleradio Akademiyasının rektoru Almaz Mahmud qeyd edib ki, müasir dövrdə sosial media jurnalistikasında dəqiqlik və məsuliyyət məsələləri ön plana çıxır: "Xüsusilə ailə və uşaq kimi həssas mövzularda etik standartlara əməl olunması son dərəcə vacibdir. Jurnalist hadisəni sensasiyaya çevirməməli, empatik və insanyönümlü yanaşma nümayiş etdirməlidir".

Konfrans çərçivəsində Azərbaycan milli mətbuatının 150 illik yubileyi münasibətilə jurnalistlər arasında keçirilən müsabiqənin qalibləri mükafatlandırılıblar. Mükafatlandırma mərasimində Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsinin dekan müavini, müsabiqə münsiflər heyətinin üzvü Sevinc Əliyeva çıxış edərək media təmsilçilərini təbrik edib və onların cəmiyyətin inkişafında rolunu yüksək qiymətləndirib.

Qeyd edək ki, qaliblər sırasında AZƏRTAC-ın da əməkdaşları var.

Tədbir çərçivəsində, həmçinin "1911-1912-ci illərdə nəşr olunan "İşıq" qəzetinin transliterasiya edilmiş toplusu"nun təqdimat mərasimi keçirilib. Təqdimatı "İşıq" jurnalının baş redaktor müavini, MİMTA Yayımlarının direktoru Əsəd Aslanoğlu, MİMTA Fondunun icraçı direktoru Pərviz Əmirov təqdim ediblər. "İşıq" qəzetinin təqdimatı çərçivəsində Azərbaycanda ilk qadın mətbuatının tarixi və müasir dövrdəki davamlılığı barədə məlumat verilib.

Tədbir Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradovanın yekun nitqi ilə başa çatıb.

Panel iştirakçıları bir daha qeyd ediblər ki, ailə, qadın və uşaq məsələlərinin mediada düzgün, etik və məsuliyyətli şəkildə işıqlandırılması cəmiyyətin mənəvi dəyərlərinin qorunması baxımından mühüm əhəmiyyət daşıyır.

# Milli Məclisdə büdcə müzakirələri başladı

**Noyabrın 4-də Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclası keçirilib. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, komitənin sədri Azər Əmiraslanov iclasın gündəliyinə ölkə Prezidenti tərəfindən Milli Məclisə təqdim olunmuş "Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsi haqqında" qanun layihəsinin (birinci oxunuş) daxil edildiyini bildirib.**



Azər Əmiraslanov 2026-cı ilin büdcə zərfinin qanunvericiliklə müəyyən edilmiş müddətdə və formada Milli Məclisə daxil olduğunu, Hesablama Palatası tərəfindən həmin sənədlərə dair rəylərin hazırlandığını qeyd edib. O bildirib ki, növbəti ilin büdcə zərfi Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən elan edilmiş "Konstitusiya və Suverenlik İli"ndə hazırlanıb. Dövlət suverenliyinin tam bərpasında, onun iqtisadi əsaslarının möhkəmlənməsində ölkə iqtisadiyyatının, dövlət büdcəsinin müstəsna rolu var. Komitə sədri Prezident İlham Əliyevin söylədiyi - "Büdcə xərclərinin strukturuna yenidən baxılmalıdır və büdcə vəsaiti qənaətlə xərclənməlidir", "İqtisadi artım olmadan, sadəcə büdcə xərcləri hesabına sosial məsələləri həll etmək çətindir", "Bizim bütün cari xərclərimiz qeyri-neft gəlirləri hesabına maliyyələşdirilməlidir" kimi istiqamətverici fikirlərinin ölkəmizdə həyata keçirilən büdcə siyasətinin, o cümlədən 2026-cı ilin büdcə zərfinin konseptual əsaslarını təşkil etdiyini deyib.

Komitə sədri diqqətə çatdırıb ki, 2026-cı il üçün dövlət büdcəsinin gəlirləri 2025-ci ilin proqnozu ilə müqayisədə 253 milyon manat çox olmaqla 38,6 milyard manat, xərcləri 296 milyon manat çox olmaqla 41,7 milyard manat proqnozlaşdırılır. Dövlət büdcəsi kəsirinin yuxarı həddi 3,1 milyard manat olmaqla ÜDM-in 2,3 faizini təşkil edəcək.

Növbəti ildə iqtisadi artım 2,9 faiz, orta illik inflyasiya səviyyəsi 4,8 faiz proqnozlaşdırılır, xam neftin büdcə qiyməti 1 barel üçün 65 ABŞ dolları qəbul edilib, manatın məzənnəsinin sabit qalacağı gözlənilir. Növbəti ildə neft-qaz sektoru üzrə ÜDM-in real ifadədə 2,4 faiz azalacağı, qeyri neft-qaz ÜDM-in 5 faiz artacağı proqnozaşdırılır.

2026-ci il üzrə proqnozlaşdırılan dövlət büdcəsinin gəlirlərinin 43 faizi və ya 16,4 milyard manatı neft-qaz sektorunun, 57 faizi və ya 22,2 milyard manatı qeyri-neft-qaz sektorunun payına düşür.

Azər Əmiraslanov büdcə zərfinin siyasi, konseptual, institusional, iqtisadi, sosial və təhlükəsizlik sənədi olduğunu qeyd edib. O bildirib ki, 2026-cı ilin büdcə zərfi siyasi sənəd kimi, dövlət başçısının irəli sürdüyü təşəbbüsləri, təsdiq etdiyi dövlət proqramlarını, ölkəmiz qarşısında dayanan strateji vəzifələri və prioritetləri əks etdirir və onların icrası üçün maliyyə təminatını həll edir. Konseptual baxımdan dövlət siyasətinin bütün istiqamətlərini müəyyənləşdirir. İnstitusional sənəd olaraq dövlətin funksiyalarının icrası, dövlət təsisatlarının fəaliyyəti üçün maliyyə təminatı yaradır. İqtisadi sənəd kimi növbəti ilin büdcə zərfi iqtisadi inkişaf prioritetlərini özündə əks etdirir və vergi, gömrük, sənaye, investisiya, sahibkarlıq, kənd təsərrüfatı, infrastruktur sahələrində tədbirləri nəzərdə tutur və stimullaşdırır. Sosial sənəd baxımından büdcə zərfində xərclərin 41 faizinin sosialyönümlü olması, sosial hədəflərin maliyyə təminatının nəzərə alınması ehtiva olunur. Növbəti ilin büdcə zərfi həm də milli təhlükəsizlik və müdafiə məsələlərinin həlli baxımından mühüm əhəmiyyət kəsb edir.

Komitə sədri dövlət büdcəsinin dayanıqlığına nail olmaq üçün maliyyə təhlükəsizliyinin təmin edilməsinin və büdcə öhdəliklərinin yerinə yetirilməsinin vacibliyindən danışıb. O, 2026-cı ildə cari xərclərin 88,1 faizinin qeyri-neft-qaz gəlirləri hesabına qarşılanacağını önəmli hesab edib. Bildirilib ki, büdcənin xərc hissəsi və onun strukturu konsolidasiya və optimallaşdırma, gəlir hissəsi isə büdcə dayanıqlığı ilə bağlı təşəbbüsləri göstərir. Büdcənin dəyərləndirilməsi üçün proqnozlaşdırılan makrogöstəricilər çərçivəsində iqtisadi sabitliyin təmin edilməsinin mühüm rol oynadığını deyib. Komitə sədri fiskal və monetar siyasətin uzlaşdırılması ilə bağlı vəzifələrin yerinə yetirildiyini, o cümlədən monetar siyasətin çevikliyinin artdığını, iqtisadi artımın dəstəklənməsi ilə maliyyə sabitliyinin qorunması arasında balansı təmin edən pul siyasətinin həyata keçirildiyini qeyd edib. Dövlət büdcəsinin gəlirlərinin formalaşdırılması və onun ahəngdar icrası üçün büdcə zərfində çoxsaylı fiskal və qeyri-fiskal tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur.

Sonra maliyyə naziri Sahil Babayev "Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsi haqqında" qanun layihəsini və büdcə zərfinə daxil olan sənədləri təqdim edib. Nazir bildirib ki, dövlət başçısının siyasətində Azərbaycan dövlətinin sosial-iqtisadi inkişafı, onun müdafiə qabiliyyəti və təhlükəsizliyinin qorunması, ölkədə sabitliyin təmin olunması əsas istiqamətləri təşkil edir. 2026-cı ilin dövlət və icmal büdcələrinin hazırlanması zamanı makroiqtisadi, fiskal və monetar sabitliyin, ölkənin müdafiə qabiliyyətinin və təhlükəsizliyin təminatı, əhalinin sosial rifahının yüksəldilməsi ilə bağlı istiqamətlərin maliyyələşdirilməsi üçün müvafiq tədbirlər nəzərə alınıb. Bununla yanaşı, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının inkişafı, işğaldan azad olunmuş ərazilərin bərpası, Böyük qayıdış proqramı ilə bağlı tədbirlərin həyata keçirilməsi ilə bağlı məsələlər ehtiva olunur. İqtisadiyyatın inkişafı, o cümlədən davamlı kapital qoyuluşunun təmin edilməsi, infrastrukturun daha da yaxşılaşdırılması, özəl sektorun dəstəklənməsi, vergi yükünün optimallaşdırılması, neft gəlirlərindən asılılığın azaldılması və valyuta ehtiyatlarının qorunması istiqamətləri öz əksini tapıb.

İclasda maliyyə naziri növbəti ilin əsas makroiqtisadi göstəriciləri barədə də məlumat verib. O bildirib ki, ÜDM 2026-cı ildə real ifadədə 2,9 faiz artaraq 134,1 milyard manat, o cümlədən qeyri-neft-qaz ÜDM-in 5 faiz artaraq 101,7 milyard manat təşkil edəcək. Cari tarixdə dövlət borcu 25,4 milyard manat və ya illik ÜDM-in 19,5 faizini təşkil edir. Hazırda ölkənin strateji valyuta ehtiyatları 81,5 milyard ABŞ dolları həcmindədir. 2026-cı ildə Neft Fondunun gəlir və xərcləri 7,7 milyard ABŞ dolları səviyyəsində balanslaşdırılıb. Neft Fondundan büdcəyə transfert 2025-ci illə müqayisədə 1 milyard ABŞ dolları həcmində azaldılıb.

2026-cı ilin büdcə xərcləri ilə əlaqədar nəzərə çatdırılıb ki, icmal büdcə xərcləri 48,8 milyard manat məbləğində qiymətləndirilir və bunun ÜDM-də payı 36,4 faiz, qeyri-neftin ÜDM-də payı 48 faiz təşkil edir. Dövlət büdcəsinin xərcləri isə 41,7 milyard manat proqnozlaşdırılır. Büdcənin cari xərcləri 25,2 milyard manat və ya 60,3 faiz müəyyən edilib və cari xərclərin qeyri-neft-qaz daxilolmaları hesabına 88,1 faiz qarşılanacağı gözlənilir. Əsaslı xərclər növbəti ildə 14,1 milyard manat və ya 34 faiz olaraq proqnozlaşdırılır. Dövlət borclarına xidmətlə bağlı xərclər 2,5 milyard manat və ya 5,9 faiz qiymətləndirilir. Sosialyönlü xərclər 17,1 milyard manat və ya 41,1 faiz proqnozlaşdırılır. Təhsil sahəsində xərclər 5 milyard manat və ya 12 faiz təşkil edəcək. Sosial müdafiə və sosial təminat xərcləri 4,9 milyard manat və ya 11,7 faiz, sosial müavinət üzrə xərclər 3,2 milyard manat və ya 65,3 faiz müəyyən edilib. Səhiyyə xərcləri dövlət büdcəsində 2 milyard manat, icmal səhiyyə xərcləri isə 3,7 milyard manat proqnozlaşdırılıb. Ölkənin müdafiə və milli təhlükəsizliyi ilə bağlı xərcləri 8,7 milyard manat və ya 21 faiz təşkil edəcək. İqtisadi fəaliyyət xərclərinə 7,9 milyard manat və ya 18.8 faiz yönəldiləcək. Kənd təsərrüfatı xərclərinə 1,2 milyard manat və ya büdcənin 3 faizi ayrılıb.

Bildirilib ki, 2026-cı ildə icmal büdcənin gəlirləri 45 milyard manat, dövlət büdcəsinin gəlirləri isə 38,6 milyard manat təşkil edəcək. O cümlədən qeyri-neft sektoru üzrə gəlirlər 22,2 milyard manat və ya 57,4 faiz, icmal büdcədə qeyri-neft gəlirlərinin payı 63 faiz proqnozlaşdırılır. Neft-qaz sektoru üzrə gəlirlər 16,4 milyard manat və ya 42,6 faiz müəyyən edilib. Dövlət Vergi Xidmətindən daxilolmalar 16,9 milyard manat və ya büdcə gəlirlərinin 43,8 faizinə bərabər olacaq. Dövlət Gömrük Komitəsi vasitəsilə daxilolmalar 6,9 milyard manat və ya 17,8 faiz olaraq qiymətləndirilir. Büdcə təşkilatlarının ödənişli xidmətləri üzrə gəlirlər 1 milyard 21 milyon manat və ya 2,6 faiz gözlənilir. Sair gəlirlər 531 milyon manat, Dövlət Neft Şirkətinin dividendlərindən isə 450 milyon manat gəlir proqnozlşadırılır. Qeyd olunub ki, dövlət büdcəsi kəsirinin yuxarı həddi 3,1 milyard manata bərabər olacaq.

Sahil Babayev bildirib ki, 2026-cı ilin icmal büdcəsində qeyri-neft sektoru üzrə gəlirlər 63 faiz təşkil edəcək. İcmal büdcənin kəsiri 3,9 milyard manat olaraq qiymətləndirilir. Kəsirin ümumi daxili məhsula nisbəti 2,9 faiz səviyyəsində olacaq. Dövlət Neft Fondunun gəlir və xərcləri 13 milyard manat məbləğində proqnozlaşdırılır. Naxçıvan Muxtar Respublikasının gəlir və xərcləri 483 milyon manat məbləğində müəyyən olunub.

İclasda çıxış edən iqtisadiyyat naziri Mikayıl Cabbarov vurğulayıb ki, Azərbaycan Prezidentinin apardığı uzaqgörən siyasət nəticəsində bu illər ərzində dövlətimizin beynəlxalq nüfuzu, iqtisadi qüdrəti və hərbi potensialı əsaslı şəkildə güclənib. Dünya iqtisadiyyatında qeyri-müəyyənliyin davam etdiyi və risklərin artdığı bir şəraitdə ölkəmizdə makroiqtisadi sabitlik hökm sürür, xarici ticarət balansında davamlı müsbət saldo müşahidə olunur, strateji valyuta ehtiyatları artmaqda davam edir və qeyri-neft-qaz sektoru üzrə fiskal daxilolmalar hesabına dövlət büdcəsinin maliyyə dayanıqlığı daha da güclənir. Bu proseslər avqustun 8-də ABŞ-də sülh gündəliyinə imza atıldığı tarixi mərhələdən sonra daha da sürətlənib.

Nazir bildirib ki, 2026-cı il üçün dövlət büdcəsi layihəsinin hazırlanmasında ölkə iqtisadiyyatının cari vəziyyəti qiymətləndirilməklə daxili və xarici amillər nəzərə alınıb və müxtəlif makroiqtisadi ssenarilər nəzərdən keçirilib. Azərbaycan iqtisadiyyatı, həm son illərdə, həm də cari ildə dayanıqlı inkişaf nümayiş etdirib. 2025-ci ilin gözlənilən artım tempi nəzərə alınmaqla 2022-2025-ci illərdə orta illik hesabla ÜDM-in 3,3 faiz artması gözlənilir. Bu artım tamamilə qeyri-neft-qaz sektorunun inkişafı hesabına təmin olunmaqla, bu sahədə ÜDM-in orta illik artımının 6,1 faiz olacağı gözlənilir. Son illərdə ölkənin ixrac imkanları da genişlənməkdədir. 2025-ci ilin gözlənilən göstəricisi nəzərə alınmaqla, 2019-2025-ci illərdə qeyri-neft-qaz ixracının 2,3 dəfə artması proqnozlaşdırılır.

Nəzərə çatdırılıb ki, hazırda ölkədə ümumilikdə makroiqtisadi sabitlik təmin edilib və dövlət büdcəsinin fiskal daxilolmaları proqnozdan artıq icra olunub, iqtisadiyyatın şaxələnməsinə yönəlmiş fəaliyyət davam edir, o cümlədən, Orta dəhlizin tam işə düşməsi orta və uzunmüddətli dövrdə iqtisadi artımın sürətlənməsində permanent amillərdən biri olacaq.

Mikayıl Cabbarov cari ildə iqtisadi və fiskal nəticələrin əldə olunmasında İqtisadiyyat Nazirliyinin xidmətlərindən danışıb. Bildirilib ki, sənaye zonaları üzrə ümumi investisiya həcmi 8 milyard manatdan çox olan 171 sahibkarlıq subyektinə rezident statusu verilib. Cari ilin 9 ayında sənaye zonalarının ölkə üzrə qeyri-neft-qaz sənayesi istehsalında xüsusi çəkisi 19,2 faiz, ixracında isə payı 29,4 faiz təşkil edib.

Vurğulanıb ki, işğaldan azad edilmiş ərazilərə Böyük qayıdışa dair I Dövlət Proqramının icrası sahəsində genişmiqyaslı bərpa-quruculuq tədbirlərinin həyata keçirilməsi istiqamətində müxtəlif sahələri əhatə edən bir sıra layihələrin icrası məqsədilə 2021-2025-ci illər ərzində dövlət büdcəsindən 22 milyard manatdan çox vəsait ayrılıb. Eyni zamanda işğaldan azad edilmiş ərazilərdə əlverişli biznes və investisiya mühitinin formalaşdırılması istiqamətində məqsədəmüvafiq tədbirlər görülüb.

Daha sonra Mikayıl Cabbarov 2022-2026-cı illərə dair sosial-iqtisadi inkişaf strategiyasının tam icrası, işğaldan azad olunmuş torpaqlarımızın bərpası və oradakı iqtisadi potensialın hərəkətə gətirilməsi, iqtisadi artımın davamlılığının təmin olunması, makrofiskal dayanıqlığın gücləndirilməsi və ölkə əhalisinin sosial rifahının yüksəldilməsi kimi mürəkkəb vəzifələrin balanslı şəkildə həllində büdcə siyasətinin mühüm rolundan söhbət açıb. O bildirib ki, büdcə paketində təqdim olunan proqnozlar 3 ssenaridə - baza, optimist və pessimist ssenarilərdə hazırlanaraq büdcə tərtibi prosesində risklərin qiymətləndirilməsi üçün istifadə edilib. ÜDM-in növbəti ildə 2,9 faiz, 2026-2029-cu illərdə orta illik hesabla 3,5 faiz, qeyri-neft-qaz ÜDM-in növbəti və ortamüddətli dövrdə isə orta illik hesabla 5 faiz ətrafında artacağı proqnozlaşdırılır. Ortamüddətli dövrdə qeyri-neft-qaz sənayesi, turizm, İKT və nəqliyyat sektorlarında olan artım templərinin mühüm rola malik olacağı proqnozlaşdırılır.

Nazir bildirib ki, dövlət başçısının müvafiq sərəncamına əsasən "Azərbaycan Respublikasının 2027-2030-cu illərdə sosial-iqtisadi inkişaf Strategiyası" və "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük qayıdışa dair II Dövlət Proqramı"nın hazırlanması istiqamətində intensiv işlər görülməkdədir. Yeni strategiyada makoiqtisadi və fiskal dayanıqlıq ilə iqtisadi artım və şaxələnmə məqsədlərinin ən effektiv şəkildə balanslaşdırılması, özəl və xarici investisiyaların iqtisadi artıma, ixraca və məşğulluğa töhfəsinin daha da çoxalması, bunun üçün biznes mühitin daha da yaxşılaşdırılması, biznesə və prioritet sahələrə dövlət dəstəyi mexanizmlərinin səmərəsinin artırılması, maliyyə resurslarına çıxış imkanlarının genişləndirilməsi kimi fəaliyyət istiqamətlərinin xüsusi yer alması nəzərdə tutulur.

Sonra Mərkəzi Bankın sədri Taleh Kazımov 2026-cı il üzrə dövlət büdcəsinin layihəsinə münasibət bildirib. Taleh Kazımov deyib ki, qlobal iqtisadiyyatda və maliyyə bazarlarında yeni reallıqların formalaşdığı şəraitdə 2025-ci ilin 9 ayında ölkə iqtisadiyyatında artım davam etmiş, bu dövr ərzində iqtisadi artımın əsas mənbəyi qeyri-neft-qaz sektoru olmuşdur.

O, Mərkəzi Bankın iqtisadi artımla bağlı nikbin proqnozlarını diqqətə çatdırıb. Mərkəzi Bankın proqnozlarına əsasən, ÜDM-in artımı 2025-ci ilin sonuna 2,2 faiz, 2026-cı ildə isə 2 faiz olacaq. Qeyri-neft-qaz ÜDM-də isə artım 2025-ci ilə 3,7 faiz, 2026-cı ilə 4,4 faiz proqnozlaşdırlır. Bildirilib ki, Mərkəzi Bank cari əməliyyatlar balansının profisiti 2025-ci il üzrə 3,7 milyard ABŞ dolları civarında proqnozlaşdırır.

Taleh Kazımov bildirib ki, 2025-ci ildə pul siyasəti monetar şərait vasitəsilə inflyasiyanın hədəf daxilində saxlanılmasına yönəldilib. O, inflyasiyaya təsir edən amilləri diqqətə çatdıraraq deyib ki, tədiyə balansının cari əməliyyatlar hesabının profisitli olaraq qalması valyuta bazarında tarazlığı dəstəkləyən başlıca amil olmuşdur. 2025-ci il ərzində pul siyasəti alətləri pul bazarları və bank sisteminin likvidlik mövqeyi nəzərə alınmaqla tətbiq edilmişdir.

2025-ci ilin ötən dövründə mürəkkəb geosiyasi proseslərin yaratdığı qeyri-müəyyənliklər fonunda bank sektoru sabit fəaliyyətini davam etdirib. Bank sektorunda məcmu kapital adekvatlılıq səviyyəsi 18,1 faiz səviyyəsində formalaşıb. Likvidliyin örtülmə əmsalı 157 faiz olmaqla normativləri əhəmiyyətli üstələmiş, sektorun kapitala gəlirliliyi 19,3 faiz səviyyəsində qərarlaşıb. Bu dövr ərzində əhalinin əmanətləri 7,5 faiz, o cümlədən müddətli əmanətləri 13 faiz artıb.

Taleh Kazımov gələn ilin büdcə layihəsi ilə bağlı bildirib ki, 2026-cı il və ortamüddətli dövrə təqdim edilən makrofiskal çərçivə optimal və effektivdir. O, ortamüddətli dövr ərzində dövlət büdcəsinin fiskal qayda çərçivəsində hazırlanmasını və xərclərin dayanıqlı prinsiplərə uyğunluğunu da müsbət qarşılayıb. Bildirilib ki, büdcə xərclərinin effektivliyinin artırılması fiskal multiplikatorun yaxşılaşmasına xidmət edəcək.

Mərkəzi Bankın sədri bildirib ki, proqnozlara görə növbəti ildə tədiyə balansının cari əməliyyatlar hesabının profisitli olması valyuta bazarında tarazlığı dəstəkləyəcək. Pul siyasəti alətlərindən istifadə zamanı maliyyə bazarlarında baş verən proseslər və bank sisteminin likvidlik mövqeyindəki dəyişikliklər nəzərə alınacaq. Maliyyə sektoru üzrə prioritetlər "2024-2026-cı illərdə maliyyə sektorunun inkişaf Strategiyası"na uyğun həyata keçiriləcək. Strategiyanın icrası çərçivəsində ölkəmizdə maliyyə sisteminin mühüm sektorları olan sığorta, kapital bazarları, ödəniş sistemləri və rəqəmsal maliyyə kanallarının inkişaf etdirilməsi, habelə bank sektorunun dayanıqlığının daha da gücləndirilməsi istiqamətində işlər davam etdiriləcək.

Hesablama Palatasının sədri Vüqar Gülməmmədov Azərbaycan Respublikasının 2026-cı il üçün dövlət büdcəsi layihəsinə dair Palatanın rəyini səsləndirib. O, büdcə layihəsinin, Büdcə zərfinə daxil olan sənəd və məlumatların "Büdcə sistemi haqqında" qanuna uyğun olduğunu deyib.

Palatanın gələn ilin dövlət büdcəsinin gəlir və xərcləri ilə bağlı mövqeyinin əsas məqamlarını diqqətə çatdıran Vüqar Gülməmmədov qeyd edib ki, qanun layihəsinə əsasən növbəti ildə gəlirlərin cari ilin eyni göstəricisindən 253 milyon manat çox olması planlaşdırılır. O bu artımın Dövlət Neft Fondundan transferin əhəmiyyətli azaldılması fonunda vergi daxilolmaları hesabına təmin olunacağını qeyd edərək, bildirib ki, aparılan təhlillər növbəti ildə vergi xətti ilə daxilolmaların bəzi mənbələri üzrə proqnozlaşdırılan gəlirlərin reallaşdırılmasında ciddi risklər yaranmayacağını göstərir.

2026-cı ildə dövlət büdcəsi xərclərinin təhlili nəticəsində isə Palata ən əhəmiyyətli azalmaların (subsidiyaların və qrantların) uçot siyasətində edilən dəyişikliklərlə bağlı olduğu qənaətinə gəlib.

Vüqar Gülməmmədov layihədə müəyyən təkmilləşddirmələrin aparılması, uyğunsuzluqların aradan qaldırılması, eyni zamanda xərclərin səmərəli planlaşdırılması, fiskal risklərin minimallaşdırılması ilə bağlı Hesablama Palatasının bəzi tövsiyələrini də diqqətə çatdırıb.

Məsələ ətrafında müzakirələrdə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədr müavini Azər Badamov, üzvləri Ziyad Səmədzadə, Əli Məsimli, Tahir Mirkişili, Aydın Hüseynov, Vüqar Bayramov, deputatlar - Ədalət, Hüquq, Demokratiya Partiyasının sədri Qüdrət Həsənquliyev, Böyük Quruluş Partiyasının sədri Fazil Mustafa çıxış ediblər, növbəti ilin dövlət büdcəsi layihəsi ilə bağlı fikirlərini, rəy və təkliflərini bildiriblər, bəzi suallarını səsləndiriblər.

Maliyyə naziri Sahil Babayev, iqtisadiyyat naziri Mikayıl Cabbarov, Mərkəzi Bankın İdarə Heyətinin sədri Taleh Kazımov, Dövlət Gömrük Komitəsinin sədri Şahin Bağırov və Dövlət Statistika Komitəsinin sədr müavini Yusif Yusifov çıxışlarda qaldırılan məsələlərə aydınlıq gətiriblər.

Müzakirələrin sonunda "Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsi haqqında" qanun layihəsi birinci oxunuşda Milli Məclisin plenar iclasına tövsiyə edilib.

İclasda komitə üzvləri Müşfiq Cəfərov, Heydər Əsədov, Rövşən Muradov, Əlibala Məhərrəmzadə, Məşhur Məmmədov, Zaur Şükürov, deputatlar - Böyük Azərbaycan Partiyasının sədri Elşad Musayev, Azərbaycan Milli İstiqlal Partiyasının sədri Arzuxan Əli-zadə, Vətəndaş Həmrəyliyi Partiyasının təmsilçisi Tənzilə Rüstəmxanlı, Azərbaycan Demokratik İslahatlar Partiyasının sədri Asim Mollazadə, Maliyyə nazirinin müavini Himalay Məmişov, Dövlət Vergi Xidmətinin rəisi Orxan Nəzərli, Dövlət Neft Fondunun icraçı direktoru İsrafil Məmmədov və digər rəsmi şəxslər iştirak ediblər.

***"Azərbaycan"***

# Ədliyyə Nazirliyi və KOBİA biznes assosiasiyalarla görüş keçirib

**Ədliyyə Nazirliyi və Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) birgə təşkilatçılığı ilə müxtəlif sektorlarda fəaliyyət göstərən sahibkarların ictimai birliklərinin üzvləri ilə görüş olub.**



Nazirliyin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, "Ədliyyə sahəsində həyata keçirilən institusional və qanunvericilik yeniliklərinin sahibkarlığın inkişafına təsiri, eləcə də hüququn aliliyinin qorunması və ölkənin davamlı inkişafındakı rolu" mövzusuna həsr olunmuş tədbirdə 20-yə yaxın biznes assosiasiyanın təmsilçiləri və sahibkarlar iştirak ediblər.

Görüşün məqsədi dövlət və özəl sektor arasında əməkdaşlığın gücləndirilməsi, biznes subyektlərinin fəaliyyətinə dəstəyin artırılması və ölkəmizdə sahibkarlıq mühitinin daha da yaxşılaşdırılmasına töhfə vermək olub.

Tədbirdə çıxış edən ədliyyə naziri Fərid Əhmədov ədliyyə sahəsində fəaliyyətin təkmilləşdirilməsi və şəffaflığın təmin edilməsi və səmərəliliyin artırılması məqsədilə son illər ərzində nazirliyin fəaliyyət istiqamətləri üzrə qanunvericilik və institusional tədbirlərin həyata keçirilməsi barədə danışıb. Nazir dövlət-özəl tərəfdaşlığının müxtəlif sahələrin inkişafında mühüm rol oynadığını, xüsusən də özəl sektor tərəfindən irəli sürülən təklif və təşəbbüslərin nazirliyin fəaliyyət istiqamətləri üzrə aparılan islahatlara mühüm töhfə verəcəyini qeyd edib. Vurğulanıb ki, həyata keçirilən hüquqi və institusional tədbirlərdə sahibkarların yaxından iştirakı qarşıya qoyulan hədəflərə nail olmaq baxımından mühüm əhəmiyyət daşıyır.

KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov qeyd edib ki, sahibkarlıq fəaliyyəti dinamik inkişaf etdiyi üçün yeni çağırışlar və tələblər qanunvericilikdə adekvat şəkildə əks olunmalıdır. Bildirilib ki, KOBİA bu sahədə aparılan institusional islahatları yaxından izləyir və KOB-ların hüquqi mühitlə bağlı ehtiyac və çağırışlarını müvafiq dövlət qurumlarına çatdırır. Eyni zamanda bu istiqamətdə sahibkarların hüquqi maarifləndirilməsi məqsədilə tematik görüşlər və təlimlər təşkil olunur, ədliyyə orqanları ilə birgə institusional dialoqun gücləndirilməsi sahəsində əməkdaşlıq edilir, qanunvericiliyin təkmilləşdirilməsi ilə bağlı təkliflər aidiyyəti üzrə təqdim olunur. Biznes mühitinin inkişafında, sahibkarlıqla bağlı qanunvericiliyin təkmilləşdirilməsi prosesində sahə üzrə maraqlı tərəflərin, o cümlədən sahibkarların və biznes assosiasiyaların iştirakı əhəmiyyətlidir. Sahibkarların təklifləri praktiki ehtiyaclara söykəndiyi üçün onların fikir və təkliflərinin nəzərə alınması iqtisadi fəaliyyətin tənzimlənməsində çevik və effektiv yanaşmaların tətbiqinə imkan yaradır.

Görüş çərçivəsində sahibkarların fikir və təklifləri dinlənilib, əməkdaşlığın genişləndirilməsi istiqamətində müzakirələr aparılıb. Sahibkarların səsləndirdiyi fikir və təkliflərin Ədliyyə Nazirliyi və KOBİA tərəfindən birgə işçi qaydada icrasının təmin olunması, bununla bağlı qurumlararası məsul şəxslərin müəyyən edilməsi qərara alınıb.

# Baş prokuror Abşeron rayonunda vətəndaşları qəbul edib

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırıqlarına uyğun olaraq prokurorluq orqanları tərəfindən vətəndaşların qəbulu daim diqqətdə saxlanılmaqla onların ərizə və şikayətlərinin yerində dinlənilərək həll olunması üçün müvafiq tədbirlər görülür.



Noyabrın 4-də baş prokuror Kamran Əliyev Abşeron rayon prokurorluğunun inzibati binasında Abşeron, Zəngilan rayonu və digər bölgələrdən olan vətəndaşları qəbul edib. Qəbuldan əvvəl baş prokuror xalqımızın Ümummilli Lideri Heydər Əliyevin rayonun mərkəzində ucaldılmış abidəsini ziyarət edərək əziz xatirəsini ehtiramla yad edib. Qəbulda iştirak edən 37 nəfər vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı, törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları və məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsinə dair məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib. Qəbuldan sonra prokurorluq əməkdaşları ilə görüş keçirən Kamran Əliyev onlara konkret tapşırıqlar verib, vətəndaşların müraciətlərinə obyektiv baxılması və qəbulu işinin düzgün təşkilinə görə tabe prokurorların fərdi məsuliyyət daşıdığını diqqətə çatdırıb.

# Qırğızıstan həmkarlar ittifaqlarının nümayəndələri Azərbaycan təcrübəsini öyrənmək üçün AHİK-də olublar









**Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasında (AHİK) ölkəmizin əmək hüquqları sahəsində təcrübəsini öyrənmək məqsədilə Bakıda səfərdə olan Qırğızıstan Həmkarlar İttifaqları Federasiyasının nümayəndələri ilə görüş keçirilib.**

Görüşdə dinamik inkişaf edən Azərbaycan-Qırğızıstan əlaqələrindən danışılıb, yüksəksəviyyəli səfərlərin və imzalanan sənədlərin əhəmiyyəti qeyd edilib. Vurğulanıb ki, dövlət başçılarının siyasi iradəsi, dostluq münasibətləri nəticəsində ölkələrimiz arasında əməkdaşlıq strateji səviyyəyə yüksəlib. Bütün bunlar Azərbaycan və Qırğızıstan həmkarlar ittifaqları arasında da əlaqələrin inkişafı üçün geniş imkanlar açır.

Tədbirdə Azərbaycan həmkarlar ittifaqlarının fəaliyyəti barədə məlumat verilib, üzvlərin əmək, sosial və iqtisadi hüquqlarının müdafiəsi, layiqli iş şəraitinin təmin olunması istiqamətində görülən işlərdən, tətbiq olunan yeniliklərdən və həyata keçirilən layihələrdən bəhs olunub. Qeyd edilib ki, Əmək və Sosial Münasibətlər Akademiyasının İxtisasartırma və Kadrların İnkişafı Mərkəzində təlimlər və ixtisasartırma kursları, əmək hüquqları, əməyin mühafizəsi və digər mövzularda maarifləndirmə tədbirləri keçirilir. Qırğızıstan həmkarlar ittifaqlarının nümayəndələri də mərkəzdə təşkil edilən informasiya təhlükəsizliyi, süni intellekt və əmək hüquqlarına dair təlimlərdə iştirak edəcəklər.

Qırğızıstan Həmkarlar İttifaqları Federasiyasının sədri Muradil Cumadilde Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası ilə əlaqələrin inkişafı istiqamətləri ilə bağlı fikirlərini bölüşüb. Görüş çərçivəsində Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası və Qırğızıstan Həmkarlar İttifaqları Federasiyası arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu imzalanıb.

Memorandum Azərbaycan və Qırğızıstan həmkarlar ittifaqları arasında üzvlərin əmək və sosial hüquqlarının müdafiəsi sahəsində əməkdaşlığın gücləndirilməsini, bilik və təcrübə mübadiləsini, birgə layihələrin həyata keçirilməsini, həmçinin təlim və maarifləndirmə tədbirlərinin təşkilini nəzərdə tutur.

Sonra qonaqlar AHİK-də "Çağrı Mərkəzi"nin fəaliyyəti, "Kurort" Turizm İnformasiya Mərkəzində yollayışların verilməsi prosesində tətbiq olunan yeniliklər, eləcə də Əməyin Mühafizəsi və Hüquqi Yardım Mərkəzi ilə tanış olublar.

*Nərminə ƏSGƏROVA,*
*"Azərbaycan"*

# Ruben Vardanyanın məhkəməsində zərərçəkmiş şəxslərin ifadələri dinlənilib

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə ilə bağlı maddələri ilə və digər ağır cinayətlərdə təqsirləndirilən Ermənistan vətəndaşı Ruben Vardanyanın barəsində cinayət işi üzrə məhkəmə prosesi noyabrın 4-də davam etdirilib.

AZƏRTAC xəbər verir ki, Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Anar Rzayevdən və Camal Ramazanovdan ibarət tərkibdə keçirilən açıq məhkəmə iclasında (ehtiyat hakim Günel Səmədova) təqsirləndirilən şəxs bildiyi dildə, yəni rus dilində tərcüməçi, habelə müdafiəsi üçün dövlət hesabına vəkillə təmin olunub.

Hakim Zeynal Ağayev prosesdə ilk dəfə iştirak edən zərərçəkmiş şəxslərə və zərərçəkmiş şəxslərin hüquqi varislərinə məhkəmə heyətini, dövlət ittihamını müdafiə edən prokurorları, tərcüməçiləri və s. təqdim edib habelə onların qanunvericiliklə nəzərdə tutulmuş hüquqlarını və vəzifələrini izah edib.

Sonra təqsirləndirilən Ruben Vardanyanın hüquqlarını müdafiə edən yeni vəkili Emil Babışov məhkəməyə vəsatət təqdim edib.

Qeyd edib ki, ötən iclaslarda Ruben Vardanyan və həmin vaxt onun hüquqlarını müdafiə edən vəkili məhkəməyə bir sıra vəsatətlər təqdim ediblər. Məhkəmədə həmin vəsatətlərlə bağlı qəbul olunmuş qərarların çıxarışları tam şəkildə müdafiə tərəfinə təqdim edilməyib. Müdafiəçi sözügedən qərarların çıxarışlarının tam şəkildə müdafiə tərəfinə təqdim olunmasını məhkəmədən xahiş edib.

Qeyd edək ki, ötən iclasda Ruben Vardanyana dövlət hesabına yeni vəkil təyin olunub. Həmin vaxtadək isə onun hüquqlarını özünün seçdiyi vəkil müdafiə edirdi. İki iclas əvvəl Ruben Vardanyan özünün seçdiyi vəkilindən imtina edib.

Hakim Zeynal Ağayev deyib ki, müdafiə tərəfinə indiyədək həmin çıxarışlar təqdim olunub və bundan sonra da onlar bu hüquqlarından istifadə edə biləcəklər.

Sonra Ruben Vardanyan növbəti vəsatətini təqdim edərək məhkəmə iclasına Azərbaycan Dövlət Sərhəd Xidmətinin nümayəndəsinin dəvət olunmasını xahiş edib. Deyib ki, bu ona qarşı irəli sürülən ittiham üzrə maddələrdən biri - Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz keçmə ilə bağlıdır.

Ruben Vardanyanın müdafiəçisi Emil Babışov da təqsirləndirilən şəxsin mövqeyini və vəsatətini müdafiə etdiyini bildirərək təmin olunmasını xahiş edib.

Vəsatətə münasibət bildirən baş prokurorun böyük köməkçisi Vüsal Əliyev müdafiə tərəfinin vəsatətində kimin hansı səbəbdən dindirilməsini, həmin şəxsin şahid qismində hansı ifadəni verə biləcəyinin və bunun ifadənin təqsirləndirilən şəxsə qarşı irəli sürülmüş ittihama nə kimi aidiyyətinin olmasını aydın göstərmədiyini, həmçinin Dövlət Sərhəd Xidmətinin əməkdaşlarının hazırkı iş üzrə qanunsuz sərhəd keçməyə dair ifadələrinə zərurət olmadığını deyib.

Bildirib ki, əgər təqsirləndirilən şəxs Azərbaycan Respublikasının dövlət sərhədini ittihamın əksinə olaraq qanuni şəkildə keçdiyini iddia edirsə və bunu sübut etmək istəyirsə, buna dair qanunlarda nəzərdə tutulmuş qaydalar var. Təqsirləndirilən şəxs Azərbaycanın ərazisinə qanuni şəkildə daxil olubsa, onun ümumvətəndaş pasportunda Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidmətinin möhürü olmalıdır. Pasportunda həmin möhürü göstərməklə sübut edə bilər.

Vüsal Əliyev vəsatətin təmin olunmamasını məhkəmədən xahiş edib.

Məhkəmə tərəfləri dinləyərək qərar qəbul edib. Qərara əsasən vəsatət baxılmamış saxlanılıb.

Hakim Zeynal Ağayev həmçinin deyib ki, həmin şəxsin barəsində qanunla nəzərdə tutulmuş qaydada məlumatlar təqdim edilərsə, bu məsələ müzakirəyə çıxarıla bilər.



Daha sonra hakim Z.Ağayev bildirib ki, iş üzrə zərərçəkmiş şəxs qismində tanınmış bir qrup şəxs məhkəməyə müraciət ünvanlayaraq üzrlü səbəbdən prosesdə iştirak edə bilmədiklərini, ibtidai istintaq zamanı verdikləri ifadələrini təsdiqlədiklərini bildirən ərizələr göndəriblər.

Tərəflər həmin ifadələrin məhkəmədə elan olunmasına etiraz etmədiklərini bildiriblər.

Ardınca Ermənistanın təcavüzkar müharibəsi və işğalçılıq siyasəti nəticəsində törədilmiş cinayət zamanı zərərçəkənlər ifadə veriblər.

Dövlət ittihamçısı Təranə Məmmədovanın suallarını cavablandıran zərərçəkmiş Saqif Mikayılov bildirib ki, Xocalı rayonunun Əsgəran qəsəbəsi istiqamətində Ermənistan ordusunun qalıqları və qanunsuz erməni silahlı dəstələrinin təxribatı nəticəsində xəsarət alıb.

Zərərçəkmiş şəxs Aydın Qəribov ifadəsində qeyd edib ki, Şuşa rayonunun Xəlfəli kəndində düşmən tərəfindən açılmış atəşlər nəticəsində o, Ceyhun Şahnamazlı və Tərlan Cabbarov yaralanıblar.

Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin şöbə rəisi Nəsir Bayramovun suallarını cavablandıran zərərçəkmiş Kənan Əbilov Xankəndi rayonunun adsız yüksəkliyində düşmənin odlu silahlardan açdığı atəşlər nəticəsində sol qolundan güllə yarası aldığını deyib.

Zərərçəkmiş şəxs Yusif Veysov ifadəsində bildirib ki, Xocalı rayonunun Çanaqçı kəndi ərazisində Ermənistan silahlı qüvvələrinin qalıqları və qeyri-qanuni erməni silahlı dəstələrinin minaatandan atdıqları mərmilərdən birinin yaxınlığına düşərək partlaması nəticəsində diz qapağından qəlpə yarası xəsarəti alıb.

Zərərçəkmiş şəxs Rahib Məmmədov dövlət ittihamçısı Fuad Musayevin suallarını cavablandıraraq, Zəngilan rayonu ərazisində düşmən tərəfindən atılan əl qumbarasının partlaması nəticəsində Fərid Mehbalının, Təbriz Rəhimovun həlak olduğunu, özünün, İbrahim Mayıllı, Seymur Həsənli və adlarını hazırda xatırlamadığı daha bir neçə nəfərin yaralandığını deyib.

Toğrul Nəcəfli ifadəsində vurğulayıb ki, Zəngilan rayonu ərazisində düşmənin təxribatı nəticəsində o və daha bir neçə nəfər yaralanıb. Fərid Rüstəmov, Fərid Mehbalı, Təbriz Rəhimov isə həlak olublar.

Dövlət ittihamçısı Vüsal Abdullayevin suallarını cavablandıran zərərçəkmiş Faiq Cəfərov qeyd edib ki, Laçın rayonu ərazisində düşmən tərəfindən atılan minaatan mərmisinin partlaması nəticəsində özü və bir neçə nəfər yaralanıb, daha bir neçə şəxs isə həlak olub.

Zərərçəkmiş şəxs Emin Məmmədov baş prokurorun böyük köməkçisi Vüsal Əliyevin suallarına cavabında bildirib ki, Laçın rayonu ərazisində düşmən tərəfindən atılan əl qumbarasının partlaması nəticəsində Əli Əliyev həlak olub, eyni zamanda o, Tural Ağcabəyov, Qabil Məmmədov və adlarını xatırlamadığı daha bir neçə nəfər müxtəlif bədən xəsarətləri alıblar.

Ramazan Məhəmmədov ifadəsində qeyd edib ki, Xocavənd rayonu ərazisində düşmən tərəfindən atılan top mərmisinin yaxınlığına düşərək partlaması nəticəsində o və daha bir neçə nəfər yaralanıb.

İfadə verən zərərçəkmiş şəxslər Seyran Eminov, Vüqar Məmmədov, Tural Bağırov, Nərməddin Quliyev, Əli Rüstəmov, Əhməd İbrahimov, Tural İmamquliyev, Saleh İsmayılov, Asif Məmmədov, Ariz Haşımov, Vidadi Xaniyev, Nazir Güləliyev Kəlbəcər rayonu ərazisində düşmənin təxribatı nəticəsində xəsarət aldıqlarını diqqətə çatdırıblar.

Qulu Quliyev, Böyükağa Həsənov, Səxavət Quliyev ifadələrində Laçın rayonu ərazisində, Seymur Həsənli, Asif Məmmədov, Uğur Şükürlü isə Zəngilan rayonu ərazisində düşmən təxribatları nəticəsində yaralandıqlarını bildiriblər.

Daha sonra ifadə verən İbad İsmayılov, İlkin Rəhimov və Elmir Beydullayev Xocavənd rayonu, Ayxan Abdullayev Şuşa şəhərində İsa bulağı, Gündüz Qurbanov Şuşa rayonunun Xəlfəli kəndi, Rəfael Səlimov Ağdam rayonu, Hicran Sultanov isə Ağdərə rayonu ərazisində Ermənistan ordusunun qalıqları və qanunsuz erməni silahlı dəstələrinin təxribatları zamanı yaralandıqlarını vurğulayıblar.

Məhkəmədə həmçinin cinayət işi materiallarında olan və ibtidai istintaq zamanı toplanmış sənədlər elan olunub, sübutlar tədqiq edilib.

Məhkəmənin növbəti iclası noyabrın 18-nə təyin olunub.

Xatırladaq ki, Ruben Vardanyan Azərbaycan Respublikası CM-in 100.1, 100.2 (təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma), 107 (əhalini deportasiya etmə və məcburi köçürmə), 109 (təqib), 110 (insanları zorakılıqla yoxa çıxarma), 112 (beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrum etmə), 113 (işgəncə), 114.1 (muzdluluq), 115.2 (müharibə qanunlarını və adətlərini pozma), 116.0.1, 116.0.2, 116.0.10, 116.0.11, 116.0.16, 116.0.18 (silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma), 120.2.1, 120.2.3, 120.2.4, 120.2.7, 120.2.11, 120.2.12 (qəsdən adam öldürmə), 29,120.2.1, 29,120.2.3, 29,120.2.4, 29,120.2.7, 29,120.2.11, 29,120.2.12 (qəsdən adam öldürməyə cəhd), 192.3.1 (qanunsuz sahibkarlıq), 214.2.1, 214.2.3, 214.2.4 (terrorçuluq), 214-1 (terrorçuluğu maliyyələşdirmə), 218.1, 218.2 (cinayətkar birlik yaratma), 228.3 (qanunsuz olaraq odlu silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə), 270-1.2, 270-1.4 (aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər), 278.1 (hakimiyyəti zorla ələ keçirmə və ya onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə), 279.1, 279.2, 279.3 (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və ya qrupları yaratma) və 318.2-ci (Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq keçmə) maddələri ilə ittiham olunur.



## AZƏRBAYCANIN ŞƏRƏF VƏ QÜRUR TARİXİ

## ŞANLI ZƏFƏR - 5 İL

# Zəfərə aparan elmi idarəçilik



**Azərbaycan Respublikası bu il müstəqilliyinin bərpasının 34-cü ildönümünü qeyd etdi. Tarixi baxımdan bu, çox qısa dövr olduğuna baxmayaraq, ölkəmiz bu illərdə inkişafın müxtəlif istiqamətlərində çox böyük nailiyyətlər əldə etmişdir. Bu uğurlar arasında Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə parlaq qələbə ilə bitmiş 44 günlük şanlı Vətən müharibəsi, onun nəticəsində ölkənin ərazi bütövlüyünün bərpası xüsusi əhəmiyyət daşıyır. Bu qələbə ilə ölkə öz gücü hesabına beynəlxalq hüququ tam bərpa etdi, BMT-nin Təhlükəsizlik Şurasının 4 qətnaməsini həyata keçirdi, dövlət suverenliyinin bütün ölkə ərazisində təmin edilməsinə yönəldilmiş və 24 saatdan az vaxt tələb edən uğurlu antiterror əməliyyatının keçirilməsi üçün şərait yaratdı.**

Bu tarixi qələbənin əldə edilməsində əsasını Ulu Öndər Heydər Əliyevin qoyduğu və Prezident İlham Əliyev tərəfindən yaradıcılıqla inkişaf etdirilən müasir ölkə quruculuğu istiqamətində uğurlu çalışmalar, innovativ dövlət idarəçiliyi sahəsində böyük bacarıqlar durur. Bu siyasətin həyata keçirilməsi nəticəsində ölkədə iqtisadi yüksəlişə nail olunmuş, sosial sahənin məqsədyönlü inkişafı təmin edilmiş, hərbi quruculuq istiqamətində kompleks tədbirlər həyata keçirilmişdir. Bunlarla yanaşı, Vətən müharibəsində qələbəni, ölkənin ərazi bütövlüyünün bərpasını təmin edən digər amillər arasında qlobal miqyasda reallaşdırılan çevik və uğurlu diplomatik fəaliyyət, dünyanın aparıcı televiziya kanalları, beynəlxalq qəzet və jurnallara verilən müsahibələrin çox böyük əhəmiyyəti olmuşdur. Bütün bu fəaliyyətlər Prezident İlham Əliyev tərəfindən şəxsən böyük peşəkarlıqla həyata keçirilmişdir.

Azərbaycan Respublikasının Vətən müharibəsində qazandığı tarixi qələbə mükəmməl hərbi və ümummilli təhlükəsizlik siyasətinə əsaslanır. Lakin bununla yanaşı, qazanılmış zəfəri, ən müasir elmə əsaslanan və təcrübədən uğurla çıxan davamlı və inklüziv inkişaf siyasətini təmin edib. Ölkə Prezidenti İlham Əliyevin dövlət idarəçiliyi sahəsində dünyada ilk dəfə tətbiq etdiyi yeni siyasət və texnologiyalar ölkənin hərtərəfli inkişafını təmin edərək, dövlətin ərazi bütövlüyünə və suverenliyinə səbəb oldu.

Hazırda "Böyük qayıdış" proqramı çərçivəsində işğaldan azad olunmuş ərazilərin iqtisadi, sosial, ekoloji və humanitar reabilitasiyası uğurla həyata keçirilir və artıq 50 mindən çox insan, o cümlədən 20 mindən çox məcburi köçkün öz yurdları olan Qarabağ və Şərqi Zəngəzura qayıtmaq imkanı qazanmışlar. Ölkəmizdə işğaldan azad olunmuş ərazilərin həyata qaytarılması prosesi öz miqyası və mahiyyətinə görə unikaldır və dünyada onun analoqu yoxdur. İşğaldan azad edilmiş ərazilərdə bərpa və quruculuq işləri böyük sürətlə və yüksək keyfiyyətlə həyata keçilir. Bu prosesdə "yaşıl inkişaf" və "ağıllı kənd və şəhər" yanaşmalarının tətbiqi həm yerli resurslarla, həm də beynəlxalq təşkilatlarla əməkdaşlıq sayəsində mümkün olub. BMT-nin şəhərsalma sahəsində ixtisaslaşmış agentliyi olan UN-Habitat bu əməkdaşlıqda əsas tərəfdaşdır. Qeyd edilməlidir ki, şəhərsalma ilə məşğul olan beynəlxalq təşkilatlar arasında BMT-nin bu strukturu dünyada ən ali, birnömrəli qurumdur. Azərbaycanın bu təşkilatla əməkdaşlığının ilk irimiqyaslı tədbiri 2022-ci ildə Ağdamda keçirilmiş "Davamlı inkişaf və yeni şəhər gündəliyi - azad edilmiş ərazilərin bərpasının hərəkətverici qüvvəsi kimi" adlı beynəlxalq forum olmuşdur. Bu foruma 40 ölkədən 400-dən çox iştirakçı qatılmışdı. Forum iştirakçıları ölkəmizdə işğaldan azad edilmiş ərazilərin reabilitasiyasında tətbiq edilən innovativ fəaliyyətlərlə də tanış olmuşlar. Ölkənin davamlı və inklüziv inkişaf edən yaşayış məntəqələrinin salınması sahəsində BMT ilə əməkdaşlıq çərçivəsində 2025-ci ildə Xankəndi şəhərində şəhərsalma forumu keçirilmişdi. Forumda azad edilmiş ərazilərdə "ağıllı şəhər və ağıllı kənd" layihələrinin, "yaşıl enerji" və infrastrukturun tətbiqi müzakirə edilmişdi. 2026-cı ildə isə Azərbaycanda qlobal əhəmiyyət daşıyan 13-cü Dünya Şəhərsalma Forumu keçiriləcək. Göründüyü kimi, dövlət idarəçiliyində Prezident İlham Əliyev tərəfindən davamlı inkişaf siyasəti çərçivəsində tətbiq edilən yeni rezonans və komplementar texnologiyalar çoxməqsədli və uzunmüddətli layihələrin həyata kəçirilməsini şərtləndirir.

Dövlət idarəçiliyində yeni olan və Azərbaycanda ilk dəfə kompleks şəkildə tətbiq edilən yeni texnologiyalar öz yüksək səmərəliliyini Azərbaycan Respublikasının enerji transformasiyası prosesi, işğaldan azad olunmuş ərazilərdə "yaşıl enerji"yə keçid layihələrinin həyata keçirilməsi prosesində də göstərir. Buna parlaq misal olaraq Azərbaycan Prezidenti İlham Əliyevin bu sahədə keçirdiyi davamlı inkişaf siyasəti çərçivəsində tətbiq etdiyi yeni rezonans və komplementar idarəçilik texnologiyalarının səmərəliliyi göstərilə bilər.

Azərbaycan Respublikasında enerji transformasiyası sahəsində dövlət səviyyəsində fəaliyyətlərin başlanğıcı 2004-cü ilə aid edə bilər. Həmin ilin sentyabr ayının 21-də 462 nömrəli sərəncamla Prezident İlham Əliyev "Azərbaycan Respublikasında bərpaolunan enerji üzrə Milli Proqram"ı təsdiq etdi. Bu, strateji addımın nə dərəcədə uzaqgörən olduğu qərarın qəbul edilməsi zamanı ölkədə mövcud olan vəziyyətin təhlilindən aydın olur. 2004-cü il İlham Əliyev cənablarının ilk prezidentlik ilidir. Ölkənin 20 faiz ərazisi işğal altındadır, əhalinin 13 faizi qaçqın və məcburi köçkündür, Dünya Bankının məlumatları əsasında həmin il ölkədə yoxsulluq da yüksək səviyyədə idi. Eyni zamanda həmin ildə ölkədə artıq 2020-ci ildə ərazilərin işğaldan azad edilməsi, 2023-cü ildə suverenliyin ölkənin bütün ərazisində bərpası üçün hazırlıq işləri aparılırdı. Bunun üçün ölkədə iqtisadi və sosial sahələrin yenidən qurulması və inkişafı həyata keçirilirdi, tam yeni səviyyədə hərbi və ümumi təhlükəsizlik sistemi qurulurdu, diplomatiya və media sahələrində intensiv fəaliyyətlər gücləndirilirdi. Belə bir şəraitdə eyni zamanda bərpaolunan enerjinin istifadəsi istiqamətində təşəbbüslərin irəli sürülməsi onu göstərir ki, çoxməqsədli və uzunmüddətli davamlı inklüziv inkişaf siyasəti ölkənin əsas strateji məqsədi kimi formalaşdırılmışdır. Bu siyasətin davamı olaraq ölkədə 2009-cu ildə "yaşıl energetika"nın inkişafı üçün ixtisaslaşmış dövlət qurumu yaradıldı, sonrakı 2009-2023-cü illərdə isə bu məqsədə xidmət edən 14 fərman və sərəncam imzalandı.

Hərbi quruculuq sahəsində olduğu kimi, bərpaolunan enerjiyə keçid və ümumiyyətlə, enerji transformasiyası sahəsində 2004-cü ildə qəbul olunmuş qərar öz nəticələrini 20 il sonra göstərdi. Dünya İqtisadi Forumunun 2023-cü ildə dərc edilmiş hesabatına əsasən, enerji transformasiyasına görə Azərbaycan Respublikası dünyada 32-ci yerdə qərarlaşıb və bu sahədə qazandığı nailiyyətlərə görə, Belçika, İtaliya, Çexiya, Polşa, Litva, Yunanıstan və iqtisadi baxımdan yüksək inkişafa nail olmuş digər ölkələri geridə qoymuşdur. Bu, ölkədə tətbiq edilən davamlı inklüziv inkişaf siyasətinin və onun həyata keçirilməsi zamanı səfərbər edilən yeni dövlət idarəçilik texnologiyalarının nəticəsidir. Bu innovativ idarəçilik texnologiyalarının yüksək səmərəyə malik olması BMT, Dünya Bankı, Dünya İqtisadi Forumu və digər nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən hazırlanan hesabatlarda öz əksini tapır.

Nəzərə almaq lazımdır ki, 2004-cü ildə Azərbaycan enerji ilə tam təmin olunmuşdu, hətta dünyada neft və qaz ixracatçısı kimi tanınırdı. Belə bir şəraitdə ölkənin "yaşıl enerji"yə müraciət etməsi innovativ inkişaf istiqamətində növbəti addım idi. Bu, Prezident İlham Əliyevin qlobal inkişafın perspektivləri haqqında dərin bilik və gələcəyi düzgün proqnozlaşdıra bilmək istedadına əsaslanan qərar idi. Vətən müharibəsinin parlaq Zəfərlə 44 günə bitməsi, antiterror əməliyyatı üçün 24 saatdan az vaxt tələb olunması da bunu sübut edir.

Dövlət idarəçiliyinin səmərəliliyini müəyyən edən sadə bir tənlik mövcuddur: "imkan + idarəetmə = nəticə". Bu tənliyə görə, əgər məhdud imkanlar şəraitində yüksək nəticənin əldə edilməsi müşahidə olunursa, bu, idarəetmənin yüksək səviyyəsindən xəbər verir. Beynəlxalq standartlara görə, bir çox halda imkan kimi alıcılıq qabiliyyəti pariteti nəzərə alınmaqla ABŞ dollarında ifadə olunmuş ÜDM (ümumdaxili məhsul) dəyəri, onun istifadəsi ilə yaradılan məhsulun dəyəri isə nəticə kimi istifadə olunur. "Yaşıl enerji" keçidinin iqtisadi səmərəliliyi şəkil 1-də təqdim edilib. Burada imkan kimi alıcılıq qabiliyyəti nəzərə alınmaqla 1000 ABŞ dollarının istifadəsi nəticəsində neçə vahid enerji keçid indeksinin müqayisəli təhlili aparılır.




Şəkil 1. Enerji keçidi prosesinin idarə edilməsinin iqtisadi səmərəliliyi: ÜDM-in hər vahidinə (1000 ABŞ dolları, alıcılıq qabiliyyəti pariteti ilə) qazanılmış enerji transformasiya indeksinin (ETİ) dəyəri. *Mənbə: Dünya İqtisadi Forumu, 2024, Dünya Bankı, 2025.*

Şəkil 1-də Azərbaycan Respublikası ilə yanaşı təmsil olunmuş ölkələr enerji transformasiyası baxımından dünya liderləridir: İsveç - dünya üzrə, Litva - keçmiş SSRİ ölkələri ilə müqayisədə, Norveç isə neft və qaz ixrac edən ölkələr arasında. Göründüyü kimi, Azərbaycan Respublikası elmə əsaslanan innovativ dövlət idarəçilik texnologiyalarının tətbiqi nəticəsində "yaşıl enerji"yə keçid proseslərinin idarə edilməsində ən yüksək səmərəliliyi nümayiş etdirir və alıcılıq qabiliyyəti pariteti nəzərə alınmaqla hər 1000 ABŞ dollarına 2,62 dəyərində enerji transformasiya indeksi yaradır. Dövlət idarəçiliyində səmərəlilik universal bir prosesdir və hazırda beşilliyini qeyd etdiyimiz Vətən müharibəsinin parlaq Zəfər ilə cəmi 44 günə bitməsi də yüksəksəviyyəli elmə əsaslanan idarəetmənin nəticəsidir.

Azərbaycanda idarəetmənin yüksək səviyyədə olmasının digər bir göstəricisi də ölkənin ərazi bütövlüyü və suverenliyinin bərpasına hazırlıq gedən zamanı, onun gedişi vaxtında, işğaldan azad edilmiş ərazilərin bərpası prosesində ölkədə uğurlu sosial siyasətin həyata keçirilməsidir. Bu sahədə böyük nailiyyətlərin əldə edilməsində Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın xüsusi xidmətləri var. Onun rəhbərliyi və şəxsi iştirakı ilə həyata keçirilən layihələr həm milli, həm də qlobal miqyasda davamlı inkişafa, sosial ədalətə və inklüziv cəmiyyətin formalaşmasına xidmət edir. Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü ilə dövlət idarəçiliyində innovasiya kimi tətbiq edilən dövlət-özəl tərəfdaşlıq formatına yeni, olduqca mühüm bir tərəfdaş - Heydər Əliyev Fondu timsalında vətəndaş cəmiyyəti cəlb edilib. Bu, dövlət idarəçiliyində yeni formatdır və müharibə, onun nəticələrinin aradan qaldırılması şəraitində ölkəyə bir çox yeni uğur gətirmişdir. Birinci vitse-prezident Mehriban xanım Əliyevanın fəaliyyəti ölkənin dünyada imicinin formalaşması üçün olduqca əhəmiyyətlidir, Vətən müharibəsində qazanılan qələbə və müharibədən sonrakı mərhələlərdə ərazilərin reabilitasiyası üçün çox mühümdür.

Son 10 ildə əhalinin sosial təminatı kifayət qədər yaxşılaşmışdır və bu istiqamətdə işlər davam edir. Belə ki, statistik məlumatların təhlili göstərir ki, son on ildə sosial siyasət ölkənin birinci dərəcəli prioritetidir və 2025-ci ildə 2015-ci illə müqayisədə orta pensiyanın dəyəri 3,1 dəfə artıb və hazırda 538 manat təşkil edir.

Azərbaycan Respublikasında orta pensiyanın dəyərinin nə dərəcədə beynəlxalq səviyyəyə uyğun olmasını müqayisəli təhlil etmək üçün alıcılıq qabiliyyəti pariteti nəzərə alınmaqla bu məbləğ ABŞ dollarına çevrilməlidir. Bu paritetin müəyyən edilməsi Dünya Bankı tərəfindən "istehlak səbəti" üsulu ilə həyata keçirilir. Bunun üçün müxtəlif ölkələrdə eyni tərkibli ən azı 600-800 mal və xidmətdən təşkil edilmiş istehlak səbətinin dəyəri müqayisə edilir və hər ölkə üçün müvafiq əmsal müəyyən edilir. Bundan sonra həmin əmsallar vasitəsilə hər nəfərə düşən milli valyutada ifadə olunan maliyyə vəsaiti alıcılıq qabiliyyətini nəzərə almaqla ABŞ dollarına çevrilir. Bu maliyyə vasitəsi eyni zamanda beynəlxalq ABŞ dolları kimi də məlumdur. Beynəlxalq səviyyədə iqtisadi və sosial müqayisələr aparmaq üçün Azərbaycan Respublikasında 2015-2025-ci illərdə orta pensiya beynəlxalq ABŞ dollarında aşağıdakı kimi təsvir edilə bilər (Şəkil 2).




Şəkil 2. Azərbaycan Respublikasında orta aylıq pensiyanın dəyəri, ABŞ dolları alıcılıq qabiliyyəti pariteti ilə. *Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, 2025; Dünya Bankı, 2025.*

Şəkil 2-dən göründüyü kimi, son on ildə ölkədə orta pensiya hər il artmaqdadır. Bu artım 2020-ci ildən sonra daha da sürətlidir. Beynəlxalq müqayisələr göstərir ki, ölkədə həyata keçirilən uğurlu sosial siyasət göstəricisi olan orta pensiyanın səviyyəsi bir sıra Avropa İttifaqında təmsil olunmuş ölkələr səviyyəsindədir (Şəkil 3).




Şəkil 3. Orta aylıq pensiyanın dəyəri (ABŞ dolları alıcılıq qabiliyyəti pariteti ilə): Azərbaycan və Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatına üzv olan ölkələr. *Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, 2025; Dünya Bankı, 2025.*

Vətən müharibəsi dövründə KİV ilə əlaqələrə xüsusi diqqət yetirilirdi. Müharibənin gedişi və sonrakı zamanlarda Prezident İlham Əliyev müxtəlif dillərdə bir sıra müsahibələr verirdi və bu zaman ölkənin beynəlxalq səviyyədə qazandığı nailiyyətlərə də toxunurdu. Bunun nəticəsidir ki, Prezident İlham Əliyev Nyu-Yorkda fəaliyyət göstərən ABŞ-nin aparıcı televiziya kanallarından olan "Fox News"-un müxbirinə 20 oktyabr 2020-ci ildəki müsahibəsində Azərbaycan Respublikasının müstəqillik illərində qazandığı bəzi nailiyyətləri sadaladı və ABŞ jurnalistinə təklif etdi: "Öz ölkən ilə müqayisə et". O da qeyd olunmalıdır ki, beynəlxalq statistikaya əsasən, bir sıra istiqamətlərdə bu müqayisə ABŞ-nin xeyrinə deyildi. Müsahibə zamanı bu prosesdə iştirak edən "Fox News" kanalının əməkdaşı Prezident İlham Əliyevin ABŞ siyasətindən yaxşı məlumatlı olduğunu qeyd etdi. Prezident İlham Əliyevin cavabı çox lakonik oldu: "Mən məlumatlı adamam". Bu, ölkəmizin inkişaf strategiyası və taktikasının nə dərəcədə müasir olmasının, Prezident İlham Əliyevin isə dövlət başçısı kimi dünyada hansı dərəcədə yüksək nüfuz sahib olmasının bir göstəricisidir.

Azərbaycan Respublikasının Vətən müharibəsində qələbə qazanması, işğal olunmuş əraziləri azad etməsi və bununla beynəlxalq hüquqa əsasən ərazi bütövlüyünün və suverenliyinin bərpası ölkə və regionda inkişaf üçün yeni bir şərait yaratdı. Yaranmış yeni imkanların yüksək səmərə ilə idarə edilməsi, dövlət idarəçilik sahəsində kadr potensialının formalaşması və təkmilləşdirilməsi növbəti uğurların qarantı kimi çıxış edir. Əminəm ki, bu yeni reallıq ölkəmizi yeni zirvələrə qaldıracaqdır.

***Urxan ƏLƏKBƏROV,***
***Azərbaycan Respublikası Prezidenti yanında***
***Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik***

# Zəfər Günü xalqımızın tarixi yaddaşına əbədi həkk olunub

**Noyabrın 4-də Qafqaz Müsəlmanları İdarəsində (QMİ) 8 Noyabr - Zəfər Gününə həsr olunmuş tədbir keçirilib.**

AZƏRTAC xəbər verir ki, tədbir Dövlət himninin səsləndirilməsi və "Qurani-Kərim"dən ayələrin oxunması ilə başlayıb.

Qafqaz Müsəlmanları İdarəsinin sədri, Şeyxülislam Allahşükür Paşazadə çıxış edərək Zəfər Gününün xalqımızın tarixi yaddaşında əbədi yer tutan möhtəşəm Qələbə günü olduğunu bildirib. O, Vətən müharibəsinin gedişindən, həmin dövrün çətinlik və sınaqlarından söz açaraq, din xadimlərinin şəhidlərin dəfni və mərasimlərinin təşkili istiqamətində göstərdikləri fədakarlığı, mənəvi dəstəyi və vətənpərvərlik ruhunu yüksək qiymətləndirib.

Şeyxülislam qeyd edib ki, 30 illik nisgilə son qoyan bu Qələbə Azərbaycan xalqının birliyi, dövlətin gücü, xalq-rəhbər həmrəyliyi və Ali Baş Komandan İlham Əliyevin müdrik, qətiyyətli siyasəti nəticəsində mümkün olub. Müharibə dövründə dövlət-din münasibətləri qarşılıqlı hörmət və etimad üzərində formalaşaraq, xalqda yüksək mənəvi ruh və qələbə inamı yaradıb.

QMİ sədri vurğulayıb ki, artıq ölkəmiz suverenliyini və ərazi bütövlüyünü bərpa edib, hazırda isə azad edilmiş torpaqlarda geniş quruculuq və bərpa işləri həyata keçirilir. Bu proses çətin və məsuliyyətli mərhələ olsa da, Azərbaycanın qüdrətini nümayiş etdirir.

Şeyxülislam Allahşükür Paşazadə çıxışında həmçinin Ulu Öndər Heydər Əliyevin dövlətçilik və ordu quruculuğu sahəsində yaratdığı möhkəm əsaslardan danışıb, bu siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini qeyd edib. O, eyni zamanda Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın işğaldan azad olunmuş ərazilərdə dini-mədəni abidələrin bərpası və qorunması istiqamətində həyata keçirdiyi layihələri yüksək qiymətləndirib. Sonra Dağ yəhudiləri dini icmasının sədri Milix Yevdayev çıxış edərək Azərbaycanda mövcud olan multikultural mühit və dini tolerantlıqdan danışıb. Bildirib ki, Vətən müharibəsi zamanı müxtəlif dinlərin nümayəndələri bir amal - Azərbaycanın azadlığı və suverenliyi uğrunda birləşiblər və bu Zəfər həmçinin bizim birliyimizin rəmzidir.

Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının arxiyepiskopu Aleksiy çıxışında şəhidlərin xatirəsini ehtiramla anıb, qazilərə cansağlığı arzulayıb. O, Azərbaycanda dini icmalar arasında sülh və qarşılıqlı hörmət mühitinin dünya üçün nümunə olduğunu vurğulayıb. Azərbaycan Katolik Kilsəsinin Apostol Prefekturasının rəhbəri, yepiskop Vladimir Fekete çıxışında ölkəmizdə bütün dini etiqadların azad şəkildə fəaliyyət göstərməsindən məmnunluğunu ifadə edib, Azərbaycanın tolerantlıq ənənəsinin cəmiyyətin birliyini daha da möhkəmləndirdiyini vurğulayıb.

Alban-udi icmasının sədri Robert Mobili çıxışında qeyd edib ki, Azərbaycan Ordusunun qazandığı Qələbə bütün vətəndaşların ortaq sevincidir. Bu Qələbə dini və milli fərqlərdən asılı olmayaraq hər bir azərbaycanlının qəlbində qürur hissi doğurur.

Avropa yəhudilərinin Bakı dini icmasının sədri Aleksandr Şarovski çıxışında Azərbaycanın bütün dinlərin nümayəndələrinə bərabər münasibət göstərən nadir ölkələrdən biri olduğunu qeyd edib, şəhidlərə rəhmət, qazilərə şəfa arzulayıb.

Tədbirdə çıxış edən şəhid ailələrinin üzvləri və qazilər Prezident İlham Əliyevin həyata keçirdiyi siyasəti dəstəklədiklərini, dövlətin onlara göstərdiyi qayğını yüksək qiymətləndirdiklərini vurğulayıblar.

Sonda Azərbaycandakı dini konfessiya rəhbərlərinin Vətən müharibəsində qazanılmış Zəfərin beşinci ildönümü münasibətilə bəyanatı qəbul edilib.

# Azərbaycanın gələcəyi elm, bilik və milli ruh üzərində qurulacaq

**Elm sosial və iqtisadi tərəqqinin açarıdır. Tərəqqi isə o ölkələrdə sürətlə gedir ki, orada mütəxəssislərin elmi və ixtisas səviyyəsi yüksək olur. Bu gün elmin inkişafına dövlət səviyyəsində qayğı, ölkənin daha da güclənməsinə və xalqın milli-mədəni tərəqqisinə, onun rifah halının yüksəldilməsinə xidmət edən siyasətin tərkib hissəsidir. Qloballaşma prosesinin dünyanı əhatə etdiyi və elmi-texniki tərəqqinin kifayət qədər yüksək sürətlə aparıldığı müasir dövrdə müstəqil Azərbaycan dövlətinin inkişafı elmi durumun səviyyəsindən və qazanılan nailiyyətlərin tətbiqindən əhəmiyyətli dərəcədə asılıdır. Ölkədə elmin inkişafında Azərbaycan Milli Elmlər Akademiyası müstəsna rol oynayıb.**



Elm məbədimiz olan Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubileyi münasibətilə keçirilən təntənəli tədbir ölkənin elmi ictimaiyyəti üçün əlamətdar hadisə olmaqla yanaşı, Azərbaycanın dövlətçilik tarixində də mühüm səhifəyə çevrildi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin AMEA-nın yubiley mərasimində etdiyi çıxış təkcə elmi nailiyyətlərin təqdiri deyil, həm də gələcəyə yönəlmiş dərin strateji baxışın ifadəsi oldu. Proqram xarakterli tarixi çıxışında dövlətimizin rəhbəri elmin milli gücün, texnoloji suverenliyin və mədəni kimliyin təməli kimi əhəmiyyətini xüsusi vurğuladı.

### Ulu Öndər irsindən gələn inkişaf yolu

Prezident çıxışının əvvəlində AMEA-nın 80 illik tarixi yoluna nəzər salaraq bu sahənin ölkəmizin həyatında hər zaman aparıcı rol oynadığını qeyd etdi. Xatırlatdı ki, Ulu Öndər Heydər Əliyevin ötən əsrin 70-ci illərində elmin inkişafı, alimlərin sosial rifahı və gənclərin təhsili üçün gördüyü işlər Azərbaycanın bugünkü intellektual dayaqlarını formalaşdırıb: "Ulu Öndər Heydər Əliyev hər zaman Azərbaycan alimlərini dəstəkləmək üçün öz səylərini əsirgəmirdi. Hələ ötən əsrin 70-ci illərində onun rəhbərliyi ilə akademiyanın fəaliyyəti təkmilləşdi, bir neçə yeni elmi-tədqiqat institutları yaradıldı, elmin inkişafına böyük vəsait ayrıldı". Bu, ölkəmizin intellektual potensialını möhkəmləndirdi.

Bu siyasət müstəqillik dövründə də davam etdirilib. Lakin ilk illər çox ağır və faciəvi oldu. Tarix və həyat sanki Azərbaycan elmini də sınağa çəkirdi. Amma bu sınaqda bizim elmi ictimaiyyəti tarixi bir qismət, əlamətdar hadisə xilas etdi: bu, Heydər Əliyev şəxsiyyəti və fenomeni idi. Böyük siyasi xadimin hakimiyyətə gəlişi bir çox tərəddüdə və narahatlığa son qoydu, Azərbaycanın elmi potensialının tamam dağılmasının qarşısını aldı, bu müqəddəs elm məbədinin nüfuzunun bərpası üçün konkret tədbirlər həyata keçirildi. Bu qayıdış Azərbaycanın sosializm dövründən qalmış iqtisadi və mədəni-mənəvi sərvətlərinin dağıdılması proseslərini dayandırdı və yeni quruculuq işləri varislik prinsipi əsasında, əvvəlki mərhələlərdə xalqımızın əldə etdiyi nailiyyətlərin davamı kimi həyata keçirilməyə başlandı. 1993-cü ildə Ulu Öndər Heydər Əliyev Azərbaycana gələn kimi ilk növbədə ölkənin intellektual elitası ilə görüşdü. Bu görüş respublikadakı siyasi böhranın mütləq həll ediləcəyi inamı ilə yanaşı, Elmlər Akademiyasının nüfuzunun qaytarılması üçün də ciddi siqnal oldu. Görüş faktının özü elm ocağının statusunun yüksəldilməsi işinə tarixi bir töhfə idi.

Tezliklə akademiyanın statusu və taleyi ilə bağlı açıq və pərdəarxası diskussiyalar birmənalı şəkildə həll edildi. Elmlər Akademiyasının işi daim ölkə rəhbərliyinin diqqət mərkəzində oldu. Bütün sahələrdə elmi-tədqiqat işləri aparılmağa başlandı. Fundamental tədqiqatların əhəmiyyəti və onların inkişafının təminatı sahəsində bir çox əməli işlər görüldü. Bu işlərdə riyaziyyat, fizika, neft kimyası, geologiya və biologiyanın müasir sahələri üzrə yaradılmış elmi məktəblər daha da inkişaf etdirildi, keçmiş ideologiyadan azad olmuş tarix, ədəbiyyat, dil, iqtisadiyyat, fəlsəfə və hüquq elmləri yeni demokratik dövlətin möhkəmlənməsinə öz töhfələrini verdi. Fundamental tədqiqatlar əsasən respublikamızın sosial-iqtisadi inkişaf məqsədləri və elmin özünün məntiqi inkişaf tələblərinə cavab verən istiqamətlərdə aparılırdı. Fundamental tədqiqatlar, ilk növbədə respublikamızın yanacaq-enerji kompleksinin yenidən qurulması, neft-kimya, metallurgiya, maşınqayırma komplekslərinin inkişafı, radikal torpaq və aqrar islahatların səmərəliliyinin və sürətinin artırılması ilə bağlı problemlərin həllinə yönəlmişdir.

2001-ci ilin mayında ölkə rəhbərinin fərmanı ilə akademiyanın dövlət statusu möhkəmləndirildi. Bununla da AMEA-nın fundamental elmin inkişafında əldə etdiyi nailiyyətləri, Azərbaycan xalqının mədəni və mənəvi təşəkkülündə oynadığı rolu, nüfuzu və akademik elmin ölkənin inkişafının əsas təminatçısı olduğu bir daha təsdiqləndi. 2001-ci ilin iyun ayında AMEA-nın həqiqi və müxbir üzvlərinin seçkiləri keçirildi. Bu seçkilər akademiyanın tarixində xüsusi yer tutmuşdur. Fundamental elmə verdikləri əsaslı töhfələri, özlərinin hərtərəfli bilikləri və dünyagörüşləri ilə fərqlənən alimlər akademiyanın tərkibinə seçildilər.

2002-ci il avqustun 7-də Heydər Əliyev "Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan bölməsinin təsis edilməsi haqqında" son dərəcə vacib və xüsusi əhəmiyyət daşıyan yeni bir sərəncam imzaladı. Elm tariximizdə misilsiz dəyərə malik olan bu sənəd Naxçıvanın Azərbaycanın zəngin elmi mərkəzlərindən birinə çevrilməsinə real imkanlar açdı.

Prezident İlham Əliyev çıxışında xüsusi vurğuladı ki, o vaxt maliyyə imkanlarımız çox məhdud idi: "Azərbaycan böyük humanitar fəlakətlə üz-üzə idi. Bir milyondan çox qaçqın və məcburi köçkün, torpaqlarımızın işğal altına düşməsi və çox böyük iqtisadi, maliyyə çətinlikləri. Amma buna baxmayaraq yenə də akademiyanın işinə, akademiyanın qorunmasına, alimlərin fəaliyyəti üçün vəsait ayrılırdı. Təbii ki, illər keçdikcə, Azərbaycan inkişaf etdikcə bu vəsait daha böyük həcmdə ayrılır. Son on il ərzində Azərbaycan elminə ayrılan vəsait iki dəfədən çox artmışdır. Mənim prezidentlik dövrümdə də bu istiqamətdə, yəni Azərbaycan elminin inkişafına göstərilən diqqət Ulu Öndərin siyasətinə uyğun şəkildə aparıldı".

Son onilliklərdə AMEA-nın maddi-texniki bazası yeniləndi, Elm Fondu yaradıldı, "Elm haqqında" qanun və Elmin İnkişafı üzrə Milli Strategiya qəbul olundu. Bütün bunlar göstərir ki, Azərbaycanda elmin inkişafı ardıcıl dövlət siyasəti kimi həyata keçirilir və Heydər Əliyev kursu bu gün yeni məzmunla zənginləşir.

### Yeni əsr, yeni çağırışlar: Elmin texnoloji mərhələsi

Azərbaycan Prezidenti çıxışında 10 il əvvəl AMEA-nın 70 illik yubileyindəki nitqini xatırlatdı və qeyd etdi ki, dünya iqtisadiyyatı tamamilə dəyişmiş, beynəlxalq aləmdə gedən siyasi proseslər, müharibələr, hərbi toqquşmalar, beynəlxalq hüququn pozulması, mövcud olan qaydaların tamamilə aradan qaldırılması göz önündədir: "Azərbaycana gəldikdə, son 10 il bizim üçün inkişaf və zəfərlərlə zəngin illər olmuşdur. Əsas vəzifə - torpaqlarımızın azad edilməsi, ərazi bütövlüyümüzün bərpası, suverenliyimizin bərpası layiqincə təmin edilmişdir. Bu gün Azərbaycan bütün suveren torpaqlara sahibdir. Bizim ərazimizdə işğalçı qüvvələr yoxdur. Bizim ərazimizdə xarici hərbi birləşmələr yoxdur. Bu gün biz bu torpaqlarda qurub-yaradırıq. Biz bir neçə gündən sonra şanlı Zəfərimizin beşinci ildönümünü qeyd edəcəyik. Son beş il ərzində dünyada bir çox yerlərdə müharibələr, toqquşmalar, münaqişələr baş verirdi və hər şey müqayisə ilə ölçülür. Bunu da alimlər yaxşı bilirlər. Deyə bilərəm ki, bizim qədər parlaq, tam və mütləq Qələbə qazanan ikinci ölkə olmamışdır".

Prezident İlham Əliyev hələ AMEA-nın 70 illik yubileyində dünyadakı yeni vəziyyətlə əlaqədar alimləri öz dəyərli təkliflərini verməyə çağırmışdı, onları qeyri-neft sənayesinin inkişafı, ərzaq təhlükəsizliyi ilə bağlı fəal olmağa səsləmişdi. Dövlətimizin başçısı hərbi sənaye sahəsində də Azərbaycan alimlərinin fəaliyyəti üçün geniş meydanın olduğunu söyləmişdi.

Bu gün artıq hər kəsə bəllidir ki, ölkənin tərəqqisini təbii resurslardan çox, məhz cəmiyyətin intellektual potensialı, texnoloji inkişaf müəyyən edir: "Təbii sərvətlər tükənən sərvətlərdir, gec-tez tükənəcək. Tükənməz sərvət isə intellektual potensialdır, amma o halda əgər buna sərmayə qoyularsa. O sərmayəni dövlət qoymalıdır. Ölkənin elm ictimaiyyəti, alimlər bu istiqamətdə öz səylərini göstərməlidirlər. Ona görə bu gün əsas vəzifələrdən biri texnoloji inkişafdır", - Prezident İlham Əliyev AMEA-nın 80 illik yubileyində xüsusi vurğulamışdır.

Dövlətimizin başçısı çıxışında onu da qeyd etdi ki, elm artıq yalnız elmi tədqiqat obyekti deyil, milli təhlükəsizlik və iqtisadi müstəqilliyin təməlidir. Prezidentin bu fikri çağdaş dövrdə elmin strateji mahiyyətini açır. Azərbaycanın sosial-iqtisadi nailiyyətlərinin, həmçinin Vətən müharibəsindəki tarixi Zəfərimizin arxasında da məhz bu baxış - bilik, innovasiya və texnologiyaya söykənən inkişaf modeli dayanır.

Dövlət başçısı elmi ictimaiyyətə çağırış edərək bildirdi ki, Azərbaycan alimləri bu yeni mərhələdə ölkənin texnoloji tərəqqisinin aparıcı qüvvəsinə çevrilməlidirlər.

### Süni intellekt və rəqəmsallaşma: gələcəyin reallığı

Prezident İlham Əliyev çıxışında dünyanın süni intellekt əsrində yaşadığını vurğuladı. On il əvvəl bu anlayış haqqında, demək olar ki, heç kim danışmırdı, bu gün isə o, iqtisadiyyatın, təhlükəsizliyin və idarəçiliyin ayrılmaz hissəsinə çevrilib.

"Biz burada geri qalmamalıyıq. Ona görə dövlət lazımi addımları atır… Azərbaycanda süni intellektin həm inkişafı, həm də həyatda, iqtisadiyyatda, texnoloji inkişafda tətbiqi bu gün reallıqdır və əlbəttə ki, biz burada Azərbaycan alimlərinin fəal iştirakını gözləyirik", - Prezident dedi.

Dövlət başçısının fikrincə, süni intellekt yalnız texnologiya deyil, eyni zamanda yeni düşüncə tərzidir. Prezident alimlərə müraciətlə bildirdi ki, bu istiqamətdə elmi potensialın birləşdirilməsi və milli tətbiq modellərinin yaradılması vacibdir. Rəqəmsallaşma sahəsində görülən işlər də artıq konkret nəticələr verir: dövlət idarəçiliyində elektron sistemlərin tətbiqi şəffaflığı və səmərəliliyi artırıb.

Eyni zamanda Prezident İlham Əliyev kibertəhlükəsizliyi ayrıca strateji istiqamət kimi qiymətləndirdi: "Kibertəhlükəsizlik, yəni virtual təhlükəsizlik deyil. Bu hər bir ölkənin fiziki təhlükəsizliyidir… Bu sahəyə əgər lazımi diqqət göstərilməsə, heç bir başqa müdafiə imkanı bizi böyük problemlərdən qoruya bilməz".

Bu sözlər bir daha göstərir ki, dövlətin texnoloji prioritetləri elmi potensialla sıx əlaqələndirilir. Elm artıq ölkənin müdafiə və iqtisadi təhlükəsizliyinin mühüm komponentinə çevrilib.

### Elm və sənaye ittifaqı: innovasiyanın praktiki gücü

Azərbaycan Prezidenti çıxışında elmin yalnız nəzəri deyil, praktiki nəticələr verməsinin də zəruriliyini vurğuladı. Azərbaycanın hərbi sənaye kompleksini bu sahədə nümunə kimi göstərdi: son illərdə dövlət və özəl sektorun iştirakı ilə istehsal olunan hərbi məhsullar daxili tələbatı qarşılayır və ixrac potensialı yaradır.

"Elm iqtisadiyyatla, sənaye ilə sıx bağlı olmalıdır… Burada bu kürsüdən dövlət strukturlarına da göstəriş vermək istəyirəm ki, Azərbaycan alimləri ilə daha sıx işləsinlər. Bizim elmimizin praktik nəticələri olmalıdır. Təkcə elmi əsərlərdə yox, real həyatda və iqtisadiyyatın sürətli inkişafını nəzərə alaraq, əlbəttə ki, burada əlaqələndirmə, uzlaşma yüksək səviyyədə olmalıdır".

Prezident alimlərə və dövlət qurumlarına birgə fəaliyyət göstərişi verərək elm-sənaye inteqrasiyasını prioritet elan etdi. Bu çağırış Azərbaycanın gələcək texnoloji modelini müəyyənləşdirir: elmi tədqiqatların kommersiyalaşdırılması, innovasiyaların sənayeləşdirilməsi və texnoparkların genişləndirilməsi dövlət siyasətinin əsas xətti kimi diqqətə çatdırılır.

### İqtisadi sabitlik və elmi tərəqqi: paralel inkişaf

Dövlətimizin rəhbəri Azərbaycanın iqtisadi vəziyyətinə toxunaraq qeyd etdi ki, ölkə iqtisadiyyatı sağlam, borcu minimal, valyuta ehtiyatları rekord səviyyədədir.

Hazırda Azərbaycanın xarici borcu ümumi daxili məhsulun cəmi 6 faizindən bir qədər çoxdur, valyuta ehtiyatları isə 80 milyard dollardan artıqdır. Bu göstərici ilə Azərbaycan dünyada maliyyə dayanıqlılığı baxımından ön sıralardadır.

Bu sabitlik dövlətə həm hərbi gücünü, həm də elmi potensialını artırmaq üçün yeni imkanlar yaradır. Prezident onu da qeyd etdi ki, Qarabağ və Şərqi Zəngəzurda aparılan bərpa işləri güclü iqtisadi bazanın nəticəsidir, həmin bölgələrdə müasir sənaye, texnologiya və elm mərkəzlərinin formalaşması gələcək illərin prioritetlərindəndir.

Çıxışda diqqətçəkən əsas istiqamətlərdən biri də bərpaolunan enerji sektoru ilə bağlıdır: "yaşıl enerji" və geoloji elmin yüksəlişi! Prezident İlham Əliyev bildirdi ki, Azərbaycan bu sahədə də ön sıralardadır. Son beş ildə Qarabağ və Şərqi Zəngəzurda 30-dan çox su-elektrik stansiyası tikilib, yeni günəş və külək-elektrik stansiyaları layihələri reallaşdırılır. Dövlətimizin başçısı dedi: "2030-cu ilə qədər günəş, külək və su-elektrik stansiyalarının generasiya gücü 6 min meqavata çatmalıdır. Bu, böyük bir sənaye sahəsidir, sənayenin inkişafının növbəti istiqamətidir. Azərbaycan alimlərini burada da fəal olmağa dəvət edirəm".

Eyni zamanda Qarabağ və Şərqi Zəngəzurda genişmiqyaslı geoloji kəşfiyyat işləri aparılır. Müasir peyk texnologiyalarından istifadə ilə aparılan bu tədqiqatlar bölgənin təbii resurs potensialını daha dərindən öyrənməyə imkan verir. Prezident bu sahədə də alimlərin fəal iştirakını zəruri saydı.

### Tarixi həqiqətlərin elmi müdafiəsi

Cənab İlham Əliyev çıxışında Azərbaycanın tarixi və mədəni irsinin elmi əsaslarla təbliğini vacib vəzifə kimi göstərdi. Ermənistanın illərlə apardığı təhriflərə qarşı Azərbaycan tarixinin orijinal mənbələrə söykənən tədqiqi və beynəlxalq səviyyədə tanıdılmasını əsas vəzifələrdən biri kimi irəli sürdü. Xüsusi vurğulandı ki, biz öz tariximizi tədqiq və təbliğ etməliyik. Daha çox elmi əsərlər, sərgilər, xəritələr hazırlanmalıdır. Çar Rusiyasının dərc etdiyi xəritələrdə indiki Ermənistan ərazisindəki toponimlərin mütləq əksəriyyəti Azərbaycan mənşəlidir. Cənab İlham Əliyevin bu çağırışı tarix elminin milli ideoloji təhlükəsizlikdəki rolunu aydın göstərir və alimlərə, ictimai təşkilatlara açıq mesaj verir: Azərbaycanın tarixi gerçəkləri yalnız elmi əsaslarla, sistemli şəkildə dünya ictimaiyyətinə çatdırılmalıdır.

### Azərbaycan dili - milli kimliyin dayağı

Prezident İlham Əliyevin çıxışının mühüm bir hissəsi də milli dəyərlərə, xüsusilə Azərbaycan dilinə həsr olundu. Dövlət başçısı dilin saflığının qorunmasını hər bir vətəndaşın vəzifəsi adlandırdı.

Prezident xatırlatdı ki, bu məsələni o, on il əvvəl də AMEA-nın 70 illiyində qaldırmışdı. Həmin vaxtdan bəri dilin saflığının qorunması istiqamətində bir sıra tədbirlər görülsə də, hələ də narahatedici halların qalması dövlətimizin başçısının diqqətindən yayınmayıb: "Azərbaycan dilinin saflığının qorunması hər bir Azərbaycan vətəndaşının işi olmalıdır. Yəni dövlət, alimlər, dilçilər, yazıçılar, şairlər, jurnalistlər, siyasətlə məşğul olanlar bu məsələyə çox böyük diqqət verməlidirlər".

Prezident vurğuladı ki, Azərbaycan dili 50 milyondan çox insan üçün Ana dilidir və bu onu dünyanın ən çox istifadə olunan və zəngin dillərindən birinə çevirir. Lakin bu zənginliyin qorunması yalnız rəsmi qərarlarla deyil, hər bir vətəndaşın şəxsi məsuliyyəti və dili sevmə mədəniyyəti ilə mümkündür. Eyni zamanda xəbərdarlıq olundu ki, xarici sözlərin həddindən artıq işlədilməsi, mediada və ictimai nitqlərdə ədəbi dil qaydalarının pozulması milli kimliyin təməllərinə zərbə vura bilər. Biz xalq kimi, millət kimi öz dilimizi qorumasaq, onda yavaş-yavaş milli kimliyimiz də sarsıla bilər.

Prezidentin fikrincə, Azərbaycan dilinin qorunması təkcə dilçilərin işi deyil. Bu bütün cəmiyyətin ortaq vəzifəsidir. Alimlər, media nümayəndələri, ədəbiyyat xadimləri, siyasətçilər və müəllimlər dilin saflığını həm tədrisdə, həm də gündəlik nitqdə qorumağa borcludurlar.

Bu istiqamətdə dövlət səviyyəsində aparılan işlərin davam edəcəyini vurğulayan Prezident onu da qeyd etdi ki, Azərbaycan dövləti ədəbi dilin əsas qoruyucusudur, lakin xalq özü bu dəyərlərə sahib çıxmasa, hər cəhd natamam qalacaq. Dövlət başçısı xaricdə yaşayan azərbaycanlı icmalarında da ana dilimizin vəziyyətinə toxundu, bəzi ölkələrdə ədəbi dilin unudulması təhlükəsinin yarandığını nəzərə çatdırdı: "Görürəm ki, bəzi yerlərdə bizim ədəbi dilimiz digər ölkələrdə yaşayan azərbaycanlılar arasında itirilir. Daha çox məişət dili kimi istifadə olunur, xarici kəlmələrlə dolu olur. Ona görə də biz dilimizi qorumasaq, dilimizi təmiz, saf saxlamasaq, onda dilimizi yavaş-yavaş itirə bilərik".

Prezidentin bu fikirləri Azərbaycan dilinin yalnız ölkə daxilində deyil, həm də dünya azərbaycanlıları arasında qorunmasının strateji prioritetə çevrildiyini göstərir. Ölkə rəhbərimiz dilin dövlətçilikdəki rolunu belə dəyərləndirir: "Hər bir millət, hər bir xalq üçün onun Ana dili onun milli mənsubiyyətinin əsas amilidir… Azərbaycan dili çox zəngindir, xarici kəlmələrə ehtiyac da yoxdur… Əgər Azərbaycan dilində əzəli bir kəlmə varsa, başqa dildən söz gətirib əvəzləmək nə məqsəd daşıyır? Bu ya səhvdir, ya təxribatdır. Hər ikisi də qəbuledilməzdir".

Bu çağırış həm də mədəni müstəqillik konsepsiyasının ifadəsidir. Çünki dil - təkcə sözlər toplusu deyil, həm də xalqın düşüncə tərzi, hiss dünyası və varlıq fəlsəfəsidir.

Cənab İlham Əliyevin çıxışının bu hissəsi bir daha sübut etdi ki, Azərbaycan dilinin saflığı dövlət ideologiyasının mənəvi əsaslarından biridir. Bu həm milli təhlükəsizlik, həm də gələcək nəsillərin kimliyini qoruma məsələsidir.

Bütün bu qeydlər Azərbaycan Prezidentinin AMEA-nın 80 illik yubileyindəki çıxışının nə qədər mühüm strateji məzmun daşıdığını göstərir. Bu nitqdə dövlətin elmə yanaşması milli ideologiyanın ayrılmaz hissəsi kimi təqdim olunur. Elmin ölkənin gücünü, texnologiyanın təhlükəsizliyini və inkişafını, dil və tarixin isə milli kimliyi qoruması həqiqəti təsbit edilir. Azərbaycan bu gün təkcə təbii sərvətləri ilə deyil, intellektual potensialı, süni intellektə əsaslanan texnoloji inkişafı və elmə verilən dəyəri ilə də regionda fərqləndiyini göstərir.

Prezident İlham Əliyevin irəli sürdüyü tezis, qarşıya qoyduğu strateji hədəf kifayət qədər konkret və aydındır: Azərbaycanın gələcəyi elm, bilik və milli ruh üzərində qurulacaq.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

# Azərbaycanla Əlcəzair arasında ikitərəfli və çoxtərəfli əməkdaşlıq gündəliyində yer alan aktual məsələlər müzakirə edilib

Noyabrın 4-də xarici işlər naziri Ceyhun Bayramov Əlcəzair Xalq Demokratik Respublikasına rəsmi səfəri çərçivəsində bu ölkənin dövlət naziri, xarici işlər və xaricdəki milli icma və Afrika məsələləri naziri Əhməd Attaf ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, təkbətək görüşdən sonra hər iki tərəfin nümayəndə heyətlərinin iştirakı ilə nazirlər arasında geniş tərkibdə görüş keçirilib.

Görüşdə Azərbaycan-Əlcəzair ikitərəfli və çoxtərəfli əməkdaşlıq gündəliyində yer alan aktual məsələlər, habelə regional və qlobal inkişaflar, eləcə də Yaxın Şərqdə vəziyyət müzakirə olunub.



Qarşılıqlı hörmət və ortaq dəyərlərə əsaslanan Azərbaycan-Əlcəzair əməkdaşlıq əlaqələrinin hazırkı səviyyəsindən məmnunluq ifadə olunub, ali və yüksək səviyyədə qarşılıqlı səfərlərin dövlətlərarası əlaqələrimizin inkişafına təkan verdiyinə dair həmrəylik ifadə olunub.

İki ölkənin Xarici İşlər nazirliyi arasında cari ilin aprelində baş tutmuş siyasi məsləhətləşmələrin, xarici işlər nazirləri arasında keçirilmiş görüşlərin Azərbaycan-Əlcəzair əməkdaşlığının hərtərəfli və sistematik şəkildə irəliyə aparılmasında rolundan bəhs olunub.

Azərbaycan ilə Əlcəzair arasında beynəlxalq təşkilatlar, o cümlədən BMT, İslam Əməkdaşlıq Təşkilatı və Qoşulmama Hərəkatı çərçivəsində əməkdaşlığın məmnunluq doğurduğu qeyd edilib. Ölkəmizin evsahibliyi etdiyi qlobal və regional əhəmiyyətli yüksəksəviyyəli tədbirlərin əhəmiyyətindən bəhs olunub. Bu çərçivədə növbəti il Bakıda keçiriləcək İslam Əməkdaşlıq Təşkilatının sammiti və BMT-nin Ümumdünya Şəhərsalma Forumu barədə müzakirə aparılıb.

İqtisadi əməkdaşlıq ölçüsünə toxunularaq ticarət və investisiyalar, neft-qaz və bərpaolunan enerji sahəsində əməkdaşlıq imkanları nəzərdən keçirilib. Təhsil və mədəniyyət sahələri üzrə mübadilələrin artırılmasının, turizm potensialının geniş şəkildə istifadə olunmasının xalqlarımızın bir-birini daha yaxından tanımasındakı rolundan bəhs olunub.

Nazir Ceyhun Bayramov görüş zamanı qarşı tərəfə postmünaqişə dövründə bölgədə vəziyyət, bərpa-quruculuq işləri barədə ətraflı məlumat verib.

Görüş zamanı həmçinin qarşılıqlı maraq doğuran digər ikitərəfli və çoxtərəfli məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Daha sonra Azərbaycan Respublikası Hökuməti ilə Əlcəzair Xalq Demokratik Respublikası Hökuməti arasında Ticarət, İqtisadi, Elmi və Texniki Əməkdaşlıq üzrə Birgə Komissiyanın yaradılması haqqında Saziş iki ölkənin nazirləri tərəfindən imzalanıb.

Birgə Komissiyanın iki ölkə arasında münasibətlərin daha da dərinləşdirilməsi istiqamətində əhəmiyyətli mexanizm olacağı vurğulanıb.

# Konstitusiya Məhkəməsinin nümayəndə heyəti Madriddə keçirilən VI Konqresdə iştirak edib

Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayevin başçılıq etdiyi nümayəndə heyəti oktyabrın 28-30-da Konstitusiya Ədalət Mühakiməsi üzrə Dünya Konfransı Təşkilatına sədrlik edən İspaniya Krallığı Konstitusiya Məhkəməsinin sədri Kandido Konde-Pumpidonun və Katibliyinin fəaliyyətini təmin edən Avropa Şurasının Venesiya Komissiyasının dəvəti ilə "Gələcək nəsillərin insan hüquqları" mövzusunda keçirilmiş VI Konqresdə iştirak etmək üçün İspaniyanın Madrid şəhərində səfərdə olub.

Konstitusiya Məhkəməsinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, tədbirdən əvvəl Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin də daxil olduğu Avropa və Asiya ölkələrinin Konstitusiya məhkəmələrinin üzv olduqları Konstitusiya Ədalət Mühakiməsi üzrə Dünya Konfransı Təşkilatının Bürosuna daxil olan bir sıra qrupların iclasları keçirilib.

Konqres çərçivəsində "Təbii ehtiyatların və ətraf mühitin qorunması", "Bəşəriyyətin mədəni irsinin qorunması", "Elmi biliklərə və yeni texnologiyalara əlçatanlıq", "Konstitusiya məhkəmələrinin müstəqilliyi" adlı sessiyalar olub.

Sonra konqresdə səsləndirilən məruzələr üzrə müzakirələr və geniş fikir mübadiləsi aparılıb, yekun iclasda məruzəçilərin milli hesabatları dinlənilib və Madrid Kommünikesi qəbul edilib. Sənəddə sağlam ətraf mühitdə yaşamaq hüququnun mühüm insan hüquqlarından biri olduğu qeyd olunub. Həmçinin Konstitusiya məhkəmələri mədəni irsin qorunmasına öz töhfələrini verməsinin və rəqəmsal texnologiyaların tətbiqində şəxsi məlumatların mühafizəsinə xüsusi diqqət yetirilməsinin vacibliyi vurğulanıb.

Konqresin rəsmi bağlanış mərasimində İspaniya Kralı VI Felipe tədbir iştirakçılarını salamlayaraq konqresin Konstitusiya məhkəmələri arasında beynəlxalq əməkdaşlığın genişləndirilməsində mühüm rol oynayacağına əmin olduğunu bildirib.

Səfər zamanı Azərbaycan nümayəndə heyəti bir sıra ölkələrin Konstitusiya məhkəmələrinin sədr və hakimləri ilə işgüzar görüşlər keçirib və hüquq məsələlərini müzakirə ediblər.

Qeyd edək ki, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi 2009-cu ildən fəaliyyət göstərən Konstitusiya Ədalət Mühakiməsi üzrə Dünya Konfransı Təşkilatına 2011-ci ildən tamhüquqlu üzv seçilib. Konfransın müxtəlif illərdə Cənubi Afrika Respublikasının Keyp Taun, Braziliyanın Rio-de-Janeyro, Cənubi Koreyanın Seul, Litvanın Vilnüs şəhərlərində və İndoneziyanın Bali adasında konqresləri keçirilib.

# İlham Əliyev elmin inkişafına xüsusi önəm verir



# Prezidentin çağırışı

## Dövlət başçısı alimləri bərpaolunan enerji layihələrində fəal iştiraka dəvət etdi

**İndi elə bir beynəlxalq tədbir, yaxud mötəbər yığıncaq yoxdur ki, orada enerji keçidindən söhbət getməsin. Ənənəvi enerji növlərinin bərpaolunan enerjiyə yol verməsi, ikincinin istehsalı, nəqli, istehlakı hazırda bütün dünyanı düşündürən və məşğul edən məsələdir.**

Bərpaolunan enerji Azərbaycanın da iqtisadi siyasətinin mərkəzində dayanan prioritetlərdəndir. Odur ki, bu istiqamətdə qısa zamanda nəzərə çarpan irəliləyişlər baş verib.

Prezident İlham Əliyevin Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubileyinə həsr olunmuş yığıncaqdakı çıxışında da bu mövzuya toxunması təsadüfi deyil. Dövlət başçısı vurğulayıb ki, bu gün yeni sahələr arasında əsas yerdə bərpaolunan enerji növlərinin yaradılmasıdır və burada da Azərbaycan ön sıralardadır.

Bu gün Azərbaycanda icra edilən bərpaolunan enerji layihələri həqiqətən də genişmiqyaslıdır. Təkcə işğaldan azad olunmuş ərazilərimizdə həmin istiqamətdə görülən işləri qeyd etmək kifayətdir. Məlum olduğu kimi, Prezidentimiz Qarabağı və Şərqi Zəngəzuru "yaşıl enerji" zonası elan edib. Orada indiyədək bir sıra bərpaolunan enerji layihələri uğurla icra edilib ki, bu da qarşıya qoyulan hədəflərə doğru inamlı addımları göstərir. Cari ilin avqust ayında Kəlbəcərdə istifadəyə verilən üç yeni kiçik su-elektrik stansiyasının (KSES) açılışı ilə Qarabağ və Şərqi Zəngəzurda bu cür enerji obyektlərinin sayı ümumilikdə 38-ə, ümumi gücü isə 307 MVt-a çatıb. Həmin stansiyaların əksəriyyətinin açılışında Prezident İlham Əliyevin iştirak etməsi onların önəminə bir daha diqqət çəkir.

İndi bu sıraya "Şəms" və "Üfüq" də qoşulacaq. Xatırladaq ki, Prezident İlham Əliyev oktyabrın 28-də Cəbrayıl rayonunun Şahvəlli kəndində hər birinin gücü 50 meqavat olan "Şəms" və "Üfüq" Günəş-Elektrik stansiyalarının təməlini qoyub. Bu layihə ölkəmizin "yaşıl enerji" strategiyasının mühüm tərkib hissəsidir və Cəbrayıl rayonunun enerji xəritəsinin zənginləşməsinə xidmət edir.

Bu layihələr 2024-cü ilin mart ayında Energetika Nazirliyi ilə "Nobel Energy" şirkəti arasında imzalanan 100 MVt gücündə günəş-elektrik stansiyasının tikintisi, eləcə də elektrik enerjisinin istehsalı, satışı və istehlakı sahələrində əməkdaşlığa dair Anlaşma Memorandumuna əsasən həyata keçirilir. Keçən il həmçinin bərpaolunan enerji mənbələrinin inkişafı üçün Cəbrayıl rayonunun inzibati ərazisində dövlət mülkiyyətinə aid 229 hektar torpaq sahəsi ayrılıb. Bu çərçivədə "Clean Energy Cəbrayıl" MMC üçün 135 hektardan çox, "Enerso Cəbrayıl" MMC üçün 93 hektardan çox ərazi müəyyən edilib. Cari ilin aprel ayında isə Azərbaycan Respublikası hökuməti "Enerso Cəbrayıl" MMC ilə 50 MVt gücündə "Üfüq" Günəş-Elektrik Stansiyası, "Clean Energy Cəbrayıl" MMC ilə "Şəms" Günəş-Elektrik Stansiyası layihələri üzrə investisiya müqavilələri bağlayıb.

Hər iki stansiyanın 2027-ci ildə istismara verilməsi planlaşdırılır. Nəzərdə tutulduğuna görə, "Şəms" və "Üfüq" Günəş-Elektrik stansiyalarında ildə ümumilikdə 206 milyon kilovat-saat elektrik enerjisi istehsal ediləcək. Nəticədə hər il təxminən 44 milyon kubmetr təbii qaza qənaət olunacağı, atmosferə atılan zərərli emissiyaların isə 96 min ton azalacağı gözlənilir.

Ölkəmizin ən böyük günəş-elektrik stansiyası da işğaldan azad olunmuş ərazilərimizdə inşa edilir. Belə ki, hazırda Cəbrayıl rayonunda 240 meqavatlıq "Şəfəq" Günəş-Elektrik Stansiyasının tikinti işləri aparılır. İşlər nəzərdə tutulmuş qrafikə uyğun irəliləyir. Ölkəmizdə ən iri neft, qaz və ixrac layihələrinin əməliyyatçısı olan BP şirkətinin tikdiyi bu stansiyanın təməli keçən il Bakıda COP29-un daxil olduğu dövrdə qoyulub. Yekun investisiya qərarı isə bu ilin iyun ayında qəbul edilib.

Xatırladaq ki, Birləşmiş Ərəb Əmirliklərinin tanınmış "Masdar" şirkətinin sərmayəsi ilə Bakıda tikilən 230 MVt gücündə "Qaradağ" Günəş-Elektrik Stansiyası artıq iki ildir fəaliyyətdədir. Bu, Xəzər regionunda və MDB məkanında ən böyük günəş-elektrik stansiyasıdır. Səudiyyə Ərəbistanının "ACWA Power" şirkəti isə qoyuluş gücü 240 MVt olan Xızı-Abşeron Külək-Elektrik Stansiyası layihəsini reallaşdırmaqdadır.

2023-cü il oktyabrın 26-da "Qaradağ" stansiyasının açılış mərasimi çərçivəsində dövlət başçısının iştirakı ilə Azərbaycan hökuməti və "Masdar" şirkəti arasında ümumi gücü 1000 MVt olan "yaşıl enerji" layihələri üzrə üç investisiya müqaviləsi imzalanıb. İnvestisiya müqavilələri Biləsuvar rayonunda 445 MVt gücündə, Neftçala rayonunda 315 MVt gücündə günəş-elektrik stansiyaları və Abşeron-Qaradağ rayonunda 240 MVt gücündə külək-elektrik stansiyası layihələrinin icrasını nəzərdə tutur.

Prezident İlham Əliyev tərəfindən Naxçıvan Muxtar Respublikası da "yaşıl enerji" zonası elan edilib və burada da həmin istiqamətdə layihələrin inkişafına böyük potensial var. Bir sözlə, ölkəmizin bir çox bölgəsində bu iş yaxın gələcəkdə daha geniş vüsət alacaq.

Dövlət başçısı AMEA-nın yubileyinə həsr olunmuş yığıncaqda "Bütövlükdə 2030-cu ilə qədər günəş, külək və su-elektrik stansiyalarının generasiya gücü 6 min meqavata çatmalıdır. Bu, böyük bir sənaye sahəsidir, sənayenin inkişafının növbəti istiqamətidir" demişdir və Azərbaycan alimlərini də bu işdə fəal olmağa çağırmışdır.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

# Süni intellektin inkişafı

## Azərbaycanda da bu istiqamətdə mühüm addımlar atılır

Ümummilli Lider Heydər Əliyevin qurucusu olduğu müstəqil Azərbaycan bu gün Prezident İlham Əliyevin müdrik və uzaqgörən rəhbərliyi ilə bütün istiqamətlərdə hərtərəfli və uzunmüddətli inkişafını davam etdirir. Ötən illər ərzində ictimai həyatın bütün sahələrində olduğu kimi, elm və təhsilin müasir standartlar səviyyəsində təkmilləşdirilməsi, tədqiqat və tədrisin məzmunca yenilənməsi istiqamətlərində də əsaslı addımlar atılıb. Bu gün Azərbaycan elmi ölkəmizdə gedən dayanıqlı inkişaf proseslərinin mühüm tərkib hissəsini təşkil edir.

Milli Məclisin Gənclər və idman komitəsinin sədri Şahin İsmayılov qəzetimizə açıqlamasında bildirib ki, Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi strateji inkişaf konsepsiyasına uyğun olaraq, ölkəmizdə elmin inkişafına xüsusi diqqət ayrılır.



Deputat qeyd edib ki, Prezident İlham Əliyevin Milli Elmlər Akademiyasının 80 illik yubileyinə həsr olunmuş yığıncaqdakı çıxışında qeyd etdiyi kimi, son on il ərzində Azərbaycan elminə ayrılan vəsait iki dəfədən çox artırılıb, Elmlər Akademiyasının maddi-texniki bazası möhkəmləndirilib, onun şəhərciyində yerləşən binalar təmir edilib və bir sıra digər addımlar atılıb. "Dövlət başçısının ölkəmizin milli maraqlarına əsaslanan məqsədyönlü, nəticəyə hesablanmış siyasəti Azərbaycanın dayanıqlı inkişafını təmin edərək, şanlı zəfərimizin əldə olunmasına əsaslı zəmin yaratdı. Son on il ərzində Azərbaycan tarixi qələbələr əldə edərək, ərazi bütövlüyünü və dövlət suverenliyini tam bərpa etdi, iqtisadi dayaqlarını daha da gücləndirdi, beynəlxalq mövqelərini möhkəmləndirdi. Ölkəmiz bu gün qlobal müstəvidə baş verən proseslərə uyğun olaraq, inkişafının yeni mərhələsində inamla addımlayır. Bu xüsusda Azərbaycanda süni intellektin inkişafı və tətbiqi, rəqəmsallaşma istiqamətində də mühüm addımlar atılır", - deyə o əlavə edib.

Elmi araşdırmaların innovativ texnologiyaların formalaşmasına, milli təhlükəsizliyin möhkəmləndirilməsinə və müdafiə sənayesində müasir həllərin tətbiqinə şərait yaratdığını vurğulayan komitə sədri deyib ki, alimlərimizin bilik və təcrübəsi rəqəmsal transformasiyanın sürətləndirilməsi, süni intellekt əsaslı idarəetmə modellərinin yaradılması, kibermühitin qorunması baxımından xüsusi əhəmiyyət kəsb edir. Bu istiqamətlərdə elmi-tədqiqat fəaliyyətləri Azərbaycanın elmi və texnoloji inkişafının təmin olunmasına mühüm töhfə verəcək.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Qərbi Azərbaycana qayıdış etimad quruculuğunun vacib şərtidir

Regionda sülhün, barışığın bərqərar olması üçün vacib şərtlərdən biri də qərbi azərbaycanlıların təhlükəsiz və ləyaqətli şəkildə, sülh yolu ilə Ermənistandakı dədə-baba torpaqlarına qayıdışının təmin olunmasıdır.

Bu gün dünyada mövcud olan monoetnik dövlətlərin başında Ermənistanın gəlməsi XX əsrin mütəlif dövrlərində məqsədyönlü şəkildə bu ölkədən azərbaycanlıların deportasiya edilməsinin nəticəsidir. Erməni millətçiləri azərbaycanlılara məxsus torpaqları qəsb edib, soydaşlarımıza qarşı etnik təmizləmə siyasəti apardılar. Tarixi faktlara əsasən, Qərbi Azərbaycanda - Ermənistan ərazisində 1918-1921, 1948-1953 və 1987-1991-ci illərdə sistemli və total şəkildə etnik təmizləmə həyata keçirilib. Bunun sayəsində Ermənistanda bir nəfər belə azərbaycanlı qalmayıb.

1920-ci ildə Qərbi Zəngəzurun Azərbaycandan alınaraq Ermənistana verilməsi ilə həm də Azərbaycanın Naxçıvanla quru əlaqəsi məqsədyönlü şəkildə kəsilib. Ümumiyyətlə, ermənilərin çar Rusiyası tərəfindən bölgəyə yerləşdirilməsində əsas məkrli niyyətlərdən biri türk dünyasının coğrafiyasını parçalamaq olub.

Bütün bunlar tariximizin bir parçasıdır və gənc nəsillərimiz də bu gerçəkləri olduğu kimi bilməlidirlər.

### "Azərbaycanlılar heç vaxt separatizm xəstəliyinə düçar olmamışlar"

Noyabrın 3-də Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubileyinə həsr olunmuş tədbirdəki çıxışında Prezident İlham Əliyev, "Biz öz tariximizi tədqiq və təbliğ etməliyik. Azərbaycan vətəndaşları, Azərbaycan gəncləri bizim zəngin tariximizi bilməlidirlər. Bilməlidirlər ki, Azərbaycan xalqının tarixi, dövlətçilik tariximiz, xalqımızın qurub-yaratma qabiliyyəti çoxəsrlidir. Azərbaycan xalqı böyük coğrafiyada yaşayıb və yaşayır" deyərək, bu məsələnin aktuallığını bir daha vurğuladı.

Dövlət başçısı söylədi ki, təkcə onu demək kifayətdir ki, bizim hüdudlarımızın o tayında hər istiqamət üzrə Azərbaycan əhalisi yaşayır: " Ermənistanda da yaşayıb, amma oradan qovulub. Amma əminəm ki, yenə də yaşayacaq".

Bu gün Cənubi Azərbaycan da daxil olmaqla, dünyada təqribən 55 milyona qədər azərbaycanlı yaşayır. Beş qitəyə yayılaraq müxtəlif ölkələrdə yaşayan milyonlarla soydaşımız həmin ərazilərdə işləyir, sosial-ictimai fəaliyyət göstərir. Eyni zamanda onlar tarixi torpaqlarını da heç zaman yaddan çıxarmır, millimənəvi varlıqları ilə hər zaman vətənə bağlı qalırlar. Dünya azərbaycanlılarının İkinci Qarabağ savaşında göstərdikləri həmrəylik və V Qurultaylarını Zəfər qalamız Şuşada qurula qeyd etmələri də buna bariz nümunədir. Ancaq vurğuladığımız kimi, azərbaycanlılar dünyanın harasında yaşamalarından asılı olmayaraq, heç zaman şovinizmə qapılmır, etnik ayrı-seçkiliyə yol vermir, tolerant və multikultural mühitin mövcud olduğu vətənləri Azərbaycanın bu yüksək dəyərlərini yaşadıqları ölkələrdə də təbliğ edirlər.



Milli Elmlər Akademiyasının 80 illik yubileyinə həsr olunmuş tədbirdəki çıxışı zamanı Prezident İlham Əliyev qeyd etdi ki, bu gün bütün qonşu ölkələrlə sərhədlərimizin o tayında görürük ki, orada Azərbaycan əhalisi öz əzəli tarixi torpaqlarında yaşayır və yaşadıqları ölkələrdə ləyaqətli vətəndaşlar kimi həyat sürürlər: "Azərbaycanlılar heç vaxt separatizm xəstəliyinə düçar olmamışlar. Bizim xalqımız yaşadığı ölkələrin dövlətçiliyinə töhfə verib və bu gün heç bir ölkədə azərbaycanlılar heç bir dövlət üçün, heç bir başqa xalq üçün problem yaratmır və yaratmayacaq".

Həm Ermənistan, həm də monoetnik dövlətə himayədarlıq edən qərəzli Qərb dairələri necə vaxtdır ki, qərbi azərbaycanlıların tarixi yurdlarına qayıdışı məsələsini beynəlxalq ictimaiyyətə manipulyasiya olunmuş şəkildə təqdim edirlər. Guya bunu ölkəmizin ərazi iddiası kimi qələmə verməyə çalışırlar. Ancaq Bakı hər zaman bəyan edir ki, qərbi azərbaycanlılar indiki Ermənistandakı tarixi torpaqlarına sülh yolu ilə qayıdacaqlar. Bu həm də yüz minlərlə soydaşımızın tapdalanmış insan hüquqlarının bərpası beynəlxalq hüququn tələblərinin yerinə yetirilməsi baxımından ədalətli həll yoludur. Eyni zamanda qərbi azərbaycanlıların qayıdışı heç bir halda Ermənistana və ermənilərə təhlükə yaratmır. Çünki yuxarıda da vurğulandığı kimi, azərbaycanlıların beyinləri cəfəng milliyyətçi fikirlərlə zəhərlənməyib.

Bu xüsusda dövlət başçısı dedi: "Ona görə azərbaycanlıların indiki Ermənistana qayıtması Ermənistan xalqını və dövlətini qorxutmamalıdır. Mən bunu artıq bir müddət bundan əvvəl demişəm. Biz öz tarixi torpaqlarımıza qayıtmalıyıq, tanklarla yox, avtomobillərlə qayıtmalıyıq".

### "İndiki Ermənistan ərazisində toponimlərin mütləq əksəriyyəti Azərbaycan mənşəlidir"

Bu da tarixi faktdır ki, Azərbaycanın qədim toponimləri ermənilər tərəfindən dəyişdiriləcək uydurma adlarla adlandırılıb, bəzən isə türk dilində mövcud olan yer adlarını erməniceyə çeviriblər.

Ölkəmizin rəhbəri müxtəlif vaxtlarda etdiyi çıxışlarında aidiyyəti qurumları, bu işlə məşğul olan hər kəsi tarixi həqiqətlərin olduğu kimi bərpa edilməsinə və bunun xəritələrdə öz əksini tapmasına çağırıb. Vətən müharibəsindən sonra işğaldan azad olunan Kəlbəcər və Laçına səfər edən dövlət başçısı bir daha vurğulamışdı ki, indiki Ermənistan ərazisində toponimlərin mütləq əksəriyyətinin Azərbaycan mənşəli olduğunu hər kəs görsün: "O xəritələrdə Sevan gölü adlı göl yoxdur. O xəritələrdə Göyçə gölüdür və bütün digər bizim istifadə etdiyimiz tarixi toponimlərimiz orada öz əksini tapıb. O xəritələri biz tərtib etməmişik ki, kimsə desin biz burada saxtakarlıq edirik. Bunu çar Rusiyası edib. Həmin o çar Rusiyası ki vaxtilə erməniləri İrandan və Şərqi Anadoludan gətirərək bizim Qarabağ torpağında yerləşdirib ki, burada etnik və dini tərkib dəyişsin. Yəni bu xəritələr tamamilə tarixi həqiqətə əsaslanan xəritələrdir".

Bəli, ermənilərin yurd yerlərimizə verdikləri uydurma adları yaddaşlardan, dillərdən, kitablardan, xəritələrdən, tarixdən birdəfəlik silməyin zamanı çoxdan yetişib. Tarixi toponimlərimiz artıq öz həqiqi, min illərdir var olan adları ilə çağırılmalıdır.

Gerçəklərin gələcək nəsillərə olduğu kimi çatdırılması, tarix səhifələrindən məqsədyönlü şəkildə silinən faktların yenidən bərpa olunması üçün bundan sonra da xeyli əməli iş görmək qarşıda duran vacib çağırışlardan biridir.

Noyabrın 3-də AMEA-nın yubiley tədbirində Prezident İlham Əliyevin vurğuladığı kimi: "Ona görə biz bunu təbliğ etməliyik, tədqiq etməliyik. Daha çox elmi əsərlər, daha çox hətta kiçikhəcmli bukletlər hazırlanmalıdır ki, həm Azərbaycan gəncləri öz tarixini yaxından bilsinlər, həm dünya ictimaiyyəti bilsin və eyni zamanda indiki Ermənistana bizim qayıdışımız da tamamilə məntiqli və ədalətli səslənsin. Ona görə Azərbaycan tarixi ilə bağlı bax, bu istiqamətdə əlbəttə ki, əlavə addımlara ehtiyac var".

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# Ermənistanda seçkiqabağı gərginlik indidən hiss olunmağa başlayıb

**Ermənistanda növbəti parlament seçkilərinə təxminən 8 aya yaxın bir müddət qalsa da, ölkədə bu ictimai-siyasi proses ətrafında mübarizə indidən hiss olunmaqdadır.**

Məsələ ilə bağlı qəzetimizə açıqlama verən Milli Məclisin deputatı Kamran Bayramov bildirdi ki, qarşıdan gələn seçkilərlə bağlı Ermənistanda indidən siyasi gərginlik hiss olunmağa başlayıb. Çünki ölkədə bu seçkilərin nəticəsindən çox şey asılıdır: "Ermənistanda seçkiqabağı təşviqata demək olar ki, artıq start verilib. Noyabrın 3-də ölkənin Baş naziri Nikol Paşinyan parlament seçkilərində iştirak edəcəyini rəsmi şəkildə bəyan edib və "Vətəndaş müqaviləsi" partiyasından öz namizədliyini irəli sürüb. Ermənistanın müasir siyasi tarixində bəlkə də ilk dəfə olaraq, şərti "sülh partiyası" ilə "müharibə və ya revanş partiyası" arasında əsl güc sınağı gözlənilir. Nikol Paşinyan 2018-ci ildə hakimiyyətə gəldikdən dərhal sonra ona "sülh göyərçini" ləqəbi verildi. O dövrdə bunun üçün müəyyən əsaslar var idi. Sələfləri olan "Qarabağ klanı"nın başçıları və müharibə cinayətkarları Robert Koçaryandan və Serj Sarkisyandan fərqli olaraq, onun əli qana batmamışdır. Nikol Paşinyanın hakimiyyətə gəlməsi ilə sülh prosesinin irəliləməsi üçün ciddi ümidlər var idi. Təəssüf ki, reallıq gözləntiləri doğrultmadı. Hakimiyyətə gəldikdən sonra Paşinyan elə bir siyasət yürütməyə cəhd etdi ki, bu da Ermənistanın darmadağınla məğlub olduğu yeni müharibəyə səbəb oldu".

2020-ci ilin 44 günlük İkinci Qarabağ müharibəsində Azərbaycan ərazilərini işğaldan azad etdi. 2023-cü ilin sentyabrında isə Qarabağdakı erməni separatizminə son qoyuldu və bununla Azərbaycan öz ərazilərinin üzərində milli suverenliyini tam təmin etdi. Xatırladaq ki, Ermənistanda 2021-ci ilin parlament seçkilərində N.Paşinyan seçicilərinə indiki reallıqdan fərqli olan sözlər verirdi. 2023-cü ilin antiterror tədbirlərindən, Vaşinqtonda baş tutmuş üçtərəfli görüşdən, sülh sazişi layihəsinin mətninin paraflanmasından, əldə olunan digər razılaşmalardan sonra vəziyyət tamamilə dəyişdi.

Kamran Bayramov dedi ki, bu gün Ermənistanın Baş naziri sülhə, əməkdaşlığa, ölkəsinin və digər dövlətlərin sərhədlərinin tanınmasına və ərazi iddialarından çəkilməyə ehtiyacın olduğunu deyir və məhz bu platforma ilə seçkilərə getmək niyyətindədir: "Parlament seçkilərindən sonra Ermənistanda yeni konstitusiyanın qəbulu ilə bağlı referendumun keçirilməsi də nəzərdə tutulur. Hazırkı konstitusiya Qarabağa ərazi iddialarını açıq şəkildə nəzərdə tutur. Azərbaycan isə sülh müqaviləsinin imzalanmasından əvvəl həmin iddiaların aradan qaldırılmasını israr edir. Çox şey bunun erməni seçiciləri tərəfindən dəstəklənib-dəstəklənməməsindən asılıdır. Bu məsələ revanşist qüvvələrin Nikol Paşinyana qarşı mübarizələrinin fonunda xüsusilə aktualdır. Digər tərəfdən, Rusiyanın dolayı yolla olsa da, Paşinyanla "mübarizə aparmaq" niyyətində olduğuna dair bir çox əlamət mövcuddur. Çünki rəsmi Moskva Ermənistanın Baş naziri vəzifəsinə daha "sədaqətli" və itaətkar bir şəxsin gətirilməsinə üstünlük verir. Bu gün Nikol Paşinyana qarşı daşnaklar, "Qarabağ klanı"nın qalıqları, "Respublikaçılar", Serj Sarkisyanın "Şərəfim var" partiyası və digər iddialı və fərqli siyasi qüvvələrin daxil olduğu cəbhə açılıb. Lakin onların arasında adı və nüfuzu ilə səs toplamaq iqtidarında olan bir lider yoxdur. Müxalifət cəbhəsində "Qarabağ klanı"nın liderləri R.Koçaryan və S.Sarkisyan əsas rol oynayırlar. Paşinyan üçün ən təhlükəli hesab edilən rəqib məhz Ermənistanın ikinci prezidenti R.Koçaryandır. O, çirkli mübarizə üsullarının tərəfdarıdır, dayanıqlı maliyyə bazasına və xarici dəstəyə malikdir. Belə bir resurslarla hakimiyyət olimpini geri almaq üçün heç bir maneənin olmadığı düşünülür. Lakin Koçaryanın ictimai dəstəyi inqilabdan sonra əhali arasında hələ də yüksək reytinqini saxlayan Paşinyana meydan oxumaq səviyyəsində deyil. Üstəlik, Ermənistanda insanlar "Qarabağ klanı"nın cinayətkar diktaturası illərini hələ də çox yaxşı xatırlayırlar və çətin ki, ona qayıtmaq istəsinlər".



Ona görə də Ermənistan müxalifəti dövlət rəhbərliyinə yeni, alternativ namizəd axtarır. Bu yaxınlara qədər elə görünürdü ki, belə bir namizəd ortaya çıxıb. Bu rolu Ermənistanın ikinci ən böyük şəhəri olan Gümrünün meri Vardan Qukasyan əldə etməyə çalışırdı. Kamran Bayramovun sözlərinə görə, bu ilin aprel ayında keçirilən yerli seçkilərdə o, hakim "Vətəndaş müqaviləsi" partiyasının namizədini məğlub etdi və ilk mətbuat konfransında iki diqqətçəkən açıqlama verdi: "Birincisi, yeni seçilmiş mer Ermənistanın Rusiya və Belarusun İttifaq Dövlətinə qoşulmasının tərəfdarı olduğunu bildirdi. İkincisi də, o, 2026-cı il parlament seçkilərində iştirak edəcəyinə və baş nazir postu uğrunda mübarizə aparacağına söz verdi. Bu bəyanatlar İrəvanda sükutla qarşılandı, lakin Vardan Qukasyan sonradan rüşvətxorluq ittihamları ilə həbs edildi. Aydındır ki, bu həbs seçkiqabağı təmizlənmənin bir hissəsidir. Seçkilər ərəfəsində hökumət başçısı sadəcə "inzibati resurslardan" istifadə etmir - onun siyasi rəqibləri müntəzəm olaraq həbsxanaya düşürlər. Və bu, təkcə Vardan Qukasyan deyil. Ölkəyə rəhbərlik etməyə iddialı olan ermənəsilli rusiyalı oliqarx Samvel Karapetyan da həbs olunub. Bu onu göstərir ki, N.Paşinyan revanşistləri tam sıradan çıxarmaqda qərarlıdır".

N.Paşinyan informasiya müharibəsi aparmaqla və hüquqi (məhkəmə) tədbirləri həyata keçirməklə ona qarşı fəaliyyət göstərən, tarix boyu işğala rəvac verən, bu gün isə sülhə qarşı çıxan erməni kilsəsinin nümayəndələrinə də hücum etməkdə eyni dərəcədə israrlıdır. Kamran Bayramovun fikrincə, Baş nazir çox güman ki, 2026-cı ilin yayına qədər özünü sürprizlərdən qorumaq niyyətindədir: "Paşinyanın rəqiblərinin ona qarşı daha tez hərəkətə keçəcəyinə dair bir çox gözlənti var. Ermənistanda gücün tətbiqi hələ də gündəmdən çıxmayıb, çünki R.Koçaryanın artıq "çevriliş" təcrübəsi var. Bu mənada Paşinyanın rəqibləri ona qarşı "silahlı yumruq" ata bilərlər. Artıq Ermənistanda İkinci Qarabağ müharibəsi iştirakçılarını anti-Paşinyan korpusuna çevirməyə cəhdlər edilir. Paşinyanın Ermənistan hərbi rəhbərliyi ilə münasibətləri isə əvvəldən mürəkkəb olub. O, Baş nazir olduğu dövrdə dəfələrlə "ordu təmizləmələri" başlatmış və bir neçə generalı həbs etdirmişdi. 44 günlük müharibədən sonra N.Paşinyanın hökuməti hərbi birliklərin komandirlərinə qarşı bir sıra məhkəmə prosesləri təşkil edib, onları səhlənkarlıqda, döyüş mövqelərini tərk etməkdə ittiham edib. Bu isə hərbçilər arasında hiddətə və qəzəbə səbəb olub. Həmçinin hərbçilər arasında çox güclü ruspərəst əhvali-ruhiyyənin olduğunu da qeyd etmək lazımdır".

Kamran Bayramov onu bildirdi ki, bu ssenari sülh prosesinə ciddi risklər yaradır, lakin bu halda itkilərlə ilk növbədə Ermənistanın özü üzləşəcək: "Beləliklə, Ermənistanda parlament seçkilərinə kifayət qədər vaxt olsa da, Nikol Paşinyanı düşündürməli olan məqamlar az deyil. Baş nazir özü də anlayır ki, parlament seçkilərinin nəticələri onun səsləndirəcəyi bəyanatlardan, görəcəyi tədbirlərdən, atdığı addımlardan, yeridəcəyi daxili və xarici siyasətdən birbaşa asılı olacaq".

*Rəşad CƏFƏRLİ,*
*"Azərbaycan"*

# Revanşistlər Ermənistan cəmiyyətindən dəstək ala bilmirlər

Sülh bəşəriyyətə xəstəyə dərman lazım olan qədər gərəkli və dəyərlidir. Sülh əmin-amanlıq, dinc, firavan yaşamaqdır. Sülh cəmiyyətin, dünyanın qorunmasıdır. Və nəhayət, sülh bütün vasitələrdən güclü və qüdrətlidir.



Həmişə sülhün tərəfində olan Azərbaycan da regionda sabitliyə, əmin-amanlığa çalışır. Belə olmasaydı, İkinci Qarabağ müharibəsini Zəfərlə başa vurduqdan sonra məğlub Ermənistana müəyyən şərtlərlə sülh təklif etməzdi. Məhz Azərbaycanın, onun dövlət başçısının səyləri sayəsində danışıqlar başlandı. Çox keçmədi ki, danışıqlar prosesində sülhün əldə olunması üçün müsbət dinamika yarandı. Təəssüflər olsun ki, Azərbaycan-Ermənistan sülh danışıqları müsbət məcrada davam etdiyi bir vaxtda bu prosesi pozmaq istəyən qüvvələr də baş qaldırdı. Müşahidələr göstərir ki, sülh istəməyən belə qüvvələr yalnız Ermənistanın daxilində deyil, xaricində də mövcuddur. Onlar iki ölkənin sülh şəraitində yaşamasını, Cənubi Qafqazda sabitliyin, təhlükəsizliyin təmin olunmasını, kommunikasiyaların, o cümlədən Zəngəzur dəhlizinin (TRIPP) açılmasını istəmirlər və bütün vasitələrlə sülhə əngəl olmağa çalışırlar.

Ermənistanın Baş naziri çıxışlarında bunu özü də açıqaşkar etiraf edib ki, Azərbaycanla sülhü pozmaq istəyən qüvvələr var və onlar həm Ermənistanda, həm də ona yaxınlıqda və uzaqlıqda mövcuddur. Həmin qüvvələr hələ də məsələnin əsl mahiyyətini başa düşmürlər. Nikol Paşinyan avqustun 8-də Vaşinqtonda əldə edilmiş bəyannaməni gözdən salmağa çalışanlara cavab verərək deyib: "Sülh bəyannaməsi imzalandı, onlar dedilər ki, bu, ancaq bəyannamədir. Amma heç kim demir ki, 1994-cü ildən Qarabağ məsələsi ilə bağlı danışıqlar prosesi gedirdi və heç vaxt Qarabağ məsələsi ilə bağlı bəyannamə layihəsindən başqa sənəd layihəsi olmayıb. Bəyannamə bu qədər asan bir şeydirsə, niyə 30 ildir bu dövlətin, xalqın bütün enerjisini, gündəmini sırf həmin bəyannamə üzərində cəmləşdiririk?"

Amma nə olsun, sülhə mane olan revanşist qüvvələr qan qoxulu müharibə fikirlərindən əl çəkmək istəmirlər. Onlar bəzi xarici qüvvələrin dəstəyi ilə Ermənistandakı mövcud hakimiyyəti devirməyə çalışırlar, baxmayaraq ki, xeyli vaxtdır bu çirkin niyyətlərini həyata keçirə bilmirlər. Buna baxmayaraq, siyasi cəhətdən tükənən Sarkisyan-Koçaryan cütlüyü məqsədlərindən əl çəkmirlər. Erməni cəmiyyətinə ötürmək istəyirlər ki, guya Azərbaycanla Ermənistan arasında sülh əldə olunsa, bu, Ermənistanın məhvinə gətirib çıxaracaq. Bu sərsəm ideyanın təbliği üçün siyasi cəhətdən savadsız gənclərdən, Qarabağdan könüllü köçən ermənilərdən və kilsənin xidmətlərindən yararlanırlar. Amma nə qədər dəridən-qabəqdan çıxsalar da, cəmiyyətdən istədikləri dəstəyi ala bilmirlər. Çünki artıq erməni xalqı müharibədən, münaqişədən bezib. Övladlarının heç vaxt onların olmamış və heç vaxt da olmayacaq torpaqlarda ölməsini istəmirlər. Ona görə də müharibə, qarşıdurma tərəfdarı olan revanşistlərin arxalarınca getmirlər.

Belə bir şəraitdə N.Paşinyan 2026-cı il parlament seçkilərində xalqın sülh tərəfdarı olacağına ümid edir. Ona görə də seçkilərin əsas məqsədinin məhz sülhyönümlü seçim olduğunu bildirir. Çıxışlarından, bəyanatlarından aydın görünən odur ki, Nikol Paşinyanın strategiyası Azərbaycanla sülhə nail olmaqdır. O, ölkəsinin gələcəyini qonşularla sülhdə, əmin-amanlıqda görür. Elə qarşıdakı seçkilərə də bu proqramla, bu məqsədlə gedir. Onun seçki kampaniyası da məhz bu istiqamətə köklənib. Azərbaycanla tranzit əlaqələrində məhdudiyyətlərin aradan qaldırılması Nikol Paşinyanın mövqelərini əhəmiyyətli dərəcədə gücləndirir. Müşahidəçilər ümid edirlər ki, Paşinyanın Azərbaycanla sülh müstəvisində həyata keçirdiyi siyasət xalqın ona dəstəyini daha da artıracaq.

N.Paşinyan bu günlər parlamentdə 2026-cı il büdcəsinin müzakirəsi zamanı Azərbaycanla münasibətlərin normallaşması məsələsinə toxunub. Baş nazir deyib ki, sülh Ermənistan üçün tanış olmayan məfhumdur. "Biz sülhün Ermənistan üçün naməlum məfhum olduğunu qəbul etməliyik. Çünki ölkə müstəqilliyinin ilk günlərindən münaqişə vəziyyətindədir..." Bir müddət əvvəl isə Ermənistan hökumətinin başçısı məktəblilər və tələbələrlə söhbətində "əsl Ermənistan" ideologiyasını "böyük Ermənistan" ideologiyası ilə müqayisə edib və ölkənin iqtisadi inkişafı naminə xam xəyallardan imtinanın zəruriliyindən danışıb.

Hazırda Ermənistanda hakimiyyətə qarşı çıxan iki qüvvə var. Biri Qarabağdan gedən ermənilərdir. Bu, onların faşist düşüncə təbliğatına uymaları ilə əlaqədardır. Sülh prosesinə əngəl olmaq istəyən ikinci qüvvə isə erməni kilsəsidir. Ermənistanda din dövlətdən ayrı olmadığına görə büdcədən maliyyələşir. Üstəlik, ictimai fikrin formalaşmasında kilsənin təsiri böyükdür. Onu da qeyd edək ki, Eçmiədzinin rəhbəri II Qareginin bu mübarizədə bəlkə də birinci hədəfi Paşinyanı devirməkdir. Hələ 2018-ci ilin may ayında siyasi hakimiyyətə gələn Paşinyan II Qaregini qəbul etməyib. Buna səbəb baş keşişin hakimiyyətin işinə qarışması olub. Ona görə də bu gün II Qaregin oyundan kənarda qalıb, çıxılmaz duruma düşüb. Amma o, tək deyil. Açıq siyasi mübarizə formasına keçən keşişlər dəstəsi son zamanlar revanşistlərin təşkil etdiyi etiraz mitinqlərinin önündə gedirlər.

Son günlərin hadisələri göstərdi ki, hakimiyyət də boş dayanmır, ölkədə sabitliyi qorumaq üçün revanşistlərə və onları dəstəkləyən qüvvələrə qarşı mübarizə aparır, dağıdıcı Eçmiədzini islah etmək üçün zəruri addımlar atır. Artıq Eçmiədzinin 10-dan çox təmsilçisi həbs olunub. Hakimiyyətə qarşı nifrətə köklənən II Qaregin belə vəziyyətdə maskalanaraq özünü xalqın xilaskarı kimi göstərməyə çalışır, hakimiyyətdən narazı qüvvələrin sırasında addımlayır. Təbii ki, revanşistlərə rəhbərlik edən Sarkisyan-Koçaryan cütlüyü də bundan istifadə etməyə çalışır.

Hadisələrin gərgin gedişindən göründüyü kimi, Ermənistan hökumətini və erməni xalqını qarşıda ciddi sınaqlar gözləyir. Uzun illərin gərginliyindən canını qurtarmış erməni xalqı yeni bir yola çıxıb. Bu yolda düşmənçilik, qarşıdırma, qan-qada yoxdur, atəş səsləri eşidilmir. Gediləcək bu yol onları sülh mərhələsindən keçirərək qonşuluğa və əməkdaşlığa aparıb çıxaracaq.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

## ZƏFƏR gündəliyi

5 noyabr 2020-ci il

### Düşmən bütün cəbhələrdə itkilər verərək geri çəkilib

**Noyabrın 5-nə keçən gecə Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində Azərbaycan Ordusu bölmələrinin mövqelərini və yaşayış məntəqələrimizi müxtəlif atıcı silahlar, top və minaatanlardan atəşə tutub.**



Döyüş əməliyyatları müxtəlif intensivlikdə əsasən cəbhənin Ağdərə və Xocavənd istiqamətlərində davam edib. Düşmən cəbhənin bəzi sahələrində şəxsi heyət və hərbi texnikada itkilər verərək geri çəkilməyə məcbur edilib.

#### Goranboy, Tərtər və Ağcabədiyə mərmi atılıb

Səhər saatlarınadək Goranboy və Tərtər rayonlarının yaşayış məntəqələri Ermənistan silahlı qüvvələrinin bölmələri tərəfindən fasilələrlə atəşə tutulub.

Səhər saat 07:50-də Ağcabədi rayonunun Qiyaməddinli kəndinə düşmən tərəfindən 4 ədəd mərmi atılıb.

#### Ağdam istiqamətində düşmənin xeyli sayda sursatı partladılıb



Cəbhənin Ağdam istiqamətində gedən döyüşlərdə Azərbaycan Ordusunun bölmələri tərəfindən Ermənistan silahlı qüvvələrinin 41-ci artilleriya alayının batareyalarına atəşlə zərər vurulub. Nəticədə şəxsi heyət arasında ölən və yaralananlar olub.

Atəş zərbəsi ilə düşmənin xeyli sayda sursatı partladılıb, artilleriya qurğuları tam sıradan çıxarılıb.

Saat 14:40-dan başlayaraq Ermənistan silahlı qüvvələrinin bölmələri Tərtər şəhərini, rayonun Səhləabad kəndini, eləcə də Ağdam rayonunun Hacıturallı və Əfətli kəndlərini artilleriya atəşinə tutublar.

Azərbaycan Ordusunun bölmələri tərəfindən düşmənin atəş nöqtələrinə qarşı cavab tədbirləri görülüb.

#### Erməni əsgəri silah-sursatını, texnikasını qoyub qaçıb



Ermənistan silahlı qüvvələri döyüş meydanında silah-sursatını, texnikasını qoyub qaçıblar. Müdafiə Nazirliyi qənimət olaraq ələ keçirilən hərbi texnikaların görüntüsünü yayıb.

#### Düşmənin 7-ci dağatıcı alayının qərargahı darmadağın edilib

Cəbhənin Tərtər istiqamətində Azərbaycan Ordusunun bölmələri tərəfindən həyata keçirilən əməliyyat nəticəsində düşmənin hərbi infrastrukturuna ciddi ziyan vurulub.

Düşmənə endirilən artilleriya zərbələri ilə Ermənistan silahlı qüvvələrinin 10-cu dağatıcı diviziyasının Tonaşen kəndində yerləşən 7-ci dağatıcı alayının qərargahı, əsgər kazarmaları, sursatla dolu avtomobil texnikaları və digər hərbi infrastrukturu məhv edilib.

#### Erməni hərbçilərin diversiya cəhdlərinin qarşısı qətiyyətlə alınıb

Müdafiə Nazirliyinin Mətbuat xidmətinin rəhbəri, polkovnik-leytenant Anar Eyvazov Hərbi İnformasiya Mərkəzində brifinq keçirərək cəbhədəki son vəziyyətlə bağlı məlumat verib.

Qeyd edilib ki, Ağdərə və Xocavənd istiqamətlərində davam edən döyüşlərdə düşmənin hücumları, Ermənistan-Azərbaycan dövlət sərhədinin Zəngilan rayonu hissəsində isə diversiya cəhdlərinin qarşısı qətiyyətlə alınıb. Ali Baş Komandanın rəhbərliyi ilə aparılan əks-hücum əməliyyatı nəticəsində məğlubiyyətə məhkum edilmiş Ermənistan çıxış yolunu yenə də yanlış olaraq dezinformasiya və feyk məlumatlar yaymaqda görüb. Azərbaycan Müdafiə Nazirliyi ordumuzun uğurları barədə döyüş meydanında müasir avadanlıqlarla çəkilmiş foto və videogörüntülər əsasında məlumat çatdırıb. Bütün videotəsvirlərdə aydın şəkildə görünüb ki, Azərbaycan Ordusu yaşayış məntəqələri və mülki infrastrukturu atəşə tutmayıb, dəqiq zərbələrlə yalnız legitim hərbi hədəfləri məhv edib.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*



# AZƏRBAYCANIN ŞƏRƏF VƏ QÜRUR TARİXİ

## ŞANLI ZƏFƏR - 5 İL

# Milli iradənin və birlik ruhunun təntənəsi

Şanlı Azərbaycan Ordusu Müzəffər Ali Baş Komandan İlham Əliyevin sərkərdəliyi altında tarixinin ən qürurlu səhifələrindən birini, 2020-ci ilin 8 Noyabrında Zəfər Gününü yazdı. Həmin gün yalnız torpaqlarımızın azad olunmasının deyil, bütövlükdə bir xalqın milli iradəsinin, dövlətçilik əzminin və birlik ruhunun təntənəsinin sevincini yaşadıq. Bu Zəfərin kökündə xalqın birliyi, ordumuzun, zabit və əsgərlərinmizin qəhrəmanlığı və ən əsası, müdrik rəhbərimizin, əvəzsiz Liderimizin qətiyyəti dayanır.



Ulu Öndər Heydər Əliyev ötən əsrin 90-cı illərində Azərbaycan dövlətçiliyinin möhkəmlənməsi, ordu quruculuğu və gənc nəsildə vətənpərvərlik hissinin formalaşması üçün möhkəm təməl yaratmışdı. Ümummilli Liderin "Mən fəxr edirəm ki, azərbaycanlıyam!" kimi qiymətli kəlamı bu gün hər bir vətəndaşın, xüsusilə gənclərin həyat amalına çevrilib. Ulu Öndərin müəyyən etdiyi milli inkişaf strategiyası müasir Azərbaycanın bütün uğurlarının bünövrəsidir. O dövrdə yaradılmış güclü dövlət idarəçiliyi, iqtisadi inkişaf, ordu quruculuğu və sabitlik 2020-ci ilin Zəfərinə aparan yolun başlanğıcı oldu.

Bu gün müstəqil Azərbaycanın tarixində Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin adı Zəfərlə bir sırada çəkilir. Dövlət başçısının hərtərəfli düşünülmüş, uzaqgörən siyasəti, diplomatik çevikliyi və xalqla sarsılmaz birliyi nəticəsində Azərbaycan 30 ilə yaxın davam edən işğala son qoydu. Prezident İlham Əliyev təkcə müharibənin davam etdiyi günlərdə deyil, sülh dövründə də ölkənin gələcəyini təmin edən əsas istiqamətləri müəyyənləşdirmiş, ordu quruculuğu, davamlı iqtisadi inkişaf, elm və təhsilin yüksəlişi üçün lazımi qərarlar qəbul etmişdir. Dövlət başçısının rəhbərliyi ilə aparılan təhsil islahatları qısa müddət ərzində Azərbaycan məktəblərini yeni inkişaf mərhələsinə yüksəltmişdi. Bu gün ölkəmizdə təhsil sahəsində uğurla həyata keçirilən möhtəşəm layihələr - müasir məktəblərin tikilməsi, müəllim əməyinin stimullaşdırılması, rəqəmsal təhsilin genişləndirilməsi, beynəlxalq proqramlara inteqrasiya gələcək nailiyyətlərin təminatıdır. Təhsil sahəsinə göstərilən dövlət qayğısı, xüsusilə gənc nəslin milli ruhda yetişməsi, vətənpərvərlik tərbiyəsi alması, Vətənə sədaqətli və savadlı vətəndaş kimi hazırlanması Azərbaycanın gələcəyini daha da möhkəmləndirir, xalqımızı yeni-yeni uğurlara qovuşdurur.

Bu gün bütün təhsil müəssisələrində Zəfər Gününün əzəməti, qüruru yaşanır. Məktəblərdə, liseylərdə, ali təhsil ocaqlarında keçirilən tədbirlər, vətənpərvərlik dərsləri və layihələr gənc nəslin yaddaşında şərəfli tarixi əbədi yaşadır. Təhsil işçiləri olaraq, bizim üçün Zəfər Günü sadəcə bayram deyil, o həm də tərbiyə və qürur mənbəyidir. Şagirdlərə, tələbələrə bu qələbənin necə böyük əzm, birlik və dövlət sevgisi ilə əldə olunduğunu anlatmaq, onları Vətənə sevgi ruhunda tərbiyə etmək biz müəllimlərin ən şərəfli borcudur. Azərbaycan bu gün regionda söz sahibidir, ən güclü, nüfuzlu dövlətlərdən biridir. Bu gücün mənbəyi xalqın birliyində, dövlət başçısının qətiyyətindədir. Zəfər Günü bizə öyrədir ki, xalq öz liderinə, dövlətinə və şanlı ordusuna inandıqca heç bir qüvvə onun qarşısında dayana bilməz. Biz təhsil işçiləri bu amalla, bu məqsədlə gələcəyin Zəfər sahiblərini - savadlı, milli düşüncəli və vətənpərvər gənclərini hazırlamağa davam edirik.

İkinci Qarabağ müharibəsində Azərbaycanın erməni işğalçıları üzərində qələbəsini ölkəmizin iqtisadi gücü, qüdrəti, ordusu, xalq və iqtidar birliyi təmin etdi. Qələbənin əldə olunmasında xüsusilə xalqımızın Prezident İlham Əliyevin siyasətini dəstəkləməsi, ölkəmizdə milli birliyin mövcudluğu əsas amillərdən biri oldu.

Dövlət başçısının qətiyyəti və sarsılmaz iradəsi nəticəsində ötən dövr ərzində işğalçı Ermənistan bütün regional layihələrdən kənarda saxlanıldı. Bu, Azərbaycan dövlətinin və onun Prezidenti İlham Əliyevin prinsipial mövqeyinin nəticəsidir. Bununla da iqtisadi cəhətdən zəifləyən Ermənistan sosial-iqtisadi böhranın məngənəsində sıxıla-sıxıla qaldı. Bütün bu amillər nəticəsində 44 günlük Vətən müharibəsində rəşadətli Azərbaycan Ordusu Ermənistan silahlı qüvvələrini darmadağın etdi. Arxalandığı havadarlarından aldığı silahlar da Ermənistana kömək edə bilmədi. Azərbaycan xalqı çoxdan gözlədiyi qələbənin sevincini yaşadı. Bu sevinci xalqımıza qəhrəman zabit və əsgərlərimiz yaşatdılar.

Zəfər Günü - Azərbaycan xalqının mübarizliyinin, dövlət başçısının uzaqgörən siyasətinin və Ulu Öndər ideyalarının təntənəsi və qələbəsidir. Bu gün həm də təhsil işçilərinin məsuliyyət günüdür. Çünki Zəfəri qorumağın ən etibarlı yolu onu çiyinlərində daşıya-daşıya nəsildən-nəslə ötürməkdir. Biz təhsil işçiləri həmişə bu məsuliyyətli və müqəddəs işin öhdəsindən bacarıqla gəlməyə çalışacağıq.

***Gülnarə ƏLİYEVA,***
***Bərdə şəhər E.Kərimov adına 4 nömrəli tam orta məktəbin direktoru***

# Ədalətli müharibənin möhtəşəm zəfəri

Azərbaycan xalqı, bütün dünya azərbaycanlıları 44 günlük Zəfərin 5-ci ildönümünü bayram edir. Hər gününü sonsuz ümidlə, həyəcanla, sevinc və göz yaşları ilə yaşadığımız möhtəşəm 44 gün! İndi həmin günləri qürur və fərəh hissi ilə xatırlayırıq. 44 günün hər günü xalqımızın şanlı tarixidir.



2020-ci il sentyabrın 27-də, Vətən müharibəsi başladığı həmin gündə dövlətimizin başçısı xalqa ilk müraciətini bu sözlərlə bitirdi: "Bizim işimiz haqq işidir. Biz Zəfər çalacağıq!" Hələ 2003-cü ildə Ümummilli Lider Heydər Əliyev Azərbaycan xalqına müraciət edərək özünün siyasi varisi İlham Əliyevə dəstək göstərməyə çağırış etmişdi. Özü qədər inandığı və gələcəyinə böyük ümidlər bəslədiyi Ulu Öndər əmin idi ki, onun sona çatdıra bilmədiyi taleyüklü məsələləri, işləri xalqın köməyi və dəstəyi ilə İlham Əliyev başa çatdıracaq.

Tarix bu fikirlərin nə qədər doğru olduğunu sübut etdi. İllər əvvəl Ulu Öndərin əminliyi bu gün milyonlarla azərbaycanlının sarsılmaz inamına çevrildi. Hərbi-siyasi qələbə ilə bitən Vətən savaşı ilk növbədə bütün dünyaya Müzəffər Ali Baş Komandan İlham Əliyevin yüksək sərkərdəlik qüdrətini nümayiş etdirmiş oldu. Bu gün Azərbaycan ən yüksək zirvələri fəth etməklə Heydər Əliyevin görmək istədiyi Azərbaycandır. Ərazi bütövlüyümüzün, suverenliyimizin bərpa olunması Prezident İlham Əliyev siyasətinin şah əsəridir. Azərbaycan dövlətinin müstəqil varlığı Ulu Öndərin sayəsində mümkün olubsa, son 200 ildə itirilən torpaqlarımızın qaytarılması, ərazi bütövlüyümüzün təmin edilməsində qazandığımız Zəfər Müzəffər Ali Baş Komandanın ardıcıl, məqsədyönlü siyasəti və uğurlu diplomatiyası sayəsində reallaşmışdır. Məhz İlham Əliyevin yüksək sərkərdəlik məharəti və qəhrəman əsgərlərimizin igidliyi nəticəsində xalqımız birlik göstərdi və tarixi ədaləti bərpa etdi.

Azərbaycan heç bir beynəlxalq norma və prinsipləri pozmadan, humanizm göstərərək ləyaqətli müharibə apardı. Biz həm də dünyaya yeni humanizm prinsiplərini aşıladıq. Ermənistanın dinc əhaliyə qarşı törətdiyi hərbi terrora cavabımız yalnız döyüş meydanında oldu.

2018-ci ildə Ermənistanda hakimiyyətə gəlmiş Nikol Paşinyanın "Qarabağ Ermənistandır və nöqtə" kimi populist bəyanatları, Azərbaycanın işğal olunmuş ərazilərinə ardıcıl qanunsuz səfərləri kimi təxribatçı xarakter daşıyan hərəkətləri və bu təxribatçı əməllərin davamı qismində 2019-cu ilin mart ayında Ermənistanın müdafiə naziri David Tonoyanın ABŞ-də rəsmi səfərdə olarkən "yeni torpaqlar üçün yeni müharibə" çağırışı münaqişənin sülh yolu ilə həlli imkanlarını sarsıtdı. 2020-ci il iyulun 12-də Ermənistan-Azərbaycan dövlət sərhədinin Tovuz istiqamətində təxribat törətməsi, qoşunların təmas xəttində gərginliyi artırması, cəbhə xəttinə yaxın ərazilərdə qoşunlarını cəmləşdirməsi, böyük həcmdə silah-sursat toplaması Ermənistanın genişmiqyaslı hücuma hazırlaşdığını göstərirdi. Azərbaycan dəfələrlə bəyan etmişdi ki, Ermənistan qoşunlarının işğal olunmuş ərazilərdə qanunsuz mövcudluğu regionda sülh və təhlükəsizlik üçün əsas təhdiddir və hər zaman vəziyyətin gərginləşməsinə səbəb ola bilər.

Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusu Ermənistanın ardıcıl təxribatlarının və yeni işğal planlarının qarşısını almaq, işğal altında olan torpaqlarımızı azad etmək üçün 2020-ci il sentyabrın 27-də başladığı zəfər yürüşündə inanılmaz uğurlar əldə etdi. 44 gün sürən hərbi əməliyyatlar nəticəsində Azərbaycan Ordusu tərəfindən Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı şəhərləri, ümumilikdə 300-dən çox yaşayış məntəqəsi işğaldan azad olundu. Noyabrın 8-də Azərbaycan xalqı üçün müqəddəs şəhər sayılan Şuşa işğaldan azad edildi. Qarabağın tacı olan Şuşanın azad edilməsi dünya hərb tarixinə düşəcək unikal hərbi əməliyyat idi. Azərbaycanın hərbi sahədə qazandığı qələbələr, xüsusilə Şuşanın düşmən işğalından qurtulması müharibənin taleyində həlledici rol oynadı. Bütün bunlar Ermənistanın öz məğlubiyyətini etiraf etməsi və kapitulyasiyası ilə nəticələndi.

Prezident İlham Əliyevin 2020-ci il 3 dekabr tarixli sərancamı ilə xalqımızın qüdrətinin və milli qürurumuzun təntənəsinə çevrilən, dövlətimizin nüfuzu və gələcək inkişafı baxımından müstəsna əhəmiyyət kəsb edən bu misilsiz qələbənin əbədiləşdirilməsi məqsədilə hər il noyabrın 8-i Azərbaycanda Zəfər Günü kimi qeyd olunur. Məhz həmin gün Prezident, Ali Baş Komandan İlham Əliyevin ətrafında birləşən xalqımızın və ordumuzun gücü ilə Vətən müharibəsi Zəfərlə sona çatmışdı. Son ikiəsrlik tarixin heç bir dönəmində, dünyanın heç bir ölkəsində görünməyən nadir bir hadisə - işğal edilmiş torpaqların hərb yolu ilə geri qaytarılması baş vermişdi. Dövlətçilik tariximizin Müstəqilliyin Bərpası, Dövlət Bayrağı və Milli Dirçəliş günləri kimi şərəf salnamələri sırasına ən möhtəşəmi, hər xalqa nəsib olmayan yeni əlamətdar tarixi gün - Zəfər Günü yazılmışdı.

Bu gün bütün Azərbaycanda bayrağımız qürurla dalğalanır. Suverenliyini tam təmin etmiş Azərbaycan Prezident İlham Əliyevlə daha möhtəşəm zəfərlərə doğru inamla addımlayır.

***Günel CƏFƏROVA,***
***Mərkəzi Aran Regional Mədəniyyət İdarəsinin Yevlax şəhər nümayəndəsi***

# "Vətən müharibəsi qəhrəmanları ilə bir gün"






Neftçalada "Konstitusiya və Suverenlik İli" çərçivəsində 8 Noyabr - Zəfər Gününün 5-ci ildönümü münasibətilə rayon icra hakimiyyəti və Şirvan-Salyan Regional Təhsil İdarəsinin Neftçala rayonu üzrə Təhsil sektorunun birgə təşkilatçılığı ilə şəhid ailəsi üzvləri və Vətən müharibəsi iştirakçıları ilə yeniyetmə və gənclərin "Vətən müharibəsi qəhrəmanları ilə bir gün" adlı tədbir keçirilib.

Yuxarı Qaramanlı kənd tam orta ümumtəhsil məktəbində təşkil olunan tədbirdə rayon icra hakimiyyətinin məsul işçiləri, şəhid ailəsi üzvləri, Vətən müharibəsi iştirakçıları, yeniyetmə və gənclər, təhsil ictimaiyyəti iştirak ediblər.

Çıxış edənlər qeyd ediblər ki, 8 Noyabr - Zəfər Günü xalqımızın şanlı tarixinin ən parlaq səhifələrindən biridir. 44 günlük Vətən müharibəsi xalqımızın sarsılmaz iradəsini, Vətənə sonsuz sevgisini bir daha nümayiş etdirdi. Şəhidlərimizin canı, qazilərimizin və müharibədə döyüşə atılan bütün əsgərlərimizin fədakarlığı hesabına əldə edilən bu qələbə hər bir azərbaycanlının qəlbində qürur və iftixar hissi yaradır. Müstəqil Azərbaycan gəncliyinin əsas vəzifəsi bu müqəddəs tarixi unutmamaq, dövlətinə, torpağına və bayrağına sədaqətlə xidmət etməkdir. Qeyd olunub ki, bu gün hər bir azərbaycanlının borcu şəhidlərin canı bahasına azad edilən torpaqlarda həyatın yenidən canlanması, dövlətimizin güclənməsi və üçrəngli bayrağımızın daim ucalarda dalğalanması üçün çalışmaqdır.

Sonda məktəblilər şəhidlərin xatirəsinə həsr olunmuş şeir və musiqi kompozisiyaları ilə çıxış ediblər.

❖ ❖ ❖

Ağstafada da keçirilən eyniadlı tədbiri giriş sözü ilə rayon icra hakimiyyətinin başçısı Seymur Orucov açıb.

Bildirilib ki, 8 Noyabr - Zəfər Günü Ümummilli Lider Heydər Əliyevin ölkəmizin tərəqqisi, xalqımızın xoşbəxt, firavan gələcəyinə hesablanmış müdrik və uzaqgörən siyasətinin təntənəsidir: "Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin suverenliyi və azadlığı uğrunda ordumuzun sıralarında ağstafalı gənclər də böyük rəşadət göstərmişlər. Qazilərimiz və müharibə veteranlarının iştirakı ilə təşkil olunan görüşlər, tədbirlər tək gənclərimiz üçün deyil, hər kəs üçün əsl qəhrəmanlıq nümunəsi, Vətənə, xalqa, müqəddəs bayrağımıza bəslənilən sonsuz məhəbbətin təcəssümüdür".

Sonra Vətən müharibəsi qazisi Fərid Əsgərov çıxış edərək ölkəmizin azadlığı uğrunda keçdiyi döyüş yolundan xatirələrini bölüşüb və şəhid ailələrinin üzvlərinə və müharibə iştirakçılarına dövlətimizin göstərdiyi yüksək qayğıdan söz açıb.

***"Azərbaycan"***

# "Zəfərin 5 ili - qürur və şərəf salnaməmiz"dir



Tovuz Şəhər İcra Hakimiyyətində "Zəfərin 5 ili - qürur və şərəf salnaməmiz" mövzusunda konfrans keçirilmişdir. Tədbir iştirakçıları Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət etdikdən sonra şəhidlərimizin xatirəsini birdəqiqəlik sükutla yad etmişlər.

Tədbiri giriş sözü ilə rayon icra hakimiyyətinin başçısı Məmməd Məmmədov açaraq qeyd etmişdir ki, 2020-ci il sentyabrın 27-də başlanan və 44 gün davam edən Vətən müharibəsi xalqımızın öz torpaqları uğrunda apardığı mübarizənin zirvəsi oldu: "Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu xalqımızın dəstəyi ilə 30 il işğal altında qalmış torpaqlarımızı azad etdi. Savaşda tovuzlular da qəhrəmancasına döyüşərək, əsl igidlik nümunəsi göstərdilər. Bu yolda şəhidlik zirvəsinə ucalanlar, qazi olanlar oldu. Onların bu qəhrəmanlığı Müzəffər Ali Baş Komandan tərəfindən layiqincə qiymətləndirildi. Tovuzlu 2 gənc Vətən Müharibəsi Qəhrəmanı fəxri adına layiq görüldü. Vətən müharibəsində qəhrəmanlıq göstərən çoxsaylı əsgərlər orden və medallarla təltif edildilər".

Qarabağ və Şərqi Zəngəzurda genişmiqyaslı bərpa və quruculuq işlərinin sürətlə davam etdiyini deyən rayon icra hakimiyyətinin başçısı bildirdi ki, hazırda "Böyük qayıdış" proqramı çərçivəsində yollar, körpülər, yaşayış kompleksləri, məktəblər və sosial obyektlər inşa olunur: "Artıq minlərlə ailə doğma yurduna qayıtmışdır. Yaxın illərdə daha on minlərlə vətəndaşın da köçürülməsi planlaşdırılır. Dövlət bu işləri yalnız öz gücü ilə həyata keçirir ki, bu da Azərbaycanın iqtisadi qüdrətinin göstəricisidir".

Digər çıxış edənlər də 44 günlük Vətən müharibəsində qazanılan möhtəşəm Zəfəri Azərbaycan xalqının birliyinin, igidliyinin və milli ruhunun təntənəsi adlandırdılar.

Sonda Zəfər salnaməmizdən və işğaldan azad olunmuş ərazilərdə həyata keçirilən yenidənqurma və bərpa işlərindən bəhs edən videoçarx nümayiş olundu.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# Bir şərəfli tarixin min anı

Hər bir xalqın yaddaşında tarixlə müasirlik arasında görünməz körpü salan anlar var. Dünyanın səs-küyü içində kiminsə kadra köçürdüyü bir foto bəzən hansısa hadisə haqqında məlumat verir. Əsl sənətkarın çəkdiyi kadr isə həm də bir tarix olur. Məhz buna görə də fotoqraf yalnız şəkilçəkən deyil, həm zamanın şahidi, həm də cəmiyyətin yaddaşını yazan salnaməçidir.















Biz bu yazıda məhz belə bir sənətkarın - çəkdiyi hər kadrla gerçəkliyi göstərməyi bacaran tanınmış bir fotoqrafın həyat və yaradıcılıq yoluna nəzər salacağıq. Onun kamerası təkcə anları dondurmayıb, həm də zamanın ritmini, insan talelərini, torpağın nəfəsini və həyatın ahəngini yaddaşımıza hopdurub. Zaman tarixin anlarını unutsa da, fotoqrafın çəkdiyi kadrlar əbədi qalır.

Rafiq Bağırovun aparatı illərin səsinin, günlərin nəfəsinin şahidi olub. Rafiq müəllim gördüklərini sadəcə lentə köçürməyib, öz ruhuna hopdurub, zamanın yaddaşına yazıb. Ulu Öndər Heydər Əliyevlə birgə keçdiyi yol, iştirakçısı olduğu hər görüş, hər səfər, hər baxış bu gün artıq tarixi salnamədir. Biz o şəkillərə baxanda təkcə bir anı yox, bütöv bir dövrü, talelərin acısını, insanların ümidini, Vətənin keçdiyi çətin, keşməkeşli yolu yenidən yaşayırıq. Rafiq Bağırovun kadrlarında gizlənən ən böyük sirr onun gözün görmədiyini hiss etməsi, hiss etdiyini isə əbədiləşdirməyi bacarmasıdır. Buna görədir ki, onun fotoları sadəcə şəkil deyil - yaddaşın özü, tariximizin nəfəsidir. Çəkdiyi hər bir foto sanki dil açıb dövrün tarixini danışır.

R.Bağırov Ulu Öndərlə işlədiyi illəri ömrünün ən yaddaqalan dövrü hesab edir. Həmin illər çəkdiyi kadrlar bizi o ağır və şərəfli günlərə qaytarır. Heydər Əliyevin hansı yolları keçdiyini, xalqına necə qayğı göstərdiyini, qaçqınların yoxsul daxmalarına gedib onların həyat şəraiti ilə şəxsən tanış olduğunu, daha sonra bu şəraiti yaxşılaşdırmaq üçün gecə-gündüz çalışdığını həmin kadrlara baxdıqca aydın hiss etmək olur. Bu fotolar həm də bizi həmin dövrün çətinliklərinin, faciələrinin canlı şahidinə çevirir. Onlara baxanda bir daha dərdi də, nisgili də, ümidi də, inamı da görmək olur. Fotodakı balaca oğlan uşağının heyrətli baxışlarında fərəh, ümid, işıq aydınca görünür. Qadının baxışlarında isə məşəqqətin izləri açıq-aşkar sezilir. Ulu Öndərin onların komasına gəlişi bu insanların gözündə bir ümid işığı yandırır, inam yaradır, bu inamla da Böyük qayıdışa cığır açılır. Zaman keçəcək, bu inam bir işığa, o işıqsa bir yumruğa çevriləcək. Xalq bu yumruğun ətrafında birləşərək qaranlığı aydınlaşdıracaq, işğala son qoyacaq.

Ulu Öndərin yaratdığı möhtəşəm tarixin canlı şahidi Rafiq Bağırov deyir ki, çox xoşbəxtdir ki, Heydər Əliyev kimi dahi bir şəxsiyyətlə işləyib: "Fotoqraflıq dərsini də ondan almışam. Həqiqətən, Ulu Öndər hər sahənin mükəmməl bilicisi idi. O elə bir şəxsiyyət idi ki, rəssama rəssamlıq, memara memarlıq dərsi keçə bilərdi. Ulu Öndərin Azərbaycan teatrına, incəsənətinə xüsusi diqqət verdiyi məlumdur. Dəfələrlə şahidi olmuşam ki, tamaşalardan, konsertlərdən sonra səhnəyə qalxaraq incəsənət xadimləri ilə söhbət zamanı elə təhlil aparardı ki, peşəkar sənətşünaslar, böyük sənət adamları belə təəccüblənirdilər. Heydər Əliyevin qaçqın düşərgələrindəki görüşlərdə keçirdiyi hisslərin, çəkdiyi ürək ağrılarının, yaşadığı əzabların şahidi olmuşam. Çalışmışam ki, onları kadrlara köçürüm. Xoşbəxtəm ki, bunlara az da olsa nail olmuşam. Heydər Əliyev yalnız qaçqınlarla görüşdüyü məqamda yox, onlardan ayrılandan sonra da gördüklərinin təsirindən çıxa bilmirdi, onlarla yaşayırdı. Gecəsini gündüzünə qatıb köçkünlərimizin həyat şəraitini yaxşılaşdırmağa çalışırdı. Bəzən elə olurdu ki, gecəni səhərə qədər işdə keçirərdi".

Hiss olunur ki, Ulu Öndərin qaçqın düşərgələrində keçirdiyi hər görüş Rafiq Bağırovun yaddaşına ağrı kimi həkk olunub. Bəlkə buna görə arzularından biri də odur ki, işğaldan azad olunan ərazilərdə çəkdiyi fotolardan ibarət sərgi təşkil edilsin. Bu fotolar insanlara keçmişi, yaşanmış həqiqətləri xatırlatsın.

R.Bağırovun ömür-gün yoldaşı, rəssam Nigar Bağırova ilə söhbət edirik:

- Rafiqin fotolarında qəhrəman heç vaxt tək olmur - o hər bir insanın baxışında, hər bir uşağın təbəssümündə, hər bir qocanın iztirabında bütöv bir dövrün ruhunu yaradır. Mən bir rəssam və fotoqraf kimi deyə bilərəm ki, Rafiq çox yüksək səviyyədə öz işini görən insanlardandır. O, sadəcə foto çəkməklə kifayətlənmir, çəkdiyinə kompozisiya verməyi də bacarır. Belə bir deyim var: "Ovu bərəsində vurarlar". Rafiq ovu bərəsində "vurmağı", yəni lazım olan anı "ovlamağı" bacaran, işinin mahir ustasıdır. Sizə bir həqiqəti deyim. Rəssam üçün Ulu Öndərin portretini yaratmaq olduqca çətin işdir. Rəssam çəkdiyi əsərdə qəhrəmanın daxili aləmini, hissini, duyğusunu canlandıra bilmirsə, o əsər zahiri cəhətdən nə qədər yaxşı olsa da, tamaşaçını duyğulandırmayacaq, yaddaşlarda qalmayacaq. Xoşbəxtəm ki, mən bunu bacarmışam. Özü də Rafiqin sayəsində. Onun çəkdiyi fotolara baxıb lazım olan ən incə məqamları tutmağa çalışmışam.

Gözümüzün önündə bir foto var. Fotoda anasının qucağında kiçik bir qızcığazın Ulu Öndərə tuşlanan ümid dolu məsum gözləri görünür. İndi həmin uşaq 28 yaşlı xanımdır. Bu günlər Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin Rafiq Bağırovun çəkdiyi şəkillərdən ibarət təşkil etdiyi sərgidə onunla - Səma Məmmədova ilə həmsöhbət olduq:"Valideynlərim Cəbrayılın Böyük Mərcanlı kəndindəndir. 1997-ci ildə 4 saylı çadır şəhərciyində anadan olmuşam. 1998-ci ildə Heydər Əliyev məcburi köçkünlərlə görüşə gələrkən bizim evimizdə də oldu. O zaman bir yaşım vardı. Ulu Öndər və daha sonra Prezident İlham Əliyev biz köçkünlərə daim qayğı ilə yanaşıb. Anam deyir ki, biz Böyük Mərcanlıdan çıxanda nəinki doğma yurdumuza qayıdacağımıza, hətta yaşayacağımıza, sabaha sağ çıxacağımıza ümidimiz yox idi! Çox şükür ki, o məşəqqətli günləri adlayıb belə xoşbəxt həyatda yaşamaq bizlərə nəsib oldu. Torpaqlarımız abadlaşır. Hər gün qaçqınlar doğma yurdlarına dönür. Vətənimiz sülhün, əmin-amanlığın ünvanıdır. Rafiq müəllimin çəkdiyi həmin fotolar bizə yaxın keçmişimizin əzablı tarixini danışır. Danışır ki, həmin tarixi heç zaman unutmayaq.

"Azərbaycan" qəzetinin baş redaktoru, Əməkdar jurnalist Bəxtiyar Sadıqov da həmin sərgidə idi. Rafiq Bağırovu çoxdan tanıyır. Dostdurlar. Deyir ki, Rafiq Bağırov hər adama qismət olmayan şərəfli bir ömür yolu keçib:

- Bu bir həqiqətdir ki, işinin, peşəsinin ustası olmayan adam Ulu Öndərlə işləyə bilməz. Amma hər peşəkar da tarixi Rafiq kimi fotolarda yaşada bilməz. Bunu yalnız Rafiq kimi işinə həssas yanaşan insanlar bacara bilər. Lakin deyim ki, fotoqraf kimi onun bir "faciəsi" var. Rafiq indiyə kimi bir milyondan çox kadr çəkib. Onun Ulu Öndərlə bağlı çəkdiyi fotoları istər ölkə daxilində, istərsə də xaricdə dərc etməyən qəzet, sayt yoxdur. Heydər Əliyev haqqında yazılan bütün kitablarda, keçirilən sərgilərdə, idarə və təşkilatlarda yaradılan guşələrdə, muzeylərdə, Rafiqin çəkdiyi fotolardan istifadə edilir. Amma bir dəfə də olsun bu fotoların altında onun imzası yazılmayıb. Dərc edilən fotolarına görə müəllif olaraq qonorar almayıb. Buna baxmayaraq, müəllifi olduğu fotolarla qürur duyur. Bu o deməkdir ki, onu şöhrətdən çox işi düşündürüb. Əməli, fəaliyyəti ilə nümunə göstərib.

Rafiq Bağırovun çəkdikləri təkcə foto deyil - tarixdir, yaddaşdır, salnamədir. Onlar olmasaydı, bəlkə də o illərin ağrısı da, ümidi də bu qədər bizə yaxın olmazdı. Rafiqin obyektivi zamanın küləyindən qorunan yaddaş sandığıdır. Bu gün o fotolara baxdıqca anlayırıq ki, xalqın böyük yolu həm də böyük yaddaşdan keçir. Bu yaddaşı bizə bəxş edənlər, əbədiləşdirib lentə həkk edənlər sözün əsl mənasında tarix yazan insanlardır. Və elə buna görə də Rafiq Bağırovun adı təkcə bir fotoqraf kimi yox, həm də bir şərəfli tarixin salnaməçisi kimi tarixdə yaşayacaq.

*Elşən QƏNİYEV,*
*İlham BABAYEV (foto),*
*"Azərbaycan"*

# "BIAF incəsənətimizi populyarlaşdırmaq və Azərbaycanın mədəni sərvətini dünyaya nümayiş etdirmək üçün əla fürsətdir"



Heydər Əliyev Fondunun təşəbbüsü və Mədəniyyət Nazirliyinin dəstəyi ilə Azərbaycanda bir çox əhəmiyyətli mədəni layihə uğurla həyata keçirilir və onlar milli incəsənətin inkişafı üçün yeni üfüqlər açır.

Bu barədə AZƏRTAC-ın müxbirinə müsahibəsində Bakı Beynəlxalq İncəsənət Festivalının fəxri səfiri və Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin bədii rəhbəri və baş dirijoru Fuad İbrahimov bildirib.

Maestro qeyd edib: "Fondun və nazirliyin ölkənin mədəni həyatında fəal iştirakı, yeni ideyalar və formatlar üzərində daimi axtarışı davamlı olaraq canlı və ilhamverici təşəbbüslərin ortaya çıxmasına səbəb olur. Bu məqsədyönlü iş dialoqu, təcrübə mübadiləsini və ilhamlanmanı təşviq edən yeni yaradıcı məkanlar yaradır".

Bakı Beynəlxalq İncəsənət Festivalının (BIAF) əhəmiyyətindən danışan Fuad İbrahimov bu cür təşəbbüslərin beynəlxalq əməkdaşlıq və mədəni diplomatiya baxımından təkcə bədii deyil, həm də dərin maarifləndirici əhəmiyyətə malik olduğunu vurğulayıb.

O əlavə edib: "Dünyada bir tendensiya müşahidə edirik: yeni əsərlər, gənc solistlər, dirijorlar və rejissorlar yeni perspektivlər gətirir, səhnəni yeniləyir və mədəni üfüqləri genişləndirirlər. Konsertlərə və tamaşalara qatılmaq insanların zövqlərinin, dünyagörüşlərinin inkişaf etdirilməsinə və sənəti fərqli prizmalardan qavramağı öyrətməyə kömək edir. Bütün bunlar cəmiyyəti mənəvi cəhətdən daha zəngin və mədəni baxımdan yetkin edir".

Fuad İbrahimov qeyd edib ki, musiqi millətindən və mənşəyindən asılı olmayaraq, insanları birləşdirə bilən universal bir dildir. "Mədəni diplomatiya baxımından BIAF kimi festivallar çox böyük əhəmiyyət kəsb edir, ölkələr arasında körpülər yaradır, etimad və dostluğu möhkəmləndirir. Biz xarici musiqiçiləri və rejissorları dəvət edirik, onlar öz növbəsində bizə dəvət göndərirlər və beləliklə, əsl yaradıcı birlik yaranır", - deyə dirijor vurğulayıb.

Festivalın gələcəyindən danışan maestro onun illik ənənəyə çevriləcəyinə əminliyini ifadə edib.

"Əminəm ki, festivala maraq daha da artacaq. Hər il iştirakçıların və tamaşaçıların dairəsi genişlənəcək, həmçinin yaradıcı əlaqələr möhkəmlənəcək. Bu, təkcə sənətimizi populyarlaşdırmaq üçün deyil, həm də Azərbaycan mədəniyyətinin zənginliyini dünyaya nümayiş etdirmək üçün gözəl bir fürsətdir. Ölkəmizin çoxlu mənzərəli guşələri var və inanıram ki, gələcəkdə festival mütləq Şuşaya çatacaq. Hələlik hər şey Bakıda cəmləşib, axı ilk festivala evsahibliyi etmək həmişə xüsusi məsuliyyət tələb edir. Amma əminəm ki, qarşıdakı illərdə onun əks-sədası bütün Azərbaycana yayılacaq", - deyə F.İbrahimov sözlərini yekunlaşdırıb.

BEYNƏLXALQ HƏYAT

# Sudanda milyonlarla insan aclıq təhlükəsi ilə üzləşib

Sudandakı humanitar böhran sürətlə pisləşir. BMT-dən verilən yeni məlumatlara görə, Darfur və Kordofanın bəzi ərazilərində davam edən döyüşlər və əhalinin yardımdan tamamilə məhrum edilməsinə səbəb olan mühasirə tammiqyaslı aclıq təhlükəsi yaradıb.

İnteqrasiya olunmuş Qida Təhlükəsizliyi Mərhələ Təsnifatının (İQTMT) son hesabatına əsasən, ölkə daxilində 21 milyondan çox insan kəskin qida çatışmazlığı ilə üzləşib. Bu, dünyada ən böyük belə böhrandır.

Təhlilə görə, Şimali Darfurdakı El Faşer və Cənubi Kordofanın Kaduqli şəhərlərində aclıq hökm sürür. Burada ailələr hətta yarpaq, heyvan yemi və otla dolanmağa məcburdurlar. Ümumiyyətlə, ölkə üzrə təxminən 375 min insan 5-ci mərhələnin "fəlakətli" qida təhlükəsizliyinə uyğun bir vəziyyətdədir. Bu o deməkdir ki, onlar aclıq həddindədirlər.



BMT agentlikləri və humanitar tərəfdaşlar tərəfindən istifadə edilən IPC sistemi böhranları beş mərhələdə qiymətləndirir. Beşinci mərhələ isə kəskin qidalanma çatışmazlığı və artan ölüm halları deməkdir.

Ötən həftə Təcili Müdaxilə Qüvvələri (TMQ) tərəfindən Əl Faşerin ələ keçirilməsindən bəri - 500 gündən çox mühasirədən sonra mülki şəxslər kritik vəziyyətdədirlər. BMT-nin məlumatına görə, humanitar işçilər də daxil olmaqla yüzlərlə mülki şəxs öldürülüb və bir çoxu mühasirədədir. Çoxsaylı təcili müraciətlərə baxmayaraq şəhər hələ də qida, dərman və humanitar yardımdan məhrumdur. BMT-nin Humanitar İşlərin Koordinasiyası Ofisi (OCHA) vəziyyəti qəbuledilməz adlandırıb və humanitar karvanlar üçün dərhal təhlükəsiz keçid tələb edib.

Beynəlxalq Miqrasiya Təşkilatının (BMQ) məlumatına görə, oktyabr ayının sonundan bəri təxminən 71 min insan Əl Faşerdən və ətraf ərazilərdən qaçıb. Bir çox insanın yol boyu qətllər, adam oğurluğu və cinsi zorakılıqla qarşılaşdığı barədə məlumatlar var. Buna baxmayaraq köçkünlərin əksəriyyəti Tavila şəhəri yaxınlığında müvəqqəti sığınacaq tapıb. Amma onlar açıq havada yatırlar və qidaya, təmiz suya ehtiyacları var.

Bu arada qonşu Kordofan bölgəsində son günlərdə zorakılıq yenidən alovlanıb və on minlərlə insan didərgin düşüb. Eyni zamanda BMT-nin Uşaq Fondu (UNICEF) ötən həftə Kaduqlidə raket hücumu nəticəsində müvəqqəti sığınacaqlarda olan ən azı 8 uşağın öldüyünü bildirib.

BMT-nin Sudandakı humanitar koordinatoru Denis Broun vəziyyəti "cəbhə xətti arasında qalan, yardıma çıxışı olmayan və kütləvi aclıq həddində olan mülki əhali üçün fəlakət" adlandırıb. O, təcili atəşkəs, eləcə də mülki əhalinin qorunması və humanitar işçilər üçün sərbəst giriş çağırışı ilə çıxış edib.

Bu arada donorlar BMT-nin bu il Sudanda humanitar yardım planının həyata keçirilməsi üçün lazım olan 4,16 milyard dolların yalnız 28 faizini ayırıblar. Təşkilat xəbərdarlıq edir ki, hərbi əməliyyatlara son qoyulmasa və humanitar yardımda əhəmiyyətli artım olmasa, milyonlarla sudanlı yaxın aylarda fəlakətli aclıqla üzləşə bilər.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*

OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

"AZƏRBAYCAN" *qəzetinə*
*abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**




**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*

# "YAŞAT" Fondunun 2-ci intellektual marafonu keçirilib




Noyabrın 1-dən 3-dək "YAŞAT" Fondunun təşkilatçılığı ilə şəhidlərimizin övladları üçün 2-ci intellektual marafon keçirilib.

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, Vətən müharibəsində qazanılan Zəfərin beşinci ildönümü çərçivəsində gerçəkləşən layihə 16-23 yaş aralığındakı 50-yə yaxın şəhid övladını əhatə edib.

Marafon BP-nin, Azercell Telekomun və Quba Palace Hotelin sponsorluğu ilə reallaşdırılıb.

Əsas məqsəd iştirakçıların asudə vaxtlarının səmərəli təşkili, onların intellektual inkişafı, yeni bilik və bacarıqlar əldə etmələrinə dəstək olub.

Marafon müddətində müxtəlif intellektual oyunlar, bilik yarışmaları, əyləncə saatları keçirilib.

Həmçinin qaliblər və bütün marafon iştirakçıları müxtəlif qiymətli hədiyyə, mükafatlarla təltif olunublar.

"YAŞAT" Fondu tərəfindən şəhidlərimizin övladları üçün ölkə daxilində və xaricində düşərgələr, təlim kursları və digər tədbirlər mütəmadi təşkil olunur.

# Həyatdan zövq alan insanlar daha uzunömürlü olurlar

Zamanı saxlamaq mümkün deyil. İllər keçdikcə saçlarımız ağarır, addımlarımız yavaşıyır, orqanizmimiz dəyişir. Bu dəyişikliklərlə yanaşı, beynimiz də qocalır. Unutqanlıq, diqqət dağınıqlığı, düşüncə ləngliyi artıq yaşlanmanın əlamətlərinə çevrilir. Üstəlik, bu proses düşündüyümüzdən daha erkən başlayır.

Doğuşdan etibarən DNT həm xarici, həm də daxili təsirlərə məruz qalır. Uşaqlıq və yeniyetməlik dövrlərində orqanizm bu zərbələri asanlıqla dəf edir. Lakin zaman keçdikcə hüceyrələrdəki təmir mexanizmləri zəifləyir və xüsusilə 50 yaşdan sonra bu zədələrin bərpası çətinləşir. Alimlərin hesablamalarına görə, genetik kodları hüceyrələrdə saxlayan 46 xromosomun hər birində hər gün ən azı 2 trilyondan çox DNT qırılması baş verir.

Bu yalnız hüceyrələrin təbii çoxalması zamanı baş verən pozulmalardır. Yaşlandıqca qırılma səbəbləri artır. Qəbul edilən qida, nəfəs aldığımız hava və ya dəri vasitəsilə bədənimizə daxil olan kimyəvi toksinlər, təbii şüalanma, kompüter tomoqrafiyası, hətta hava limanlarında təhlükəsizlik dəhlizlərindən keçərkən məruz qaldığımız rentgen şüaları DNT-ni zədələyir. Daha pisi isə odur ki, bu zədələri bərpa edən ferment sistemləri də bizimlə birgə qocalır və zəifləyir.

Almaniyalı tədqiqatçılara görə, ribosom DNT-si insan bədənində cinsi yetkinlik dövrünə qədər aktiv şəkildə işləyir. Lakin yetkinlikdən sonra bu mexanizmin fəaliyyəti azalır və bu da qocalma prosesini molekulyar səviyyədə işə salır.

Rusiya Elmlər Akademiyasının Seçenov Universitetinin mütəxəssisləri isə hesab edirlər ki, insan orqanizmində qocalma prosesi hüceyrə səviyyəsində 25 yaşdan etibarən başlayır. Məhz bu yaşdan ürək-damar sistemi, şəkərli diabet və piylənmə kimi xroniki xəstəliklərin təməli qoyulur. Adətən, problemlər 40 yaşdan sonra üzə çıxır, lakin onların səbəbləri çox vaxt gənclik illərində formalaşır.

Həyat keyfiyyətinə təsir edən əsas amillər fiziki aktivlik, iş və istirahət balansı, düzgün qidalanma və yuxu rejimidir. Müasir dövrdə fasiləsiz informasiya axını, ekran qarşısında uzun müddət qalmaq və yuxusuzluq beynin bərpa gücünü azaldır. Orqanizm istirahət etmədikcə, bərpa prosesləri də dayanır.

Bununla belə müasir elmdə həm fiziki, həm də zehni qocalmanı yavaşlatmaq üçün müxtəlif üsullar, texnologiya və müalicələr var. Təəssüf ki, onların əksəriyyəti bizi yalnız xaricdən gənc göstərir. Halbuki beynin və bədənin gənc qalması üçün ən təsirli vasitə gündəlik sadə vərdişlərdir. İlk növbədə, hər bir insanın yaşamaq üçün motivasiyası olmalıdır. Mütəxəssislərin fikrincə, məqsədi olan və həyatdan zövq almağı bacaran insanlar daha uzunömürlü olurlar. Bunda sosial əlaqələr də böyük rol oynayır. Tədqiqatlar göstərir ki, yaxın münasibətləri olan insanlar tənha yaşayanlardan 20 faiz daha çox yaşayırlar. Yeni insanlarla tanışlıq, söhbət və ünsiyyət beyində yeni neyron əlaqələri yaradır. Bu səbəbdən dostlarla görüşmək, ailə ilə vaxt keçirmək, ictimai fəaliyyətlərə qoşulmaq çox vacibdir.



Davamlı öyrənmək də beynin gəncliyini qorumağın əsas şərtlərindəndir. Beyni aktiv saxlamaq üçün yalnız bildiklərimizi təkrarlamamalı, həm də yeni hobbi, dil, musiqi aləti və səyahətlərlə öyrənmə prosesini gücləndirməliyik. Elmi tədqiqatlar sübut edib ki, mütəmadi olaraq öyrənən insanlar yaddaş itkisinə daha davamlı olurlar.

Stres həyatın bir hissəsidir. Bədənimiz qısamüddətli stresli vəziyyətləri idarə edə bilir. Problem, stres xroniki hala gələndə başlayır. Zamanında onun fərqinə varıb, gün ərzində istirahətə vaxt ayırmalı, nəfəs məşqləri və zehinlilik (mindfulness) texnikalarından istifadə edilməlidir. Qısamüddətli stres bədənə bəzən xeyir verir: soyuq duş, sauna və ya intensiv fiziki məşq orqanizmdə uzunmüddətli rahatlanma yaradır.

"Fast food" və qablaşdırılmış qidalar təkcə bədəni deyil, beyni də qocaldır. Tərkibində xeyli miqdarda doymuş yağ və şəkər olan bu qidaların uzun illər istehlak edilməsi demans riskini artıra bilər. Balıq, qoz, zeytun yağı, tərəvəz və giləmeyvələr beyinə antioksidant və omeqa-3 yağ turşuları verir. Bu maddələr neyronların qoruyucu qalxanı hesab edilir.

Hər gecə 7-9 saat yatmağa çalışa bilərsiniz, lakin yuxu keyfiyyətiniz zəifdirsə, yorğunluq hissi ilə oyanarsınız. Yuxunun keyfiyyəti, eləcə də müddəti beyin sağlamlığı üçün çox vacibdir. Dərin yuxu zamanı beyin gün ərzində toplanan zərərli zülallardan təmizlənir. Yetərincə yatmayan insanın yaddaşı və diqqəti, araşdırmalara görə, özündən bir neçə il yaşlı beyinlə eyni səviyyədə olur. Qısa və ya fasiləli yuxu bu prosesləri pozur. Zamanla bu, diqqəti cəmləməkdə çətinlik və yaddaş problemlərinə səbəb olur. Mütəxəssislər hər gün eyni vaxtda yatıb-oyanmağa xüsusilə diqqət etməyi tövsiyə edirlər.

Fiziki məşqlər, xüsusilə ürək-damar sistemini gücləndirən fəaliyyətlər beynin gənc qalmasını dəstəkləyir. Bu növ fəaliyyət beyin sağlamlığını dəstəkləyən böyümə hormonlarını artırır. Mütəxəssislər həftədə ən azı 150 dəqiqə ortasəviyyəli hərəkət etməyi tövsiyə edirlər. Hərəkət qan dövranını artırır, stresi azaldır və beyində yeni hüceyrələrin yaranmasına şərait yaradır.

Yaş almaq qaçılmazdır, lakin qocalmaq zəruri deyil. Əgər beyin və bədənimizə qayğı göstərsək, sağlam, enerjili və düşüncəsi iti qalmaq mümkündür. Unutmamalıyıq ki, həyat bizə yalnız bir dəfə verilir. Onu uzun və keyfiyyətli yaşamaq isə öz əlimizdədir.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

# Leysan xarakterli yağış yağacaq

Azərbaycanda bu günə gözlənilən hava şəraiti açıqlanıb.



Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında arabir leysan xarakterli yağış yağacağı, 4-dən 5-nə keçən gecə və səhər yarımadanın bəzi yerlərində intensivləşəcəyi gözlənilir. Gündüz tədricən kəsiləcək. Mülayim cənub-şərq küləyi əsəcək. Havanın temperaturu gecə 9-12, gündüz 15-18 dərəcə isti olacaq. Atmosfer təzyiqi normadan yüksək 769 millimetr civə sütunu, nisbi rütubət 80-90 faiz təşkil edəcək.

Azərbaycanın əksər rayonlarında havanın əsasən yağmursuz keçəcəyi, lakin bəzi şərq rayonlarında arabir yağış yağacağı proqnozlaşdırılır. Ayrı-ayrı yerlərdə qısamüddətli leysan xarakterli olacağı ehtimalı var. Bəzi yerlərdə arabir duman müşahidə ediləcək. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 6-11, gündüz 16-21, dağlarda gecə 0-5, gündüz 5-9 dərəcə isti olacaq.

Naxçıvan şəhərində, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərurda hava əsasən yağmursuz keçəcək. Arabir duman müşahidə ediləcək. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 0-5, gündüz 17-22 dərəcə isti olacağı proqnozlaşdırılır.

Xankəndi şəhərində, Şuşa, Xocalı, Xocavənd, Füzuli, Ağdam, həmçinin Daşkəsən, Gədəbəy, Göygöldə hava əsasən yağmursuz keçəcək. Lakin gecə bəzi dağlıq ərazilərdə çiskinli yağış yağacağı ehtimalı var. Arabir duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 1-5, gündüz 10-15 dərəcə isti olacağı bildirilir.

Şərqi Zəngəzur: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilanda hava əsasən yağmursuz keçəcək. Arabir duman müşahidə ediləcək. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 0-5 dərəcə isti, dağlıq ərazilərdə 2 dərəcəyədək şaxta, gündüz 10-15 dərəcə isti olacağı ehtimal edilir.

Gəncə və Naftalan şəhərlərində, Qazax, Samux, Goranboy, Tərtər, Şəmkir, Tovuz rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gecə bəzi yerlərdə az çiskinli olacağı ehtimalı var. Arabir duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 6-10, gündüz 15-19 dərəcə isti olacağı ehtimalı var.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusarda hava əsasən yağmursuz keçəcək. Lakin bəzi şərq rayonlarında arabir yağış yağacağı gözlənilir. Arabir duman müşahidə ediləcək. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 4-8, gündüz 14-18 dərəcə isti, dağlarda gecə 1 dərəcə şaxtadan 3 dərəcəyədək isti, gündüz 5-9 dərəcə isti olacaq.

Mingəçevir və Şirvan şəhərlərində, Yevlax, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Bərdə, Beyləqan, Sabirabad, Saatlı, Göyçay, Ucar, Hacıqabul, Zərdab, Salyan, Neftçalanın bəzi yerlərində arabir yağış yağacağı proqnozlaşdırılır. Ayrı-ayrı yerlərdə leysan xarakterli olacağı ehtimalı var. Axşama doğru qərb rayonlarında tədricən kəsiləcək. Arabir duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 6-11, gündüz 16-21 dərəcə isti olacağı gözlənilir.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara, Biləsuvar, Cəlilabadın bəzi yerlərində arabir yağış yağacağı ehtimal edilir. Ayrı-ayrı yerlərdə qısamüddətli leysan xarakterli olacağı ehtimalı var. Arabir duman müşahidə ediləcək. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 9-12, gündüz 16-19, dağlarda gecə 3-6, gündüz 7-9 dərəcə isti olacağı proqnozlaşdırılır.

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti
539-49-20

**ALLAH RƏHMƏT ELƏSİN!**

İqtisadiyyat Nazirliyinin rəhbərliyi və kollektivi iş yoldaşları Nərgiz Muradovaya atası

**NAMİQ MURADOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və | |
| Baş redaktor müavinləri | - 538-86-86, 539-72-39 | informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Məsul katib | - 539-43-23, | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib müavinləri | - 539-44-91, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 4040
Sifariş 2241

Qiyməti 60 qəpik